**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**HÜQUQ FAKÜLTƏSİ**

---

**Əliyev Zaur Hümbət oğlu,**
Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı,
hüquq üzrə fəlsəfə doktoru, dosent.

**Əliyev Etibar Əli oğlu,**
Bakı Dövlət Universiteti Hüquq fakültəsi “İnsan hüquqları və informasiya hüququ” UNESCO kafedrasının professoru,
hüquq elmləri doktoru.

**Hüseynova Fatimə Etibar qızı,**
Bakı Dövlət Universiteti Hüquq fakültəsi “Beynəlxalq xüsusi hüquq və Avropa hüququ” kafedrasının dosenti,
hüquq üzrə fəlsəfə doktoru.

# MEDİASİYA HÜQUQU

## XÜSUSİ HİSSƏ

### DƏRS VƏSAİTİ

***Bakı Dövlət Universiteti Hüquq fakültəsi Elmi Şurasının qərarı əsasında (protokol № 07, 13.06.2023-cü il) çapa tövsiyə olunmuşdur.***

**Bakı – 2024**

***Bakı Dövlət Universiteti Hüquq fakültəsinin 96 illiyinə həsr olunur***

***Elmi redaktor:***

**Əliyev Ə.İ.,** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq elmləri doktoru.

***Rəyçilər:***

**Bağırov A.R.,** Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru;

**Hüseynov T.İ.,** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının müdiri, hüquq elmləri doktoru, dosent;

**Məmmədov Ə.Q.,** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent.

**Ə (57) 2024**
**Əliyev Zaur Hümbət oğlu, Əliyev Etibar Əli oğlu, Hüseynova Fatimə Etibar qızı.** Mediasiya hüququ. Xüsusi hissə. Dərs vəsaiti. Bakı, "Zərdabi-Nəşr" MMC, 2024, 200 səh.

Azərbaycan Respublikasında, ilk dəfə olaraq, təhsil standartlarına uyğun tərtib edilmiş bu dərs vəsaitində mediasiya hüququnun xüsusi hissəsi ilə bağlı məsələlərin əhatəli şəkildə işıqlandırılmasına təşəbbüs göstərilir. Burada mediasiya hüququnun xüsusi hissəsinin struktur tərkibi olan subinstutlara anlayış verilir, mediasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərin hüquqi tənzimlənməsinin spesifik aspektləri şərh edilir.

Mediasiya qanunvericilik aktları əsasında hazırlanmış bu fundamental əsər hüquq elmində mövcud olan boşluqların doldurulmasına, hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir. Müasir dövrdə mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili və həyata keçirilməsi fonunda fiziki və hüquqi şəxslərin bu istiqamətdə maariflənməsi, vətəndaş cəmiyyətində hüquqi düşüncə və mediasiya mədəniyyətinin formalaşması baxımından, dərs vəsaiti mühüm əhəmiyyət kəsb edir.

Dərs vəsaitindən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, mediasiya hüquq elmi sahəsində çalışan mütəxəssislər, praktik işçilər, ekspertlər və digər şəxslər faydalana bilərlər.

ISBN

© Z.H.Əliyev, 2024.
E.Ə.Əliyev, 2024.
F.E.Hüseynova, 2024.

# ÖN SÖZ

Müasir dövrdə kainatda baş verən qloballaşma və sosial-iqtisadi transformasiyalar şəraitində beynəlxalq münasibətlər sisteminin tərkib hissəsi olan müstəqil və suveren Azərbaycan Respublikasında mediasiya fəaliyyəti ilə bağlı ictimai münasibətlərin günbəgün inkişaf edərək, kütləvi xarakter alması tendensiyası müşahidə edilir. Beynəlxalq aləmdə insan hüquqlarının qorunması üzrə fəaliyyət ictimai-sosial hadisə kimi hər bir ölkənin milli infrastrukturunda vacib yer tutur.

Belə ki, ölkənin hərtərəfli tərəqqisi üçün insan hüquqlarının təminolunma səviyyəsi əsas göstərici kimi önəmli faktorlardan biridir. Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş, bir sıra qlobal layihələr gerçəkləşərək, ənənəvi sosial-iqtisadi və idarəetmə mexanizmlərində ciddi dəyişikliklər baş verməklə ölkədə yeni infrastruktur sahələri yaranmış, beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi və məhkəmə-hüquq sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev bu istiqamətdə öz fikirlərini belə ifadə etmişdir: “Azərbaycanda insan hüquqlarının qorunması, insan azadlıqlarının təmin edilməsi həmişə diqqət mərkəzində olmuşdur. İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir”. Belə ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquq və azadlıqlara malik olması barədə müddəalar Konstitusiyada, konkret olaraq, öz əksini tapmış, eləcə də insan hüquqlarının müdafiə üsulları müəyyənləşdirilmişdir.

Müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi və sosial-iqtisadi sferalarda çoxaspektli inkişaf kursu bazar iqtisadiyyatına keçid və dünyada baş verən qloballaşma prosesləri fonunda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən zənginləşdirilərək, yeni çalarlarla və uğurla davam etdirilir. Gələcəyə istiqamətlənmiş bu sosial-iqtisadi və hüquqi islahatlar bütün sahələrdə, o cümlədən əhaliyə hüquqi xidmətlərin göstərilməsi sektorunda öz müsbət nəticələrini verməkdədir. Dövlət başçısı İlham Əliyevin dediyi kimi, **“**Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi ümumdövlət vəzifəsi hesab edilir**.** Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq".

Bu gün Azərbaycanda vətəndaş cəmiyyətində müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf və beynəlxalq münasibətlər sisteminə inteqrasiya insan hüquqlarının müdafiəsi sahəsində təminat mexanizmlərinin və müvafiq infrastrukturun təkmilləşdirilməsini, maddi-texniki bazanın modernləşdirilməsini, bu istiqamətdə işlərin beynəlxalq standartlara tam uyğun aparılmasını, bütövlükdə hüquq idarəetmə sisteminin ölkənin sosial-iqtisadi inkişafındakı rolunun daha da artırılmasını zəruri edir. Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi (2006-cı il), "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərmanın (2019-cu il) imzalanması, “Mediasiya haqqında” Azərbaycan Respublikası Qanununun (2019-cu il) və digər normativ hüquqi aktların qəbul edilməsi söylənilən fikirlərə parlaq nümunədir.

Eyni zamanda, qeyd etməliyik ki, nüfuzlu ictimai təşkilat olan Heydər Əliyev Fondu insan hüquqları sahəsində müvafiq

müdafiə vasitələrinin inkişaf etdirilməsini öz fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir və bu fəaliyyət sferasına aid proqram və layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, İSESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva tərəfindən ölkədə insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyətin gücləndirilməsinə və inkişafına, gənc hüquqşünas kadrlar nəslinin formalaşmasına göstərilən diqqət və qayğı, eləcə də verilən real töhfələr təqdirəlayiqdir.

Müasir dövrdə yaradılmış koordinasiya nəticəsində Azərbaycanda beynəlxalq aləmdə qabaqcıl təcrübəyə əsaslanan mediasiya institutu təşəkkül tapmış və bu fəaliyyət növünün inkişaf etdirilərək, daha da genişlənməsi üçün münbit şərait yaradılmışdır. Belə ki, 12 fevral 2020-ci il tarixində "Mediasiya Şurası" qeyri-kommersiya hüquqi şəxsin təsis edilməsi, eləcə də regionlarda müasir standartlara uyğun mediasiya təşkilatlarının yaradılması prosesləri ədliyyə sisteminin inkişafında yeni mərhələ olmaqla yanaşı, bu sahədə islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə rəvac vermişdir.

Göstərilən fundamental amilləri və mediasiya fəaliyyəti sferasında ictimai münasibətlərin pozitiv inkişaf meyillərini diqqətə çəkərək, bu kontekstdə mediasiya hüquq elmi sahəsinin müasir meyar və standartlar çərçivəsində tədqiq olunmasına zərurət yaranmışdır. Azərbaycan Respublikasında, ilk dəfə olaraq, hazırlanmış və hüquq ictimaiyyətinə təqdim edilən bu əsər məhz mediasiya hüququnun xüsusi hissəsinə həsr edilmişdir.

Cəmiyyətdə mediasiya fəaliyyəti ilə bağlı müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətlərin hüquqi tənzimlənməsi müvafiq hüquq normaları vasitəsi ilə həyata keçirilir. Bu kimi hüquq normalarının məcmu halında birləşməsi mediasiya hüququ adlanır və o, Azərbaycan Respublikasının milli hüquq sistemində insan hüquqları kontekstində kompleks hüquq institutu statusuna malik olan tərkib hissə kimi formalaşma mərhələsindədir.

Bu kontekstdə ölkəmizdə, ilk elmi tədris mənbəyi kimi, geniş formatda və müvafiq təhsil standartlarına uyğun yazılmış sözügedən əsər, eləcə də konkret hüquqi model və konstruksiya üzrə qurulmuş mediasiya hüquq institutunun xüsusi hissəsi spesifik mediasiya-hüquq münasibətlərinin nizama salınmasında vacib rol oynayır. Belə ki, əsər mediasiya hüququnun xüsusi hissəsinin ayrı-ayrı subinstitutları ilə tanışlıq yaradır, oxucuları mediasiya fəaliyyətinin həyata keçirilməsi sferasında mediasiya prosesi, mediasiya prosesinin əsasları, mediasiya prosesinə hazırlıq, mediasiya sessiyaları, mediasiyada yekun iclas, mediasiya fəaliyyəti sahəsində kommunikasiya, məsuliyyət və s. Münasibətlərin hüquqi cəhətdən tənzimlənməsi barədə elmi biliklərlə təmin edir.

Əsəri fərqləndirən məziyyətlərdən biri də ondan ibarətdir ki, o, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin təklif və tövsiyələri nəzərə alınmaqla hazırlanmışdır. Zənnimizcə, dərslik müasir dövrdə Azərbaycanda mediasiya fəaliyyəti sahəsində baş verən qlobal inteqrasiya prosesləri fonunda əhalinin, xüsusən də, fiziki və hüquqi şəxslərin bu istiqamətdə maariflənməsi, habelə cəmiyyətdə hüquqi düşüncə və mediasiya mədəniyyətinin formalaşması baxımından, mühüm əhəmiyyətə malikdir.

Müasir mediasiya münasibətləri sahəsində ən yeni normativ hüquqi sənədlər, çoxsaylı elmi mənbələr və mövafiq tədris proqramı əsasında yazılmış bu fundamental əsər Azərbaycan milli hüquq sistemində və onun tərkib hissəsi olan mediasiya hüququ sferasında mövcud olan boşluqların doldurulmasına, habelə hüquqi alqoritm və nihilizm təzahürlərinin aradan qaldırılmasına xidmət edir.

Dərs vəsaitindən ali məktəb tələbələri, müəllimlər, elmi işçilər, hüquqşünaslar, mediasiya fəaliyyəti sahəsində çalışan mütəxəssislər, praktik işçilər və digər şəxslər faydalana bilər.

**Zaur Əliyev**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı,**
**hüquq üzrə fəlsəfə doktoru, dosent**

# XÜSUSİ HİSSƏ.
# MEDİASİYA HÜQUQUNUN TƏRKİB HİSSƏLƏRİ

## I FƏSİL. MEDİASİYA PROSESİNİN ƏSASLARI

### 1.1. Mediasiyaya müraciət
### 1.1.1. Mediasiya prosesi və onun mərhələləri

Hər şeydən əvvəl qeyd etməliyik ki, mediasiya prosesində iştirak edən hər bir tərəfin irəli sürdüyü tələbin, mövqenin, xahişin altında **maraq** vardır. Azərbaycan dilinin izahlı lüğətinə görə, maraq bir şeyə diqqət göstərmək, bir şeyi bilmək, öyrənmək həvəsi, meyili, arzusu deməkdir.[1]

Mübahisələrin alternativ həlli mediasiya prosesi vasitəsilə həyata keçirilir. **Mediasiya prosesi** dedikdə mübahisə üzrə qərar qəbuletmə prosesi, tələblər irəli sürən və öz mövqelərini, maraqlarını arqumentlər ilə əsaslandıran tərəflər arasında formalaşan qarşılıqlı təsir mexanizmi başa düşülür. Lakin mediasiya prosesi mərhələlərinin əsasında duran fundamental reallıq ondan ibarətdir ki, mübahisə tərəfləri yalnız onların mövqelərinin necə qəbul edilməsindən deyil, həm də onların maraqlarının necə təmin edilməsindən asılı olaraq qərar qəbul edirlər.

Mediasiya sahəsindəki bilikləri ötürmək və iştirakçıların mediasiya sahəsindəki bacarıqlarını yeniləmək üçün "ADR Center"in mediasiya mərhələləri üzrə metodologiyası uzunmüddətli praktikaya əsaslanaraq, **mediasiya prosesinin mərhələlərini** aşağıdakı kimi fərqləndirir: hazırlıq, birgə sessiya, fərdi sessiyalar və yekun sessiya.[2]

---

[1] Bu barədə ətraflı bax: Azərbaycan dilinin izahlı lüğəti. II cild / Filologiya elmləri doktoru, professor Ağamusa Axundovun redaktəsi ilə. Bakı, "Çıraq", 2000, s.235.

[2] "ADR Center"in 4 x 4 matrisi barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.44-45.

Göstərilən **dörd əsas mərhələ** mediasiya haqqında sorğunun – müraciətin daxil olması tarixindən mediasiya prosesinin yekunlaşması vaxtına qədər xronoloji ardıcıllıqla bölünür. Belə ki, **mediasiyaya müraciətlə** bağlı proses mediatorun və tərəflərin "hazırlanması" ilə başlayır – **birinci mərhələ**, birgə açılış sessiyası və ya "məlumatlandırma" mərhələsi ilə davam edir – **ikinci mərhələ**. Növbəti **üçüncü mərhələ** olan fərdi sessiyalar da, faktiki olaraq, iki etapdan ibarətdir – "araşdırma" və "danışıqlar". Yekun mərhələ isə yekun sessiyadır – **dördüncü mərhələ**; bu mərhələyə tərəflərin razılıq əldə edə bilib-bilməməsindən asılı olmayaraq, mediasiya prosesinin yekunlaşdırılması üçün lazım olan bütün zəruri işlərin həyata keçirilməsi daxildir.

### 1.1.2. Mediasiyaya müraciət mediasiya prosesinin ilkin mərhələsi kimi

Mediasiya hüquq institutunun **xüsusi hissəsi** müəyyən struktur tərkib hissələrdən ibarətdir ki, **mediasiya prosesinin əsasları subinstitutu** onlardan biri sayılır. **Mediasiya prosesinin əsasları** dedikdə mübahisələrin alternativ həll (MAH) və mediasiyaya müraciət, mübahisələrin yaranma səbəbləri, təhlili və dinamikası, mübahisələrin yaranmasının və həll edilməsinin mərhələləri, mübahisələrin həllinə psixoloji maneələr, mediasiyaya müraciətin formaları, mediasiya prosesi və onun mərhələləri, eləcə də mediasiyanın həyata keçirilməsi ilə bağlı yaranan digər münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür.

Mediasiya prosesinin ilkin, yəni başlanğıc mərhələsi məhz mediasiyaya müraciətdən başlayır. Məlum olduğu kimi, cəmiyyətdə tarixən mübahisələrin alternativ həll (MAH) spektri təşəkkül tapmışdır. Mediasiya da **unikal proses** olaraq, MAH spektrinin əhatə dairəsinə daxildir. Mediasiya haqqında qanunverici-

liyə görə, mediasiya dedikdə mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı müəyyən olunan proses nəzərdə tutulur.[1]

Eyni zamanda, hüquq ədəbiyyatı səhifələrində göstərilir ki, mübahisələrin həlli üzrə proseslərdə aşağıda göstərilən **formatlar** ehtimal edilir:[2]

– transformativ mediasiya;
– asanlaşdırıcı mediasiya;
– qiymətləndirici mediasiya;
– zərərçəkmiş-təqsirkar mediasiyası;
– Ombudsman proqramları üçün mediasiya;
– məhkəmə mediasiyası və s.

Mediasiyanın həyata keçirilməsi üçün ilkin şərt kimi tərəflər arasında yaranmış və ya yarana biləcək **mübahisə faktoru** çıxış edir. Söhbət mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələr, əmək münasibətlərindən irəli gələn mübahisələr və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrdən gedir (MHQ, maddə 3). Mediasiya qanunvericiliyində təsbit edilmiş hüquq normalarına uyğun olaraq, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur (MHQ, maddə 28, 29). Ona görə də müvafiq mübahisəyə baxılması üçün mediasiyaya müraciət ilkin mərhələ kimi vacib əhəmiyyət kəsb edir.

---

[1] Bu barədə ətraflı bax: “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, “Hüquq Yayın Evi”, 2019, s.3.

[2] Ətraflı bax: Leonardo D’Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.10-18.

Qeyd etməliyik ki, **mübahisə** ictimai münasibətlərin tərkib hissəsi kimi, adətən, tərəflərin eyni bir məsələ ilə bağlı ziddiyyətli maraqlara malik olduqlarına inandıqda əmələ gəlir.[1] Başqa sözlə ifadə etsək, mübahisə – fikirlərin, mövqelərin, mülahizələrin uzlaşmayaraq kəsişməsidir və bu zaman tərəflər öz mövqeyini müdafiə edərək qarşı tərəfin dəlillərini və ya arqumentlərini təkzib etməyə çalışır. İctimai münasibətlər inkişaf edərək mürəkkəbləşdikcə mübahisələrin də qəlizliyi və əmələgəlmə səbəbləri daha da çoxalır. Göstərilən bu amillər mübahisənin yaranmasına və ağırlaşmasına, eyni zamanda, onun praktik və hüquqi həllinə də təsir edir.

Mübahisənin **məzmununu** təşkil edən aspektləri, şərti olaraq, iki qrup üzrə fərqləndirmək mümkündür:

1. Mübahisənin "məqsədi" (motiv və arqumentləri) və açıq aspektləri;

2. Mübahisənin aşkar olmayan (görünməyən) və aşkar edilməli olan "subyektiv" aspektləri.

Bu o deməkdir ki, mübahisə edən tərəflər tətbiq ediləcək mediasiya qanunvericilik aktlarına, sübutedici amillərə, faktlara və mövcud situasiyaya, habelə mübahisənin görünən aspektlərinə aktiv diqqət yetirməklə öz hüquqi mövqelərini formalaşdırırlar; belə vəziyyəti **aktiv yanaşma** da adlandırmaq olar. Bununla yanaşı, mübahisə tərəfləri mübahisənin əsl səbəb və motivlərini, həmçinin mübahisənin narahatlıqlar, qavrayışlar, qorxular, emosiyalar, duyğular, ehtiyaclar, dəyərlər və ya maraqlar kontekstində müəyyən edilən subyektiv aspektləri nəzərdən qaçırırlar; belə mövqeyə **passiv yanaşma** deyilir.

Qeyd edilən amillər mediasiyaya ilkin müraciət zamanı nəzərə alınarsa, həm mübahisə edən tərəflər, həm də mediator mübahisənin əsl mahiyyətini, mövcud situasiyanı və özlərinin

---

[1] Bu barədə bax: məsələn, Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.16-30.

həmin mübahisənin əmələ gəlməsində rollarını daha yaxşı və aydın anlaya bilərlər.

### 1.1.3. Mediasiyaya müraciətin normativ hüquqi tənzimlənməsi

**Q**eyd etməliyik ki, **mediasiyaya müraciət** proseduru həyata keçirilərkən müəyyən mediasiya münasibətləri yaranır. Yaranan bu cür münasibətlər müvafiq mediasiya-hüquq normaları vasitəsi ilə qaydaya salınaraq tənzimlənir. Müvafiq mediasiya-hüquq normaları isə, əsasən, aşağıda göstərilən **normativ hüquqi aktlarda** təsbit olunmuşdur:

– **"Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu** (MHQ).[1] Adıçəkilən qanunda mediasiyaya müraciətlə bağlı ictimai münasibətləri tənzimləyən müvafiq hüquq normaları öz əksini tapmışdır. Bu kontekstdə, məsələn, aşağıdakıları göstərə bilərik: maddə 21.5 – mediasiya prosesi barədə təklifin göndərilməsi, maddə 21.6 – tərəflərdən birinin mediasiya prosesinin tətbiqi barədə zəruri məlumatların və ya yazılı formada təklifin qarşı tərəfə göndərilməsi, maddə 21.7 – göndərilmiş təklif 10 gün ərzində cavablandırılmadıqda və ya hər hansı formada rədd edildikdə mediasiya prosesinə avtomatik xitam verilməsi, maddə 29.1 – ilkin mediasiya sessiyasında iştirak etmək üçün müraciət edən tərəflərə mediator tərəfindən mediasiya prosesinin mahiyyətinin, üstünlüklərinin və qaydalarının izah edilməsi, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirilməsi, maddə 31.1 – məhkəmə mediasiyası zamanı məhkəmə icraatı müddətinin dayandırılması, maddə 35.1 – mediasiya prosesi tətbiq edildikdə tərəflər arasında mübahisə üzrə qanunla nəzərdə tutulan iddia müddəti axımının dayandırılması`və s. müddəalar;

---

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.18-31.

– **Azərbaycan Respublikasının Mülki Məcəlləsi** (MM).[1] Sözügedən normativ hüquqi aktın, məsələn, XVIII fəsli (maddə 372-384) "İddia müddəti" adlanır. Burada iddia müddətinə anlayış verilir, habelə iddia müddətinin müəyyənləşdirilməsi, iddia müddətinin tətbiqi və s. məsələlər barədə müddəalar yer almışdır. Belə ki, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Ümumi iddia müddəti on il, müqavilə tələbləri üzrə iddia müddəti üç il, daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddəti altı il, vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddəti isə üç il təşkil edir. Tələblərin ayrı-ayrı növləri üçün MM ilə ümumi müddətə nisbətən qısaldılmış və ya uzadılmış xüsusi iddia müddətləri təyin edilə bilər. Bu qaydalar, əgər qanunla ayrı hal müəyyənləşdirilməyibsə, xüsusi iddia müddətlərinə də şamil edilir və s.;

– **Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi** (MPM).[2] Bu məcəllədə mediasiyaya müraciət proseduru həyata keçirilən zaman faydalı ola biləcək kifayət qədər müvafiq hüquq normaları təsbit edilmişdir. Məsələn, MPM-in X fəsli (maddə 128-133) prosessual müddətlərə, XVIII fəsli (maddə 254-258) iş üzrə icraatın dayandırılması, XX fəsli (maddə 261-262) iş üzrə icraata xitam verilməsi barədə müddəalara həsr olunmuşdur və sairə;

– **Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi** (İXM).[3] İnzibati hüquq münasibətlərindən irəli gələn

---

[1] Ətraflı bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir: B.C.Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı:«Hüquq Yayın Evi», 2016, s.268-273.
[2] Bax: Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi / Naşir – B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.33-221.
[3] Ətraflı bax: Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi / Buraxılışa məsul: B.C.Kərimli, hüquq üzrə fəlsəfə doktoru . Bakı, "Hüquq Yayın Evi", 2016, s.62-93.

mübahisələrlə bağlı mediasiyaya müraciət prosesinin həyata keçirilməsi zamanı İXM-də təsbit edilmiş müvafiq hüquq normalarından istifadə oluna bilər. Məsələn, göstərilən məcəllənin III bölməsi "İnzibati xətalar haqqında işlər üzrə icraat" adlanır (maddə 48-98). Həmin bölmədə inzibati xətalar haqqında işlər üzrə icraata dair ümumi müddəalar, inzibati xətalar haqqında işlər üzrə icraatın iştirakçıları, onların hüquq və vəzifələri, inzibati xəta haqqında iş üzrə sübutlar və onların qiymətləndirilməsi, eləcə də icraatla bağlı digər tədbirlərin təmin edilməsi istiqamətində praktiki cəhətdən vacib müddəalar ehtiva olunur və s.;

– **Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi** (İPM).[1] Məcəllədə prosessual müddətlər, proses istirakçıları, iddianın növləri, iddia müddəti və s. barədə müvafiq hüquq normaları təsbit edilmişdir (maddə 22-39) ki, onlar da mediasiyaya müraciət prosesində əhəmiyyət kəsb edə bilər;

– **Azərbaycan Respublikasının Ailə Məcəlləsi** (AM).[2] Adıçəkilən normativ hüquqi aktda ailə hüquqlarının müdafiəsi (maddə 7), ailə münasibətlərindən irəli gələn mübahisələrin mediasiya vasitəsilə həlli (maddə 7-1), ailə münasibətlərinə iddia müddətinin tətbiqi (maddə 8) və s. ilə bağlı müddəalar yer almışdır;

– **Azərbaycan Respublikasının Əmək Məcəlləsi** (ƏM).[3] Məcəllədə göstərilir ki, fərdi əmək mübahisələri mediasiya vasitəsilə həll oluna bilər. Fərdi əmək mübahisələri ilə bağlı məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur (maddə 294).

---

[1] Bax: Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsi / Naşir – B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, s.368-430.

[2] Məcəllənin mətni üçün bax: https://www.e-qanun.az/framework/46946 (30.05.2023-cü il).

[3] Ətraflı bax: https://www.e-qanun.az/framework/46943 (31.05.2023-cü il).

Fərdi əmək mübahisələrinin həllində iddia müddətləri xüsusi qaydada tənzimlənir. Belə ki, məsələn, işçi öz hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 3 təqvim ayı ərzində fərdi əmək mübahisələrinə baxan orqana müraciət edə bilər; həmçinin ziyan vurulmaqla bağlı yaranmış əmək mübahisələrinin həlli üçün işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən etibarən 1 il ərzində məhkəməyə müraciət edə bilər. İşçilərin həyat və sağlamlığına vurulmuş zərərin ödənilməsi haqqında tələblərə iddia müddəti şamil edilmir. Göstərilən müddətlər üzürlü səbəblərdən – iddiaçının xəstələnməsi, ezamiyyətdə, yaşayış yerindən kənarda məzuniyyətdə olması, yaxın qohumunun ölməsi və digər obyektiv hallarla bağlı səbəblərdən ötürülərsə, fərdi əmək mübahisəsinə baxan orqan buraxılmış müddəti bərpa edərək mübahisəyə mahiyyəti üzrə baxa bilər. Eyni zamanda, ƏM-də qeyd edilir ki, iddiaçının «yaxın qohumu» dedikdə, işçinin atası, anası, babası, nənəsi, əri (arvadı), uşaqları, bacıları, qardaşları, qudaları, ərinin (arvadının) valideynləri, qardaşları, bacıları başa düşülməlidir (maddə 296). Məcəllədə həmçinin müəyyən edilmişdir ki, mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması məsələsi MHQ ilə müəyyən edilir və s.;

– **“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu** (VMQ).[1] Bu normativ hüquqi aktda da mediasiyaya müraciətlə bağlı münasibətlərin tənzimlənməsində əhəmiyyətli ola biləcək müvafiq hüquq normaları təsbit edilmişdir. Məsələn, müraciət etmək hüququ (maddə 1), vətəndaşların müraciətlərinə dair tələblər (maddə 6), vətəndaşların yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası (maddə 7), müraciətə baxılması müddəti (maddə 10) və s. Müddəalar;

[1] Ətraflı bax: ”Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu / Buraxılışa məsul: Kərimli B.C. Bakı: «Hüquq Yayın Evi», 2017, 136 s.

**– Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarı**.[1] Mediasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı münasibətlərin nizama salınmasında müvafiq hüquq normalarının şərh edilməsinə dair adıçəkilən orqanın qərarları hüququn mənbəyi kimi mühüm rol oynayır. Nümunə qismində aşağıdakı qərarları göstərə bilərik: məsələn, Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373.2 və 384.0.4-cü maddələrinin şərh edilməsinə dair" 3 iyun 2013-cü il tarixli Qərarı (Qərarda qeyd edlir ki, MM-in 384.0.4-cü maddəsində nəzərdə tutulan əşya hüquqlarının müdafiəsi ilə əlaqədar tələblərə iddia müddətinin şamil edilməməsi kredit müqavilələrindən yaranan münasibətlərə aid edilə bilməz); Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155-ci maddəsinin həmin Məcəllənin 4.3–4.6, 55.2, 152.1.6 və 152.1.6-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 14 dekabr 2022-ci il tarixli Qərarı (Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin I hissəsində təsbit edilmiş məhkəmə müdafiəsi hüququnun təmin edilməsi məqsədi ilə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 155.1-ci maddəsinə uyğun olaraq, ilk iddia ilə birlikdə baxılmaq üçün qarşılıqlı iddia verən cavabdehdən həmin Məcəllənin 4.3–4.6-cı maddələrinə əsasən kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə qədər nizamlama qaydalarına (pretenziya və mediasiya) riayət edilməsi tələb olunmur) və digər qərarlar.

Beləliklə, yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, **mediasiyaya müraciət** hüquqi qurum kimi mediasiya prosesinin əsasları subinstitutunun tərkibində yer almışdır. Deməli, mediasiyaya müraciət anlayışı özündə mülki işlər üzrə mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə

---

[1] Bu barədə ətraflı bax: https://constcourt.gov.az/az/decisions (01.06.2023-cü il).

də ailə münasibətlərindən, əmək münasibətlərindən və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin mediasiya təşkilatlarında həlli üçün mediasiyaya müraciətlə bağlı yaranan ictimai münasibətləri tənzimləyən hüquq normalarının sistemini ehtiva edir.

## 1.2. Mediasiyaya müraciətin əsasları

### 1.2.1.Mediasiyaya müraciət növləri

Vətəndaş cəmiyyətində həyata keçirilən mediasiya fəaliyyətinin elmi-nəzəri kontekstdə təhlili və formalaşmış praktika nəticəsində qeyd etməliyik ki, mediasiyaya müraciətin **dörd əsas növü** mövcuddur. Bu sırada aşağıdakıları göstərə bilərik:

1) tərəflərin könüllü təşəbbüsləri;
2) müqavilədə nəzərdə tutulmuş tələblər;
3) məhkəmə tərəfindən mediasiyaya yönəldilmə;
4) qanunvericiliyin göstərişi ilə mediasiya.

Birinci, **tərəflərin könüllü təşəbbüsləri** anlayışı onu ifadə edir ki, əgər hər iki tərəf yaranmış və ya yarana biləcək mübahisəni mediasiya üsulu vasitəsilə həll etmək istəyirsə, onlar öz könüllü təşəbbüsləri ilə qarşılıqlı seçdikləri mediatora və ya mediasiya təşkilatına müraciət edə bilərlər.[1] Belə halda mediasiya prosesi , əsasən, tərəflərin istəklərinə uyğun olaraq, lakin, MHQ-nin tələblərinə cavab verməsi şərti ilə təşkil edilir. Bu zaman tərəflər mediator barədə, eləcə də mediasiya təşkilatı barədə və ya hər hansı digər şərt barədə razılığa gəlmədikləri təqdirdə mediasiyadan imtina etmək hüququna malikdirlər.

İkinci, **müqavilədə nəzərdə tutulmuş tələblər** dedikdə tərəflər arasında bağlanan “müqavilə-əqd”ə daxil edilən xüsusi qeyd başa düşülür. Belə qeyd hüquq ədəbiyyatında klauzula

[1] Mediasiyaya müraciət barədə ətraflı bax: məsələn, Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.55-60.

(latınca – clausula) adlanır.[1] Müqaviləyə xüsusi olaraq daxil edilən belə bir konkret qeyd (klauzula) mübahisələrin müqavilə-əqd bağlayan tərəflərin qarşılıqlı razılığı əsasında mediasiya təşkilatlarında baxılıb həll edilməsini şərtləndirir və onlar üçün müvafiq öhdəlik yaradır. Bu o deməkdir ki, müqavilədə mediasiya barədə qeyd-şərtin nəzərdə tutulması tərəfləri məhkəmədən əvvəl mediasiya təşkilatına müraciət etməyə məcbur edir. Bununla yanaşı, klauzula prinsipindən mediasiya münasibətlərinin ayrı-ayrı aspektlərinin nizamlanmasında da istifadə oluna bilər.

Üçüncü, **məhkəmə tərəfindən mediasiyaya yönəldilmə** mediasiyaya müraciətin digər bir əsası sayılır. Belə təşəbbüs bəzi hallarda tərəflər üçün məcburi olan məhkəmənin göstərişi və ya sərəncamı formasında, digər hallarda isə, sadəcə olaraq, tövsiyə xarakterli ola bilər. Belə ki, məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edə bilər. Tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanarsa, məhkəmə icraatı barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə protokol təqdim edilənədək dayandırılır.

Qeyd etməliyik ki, tərəflər qarşılıqlı razılıq əsasında mübahisəyə baxacaq mediasiya təşkilatı və ya mediator barədə razılığa gələ bilərlər. Belə razılıq olmadıqda, mübahisəyə həmin məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə, həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən mediasiya təşkilatında baxılır. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı mövcud olmadıqda və ya həmin mediasiya təşkilatında işə baxılması

---

[1] Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, s.147-148; Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, с.406.

mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə mediasiyasının aparılması üçün mediator müəyyən edə bilər.[1]

Mediasiya prosesində iştirak edən, lakin müsbət nəticə əldə etməyən tərəflər və ya onlardan biri mediasiya prosesinin nəticələri barədə protokolu təqdim etməklə növbəti dəfə məhkəməyə müraciət etdikdə dayandırılmış icraat təzələnir və işə məhkəmə tərəfindən baxılır. Tərəflər arasında mübahisə mediasiya vasitəsilə həll edildikdə isə barışıq sazişi məhkəməyə təqdim olunur. Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə icraata xitam verilir.

Dördüncü, mediasiyaya müraciət üçün əsas sayılan hallardan biri də **qanunvericiliyin göstərişi ilə mediasiya** adlanır. Belə ki, müəyyən hallarda tərəflərin mediasiyada iştirakı MHQ-yə əsasən məcburi hesab edilir və bu şərtə əməl edilməməsi işin baxılmamış saxlanması üçün əsas ola bilər. Məsələn, mediasiya haqqında qanunvericiliyə görə, kommersiya, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələrlə bağlı məhkəməyə müraciət etməzdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tərəflər üçün məcburi tələb kimi müəyyənləşdirilmişdir.

Ümumiyyətlə, mediasiyanın tətbiqi üçün əsaslar və bununla bağlı münasibətləri tənzimləyən müddəalar mediasiya qanunvericiliyində ayrıca yer almışdır (MHQ, maddə 21). Qanunvericilik aktında göstərilir ki, mediasiya prosesi tərəflər arasında bağlanan "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" əsasında və ya MHQ-nin 28-ci və 29-cu maddələrinə uyğun olaraq, ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir. "Mediasiya prosesinin tətbiqi barədə müqavilə" tərəflər arasında yaranmış mübahisənin məhkəməyə verilməsinə qədər və ya məhkəmədə işə baxılan zaman tətbiq edilir.

[1] Məhkəmə mediasiyası barədə ətraflı bax: MHQ (maddə 31) // "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.26-27.

“Mediasiya prosesinin tətbiqi barədə müqavilə”nin bağlanması təşəbbüsü ilə tərəflər və ya onlardan biri çıxış edə bilər. Məhkəmələr də tərəflərə aralarında yaranmış mübahisənin mediasiya yolu ilə həllinə dair təkliflər verirlər. MHQ-nin 3.2-ci maddəsində nəzərdə tutulmuş hallarda isə (yəni kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələb olunur) müvafiq orqanlar (qurumlar) tərəflərə ilkin mediasiya sessiyasında iştirak etmək vəzifələrini izah edirlər.[1] MHQ ilə müəyyən edilmiş qaydada “Mediasiya prosesinin tətbiqi barədə müqavilə”nin bağlanması məhkəmədə tərəflər arasında baxılan mülki, kommersiya və inzibati mübahisələrə dair işlər üzrə icraatın dayandırılmasına səbəb olur.

**Mediasiya prosesi** sözügedən Qanunun 21.6-cı maddəsində nəzərdə tutulmuş təklifin göndərildiyi andan, belə təklif olmadıqda isə bu Qanunun 28-ci və 29-cu maddələrinə nəzərdə tutulmuş hallarda tərəflərin ilkin mediasiya sessiyasında iştirak etdiyi, digər hallarda isə MHQ-nin 22-ci maddəsində nəzərdə tutulmuş “Mediasiya prosesinin tətbiqi barədə müqavilə” bağlandığı andan başlanmış sayılır. Tərəflərdən biri mediasiya prosesinin tətbiqi barədə yazılı formada digər tərəfə mediasiya qanunvericiliyində nəzərdə tutulan məlumatları, həmçinin tərəflərin qarşılıqlı razılaşdığı mediator (mediatorlar) və ya mediasiya təşkilatı varsa, bu barədə məlumatı, olmadıqda isə bu barədə təklifləri əks etdirən təklifi göndərir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, qeyd edilən bu təklif tərəfə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

Mediasiya qanunvericiliyinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə mediasiya prosesinə

[1] Mediasiya prosesinin tətbiqi üçün əsaslar barədə ətraflı bax: “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, “Hüquq Yayın Evi”, 2019, s.18-19.

MHQ-nin 32.1.4-cü maddəsinə əsasən, həmin təklif 10 gün ərzində hər hansı formada rədd edildikdə isə mediasiya prosesinə MHQ-nin 32.1.3-cü maddəsinə əsasən **avtomatik xitam** verilir.

Tərəflər arasında mediasiyaya dair **qeyd-şərtdə** mediatorun (mediasiya təşkilatının) adı müəyyən edildiyi halda və MHQ-nin 21.6-cı maddəsinə uyğun olaraq göndərilmiş təklifə 10 gün ərzində cavab verilmədikdə və ya təklif rədd edildikdə, təklifi göndərən tərəf mediasiyaya dair qeyd-şərtdə nəzərdə tutulmuş mediatora (mediasiya təşkilatına) müraciət edir. Həmin mediatorun (mediasiya təşkilatının) mediasiya qanunvericiliyində nəzərdə tutulan məlumatları və mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən mediasiya sessiyası barədə bildirişi tərəflərə təqdim etməsindən sonra tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, yaxud "Mediasiya prosesinin tətbiqi barədə müqavilə"ni imzalamağa razı olmadıqda, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "Mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, **qeyd edilən bildiriş** tərəflərə mediasiya sessiyasının keçirilmə tarixindən azı 5 gün əvvəl təqdim edilməlidir.

Şərh etdiyimiz dörd növ əsaslarla yanaşı, mediasiyaya müraciətin həm də **elmi-praktik müstəvidə təsnifini** aşağıdakı kimi formulə etmək mümkündür:

– mediasiyaya müraciətin faktiki əsası;
– mediasiyaya müraciətin hüquqi əsası.

### 1.2.2. Mediasiyaya müraciətin faktiki əsası

Qeyd etdiyimiz kimi, mediasiyaya müraciət olunması üçün faktiki əsas mövcud olmalıdır. **Mediasiyaya müraciətin faktiki əsası** dedikdə mediasiya hüququnun bir subyekti ilə digər subyekti arasında mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və

inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələrin mövcud olması və ya yarana bilməsi faktı başa düşülür. Belə ki, mediasiya hüququnun bir subyekti tərəfindən başqa subyektə zərər vuran hərəkət edir və ya hərəkətsizliyə yol verir. Bu zaman vurulmuş zərər iki formada (növdə) ola bilər: əmlak zərəri; qeyri-əmlak zərəri.

**Əmlak zərəri** dedikdə maddi ziyan başa düşülür; buna görə də, ona çox vaxt maddi zərər deyilir. Maddi zərər mediasiya hüquq subyektinə vurulmuş elə bir ziyandır ki, həmin ziyanı pulla qiymətləndirmək mümkündür; həm də zərərin bu növü faktiki mübahisənin və hüquqda maddi məsuliyyətin yaranmasına səbəb olur.

**Qeyri-əmlak zərəri** dedikdə mediasiya hüquq subyektinə vurulan və pulla qiymətləndirilməsi mümkün olmayan qeyri-maddi ziyan başa düşülür; ona həm də qeyri-maddi zərər deyilir. Qeyri-maddi zərər isə, faktiki olaraq, subyektlər (tərəflər) arasında mübahisənin yaranmasına səbəb olur.

### 1.2.3. Mediasiyaya müraciətin hüquqi əsası

Mediasiyaya müraciət üçün təkcə faktiki əsasın mövcudluğu kifayət etmir. Bundan ötrü həm də hüquqi əsasın mövcud olması tələb edilir. Əgər hüquqi əsas yoxdursa, onda tərəflərin mediasiyaya müraciət etməsi mümkün olmur, istisna edilir. **Mediasiyaya müraciətin hüquqi əsası** dedikdə mediasiya fəaliyyəti sahəsində hüquqi cəhətdən məcburi olan normativ hüquqi aktların elə məcmusu başa düşülür ki, bu hüquqi aktlara əsasən, mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla), eləcə də ailə, əmək və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflərin mediasiyaya müraciət etmək imkanı yaranır. Hüquqi aktlar dedikdə isə Azərbaycan Respublikasının Konstitusiyası, AM, ƏM, MM, MPM, MHQ və digər aktlar nəzərdə tutulur.

Hüquqi öhdəlik və vəzifələr hüquq subyektlərinin üzərinə məhz normativ hüquqi aktlar vasitəsi ilə qoyulur. Əgər subyektlər normativ hüquqi aktların onların üzərinə qoyduğu hüquqi öhdəlikləri pozarlarsa, bunun nəticəsində, təbii ki, digər subyektə **zərər vurulur**. Zərər vurulması faktı isə, öz növbəsində, hüquqi kontekstdə mübahisənin yaranmasına səbəb olur.

Deməli, tərəflərin mediasiyaya müraciət etməsi üçün mediasiya subyektlərinə hüquqi imkanlar verən müvafiq **normativ hüquqi aktlar** mövcud olmalıdır (hüquqi əsas), həm də həmin subyektlərin öz üzərinə düşən hüquqi öhdəlikləri pozmaları nəticəsində başqalarına zərər yetirməsi nəticəsində **yaranan mübahisələr** olmalıdır (faktiki əsas).

## 1.3. Mübahisənin yaranma səbəbləri

### 1.3.1. Hüquq pozuntusu mübahisənin yaranma səbəbi kimi

Əvvəllərdə qeyd etdiyimiz kimi, mediasiyaya müraciətin faktiki əsası tərəflər arasında mübahisənin mövcud olmasıdır. Bəs, tərəflər arasında **mübahisənin yaranma səbəbləri** nədən ibarətdir ?

Aydındır ki, **mübahisə**, adətən, tərəflərin eyni məsələ ilə bağlı özlərinin bir-birindən fərqli və ziddiyyətli maraqlara malik olduqlarına, öz davranışlarına subyektiv cəhətdən inanmaları nəticəsində yaranır. Mübahisənin narahatlığa səbəb olmasına və neqativ qarşılanmasına baxmayaraq, o, mediasiya prosesində məsələnin müsbət həlli istiqamətində vacib funksiyanı da yerinə yetirir. Buna görə də, **mübahisələrin əsl səbəblərini** anlamaq, onların hüquqi təbiətini və hansı davranış əməlləri nəticəsində yarandığını düzgün qavramaq, dəyərləndirmək və müvafiq ədalətli həll yolunu tapmaq olduqca vacib məsələdir.

Toxunulmuş məsələnin hüquqi aspektlərinə aydınlıq gətirmək üçün, ilk növbədə, qeyd etməliyik ki, hər kəsin **azadlıq hü-**

**ququ** vardır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşların azadlıq hüququnu təsbit edir (maddə 28).[1] Azadlıq hüququ, mahiyyət etibarilə, vətəndaşların öz iradəsi əsasında davranış imkanını ifadə edir. Davranış imkanı isə vətəndaşların istənilən hərəkəti etmək hüququdur, potensial imkanıdır.

Lakin vətəndaşların **davranış imkanları** de-fakto mütləq xarakter daşımır, yəni sonsuz və ya hüdudsuz deyildir; onların davranışı hüquq normalarında ifadə edilən göstərişlərə uyğun olmalıdır və bu normalarla qadağan edilməməlidir. Belə halda söhbət vətəndaşların hüquqauyğun davranışından gedir.

Belə ki, şəxslərin hüquq normalarında təsbit edilmiş göstərişlərə uyğun olan davranışına **hüquqauyğun davranış** deyilir. Hüquq subyektlərinin (fiziki şəxs, hüquqi şəxs və s.) davranışı o halda hüquqauyğun davranış hesab edilir ki, onların etdiyi hərəkətlər hüquq normalarında ifadə edilən göstərişlərə zidd olmasın, onlara uyğun gəlsin. Digər tərəfdən, onların hərəkətləri cəmiyyətin, dövlətin, eləcə də ayrı-ayrı şəxslərin maraq və mənafelərinə cavab verməlidir. Məhz bu cür hüquqauyğun hərəkətlər cəmiyyətin normal fəaliyyət göstərməsinin əsasını təşkil edir. Ölkədə əmin-amanlığın, ictimai asayişin, sosial rifahın və inkişafın təmin edilməsi şəxslərin hüquqauyğun davranışından daha çox asılıdır. Hüquqauyğun davranış, xüsusilə, hüquqi dövlətin normal fəaliyyət göstərməsi üçün daha aktualdır.

Başqa sözlə desək, hüquqauyğun davranış ictimai cəhətdən faydalı olan davranışındır və **iki formada** ifadə olunur:

– hərəkət etmək formasında (müsbət hərəkət);
– hərəkət etməmək və ya hərəkətsizlik formasında (müsbət hərəkətsizlik).

Eyni zamanda, bəzən, şəxslər hüquq normalarında ifadə olunan hüquqi göstərişlərə uyğun gəlməyən hərəkətlər edirlər.

[1] Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, s.9.

Həmin hərəkətlərlə onlar hüquq normalarının müəyyən etdiyi qayda və tələbləri pozurlar. Belə halda isə hüquqazidd davranış baş verir. Belə ki, şəxslərin hüquq normalarında təsbit edilmiş göstərişlərə zidd olan və bu göstərişləri pozan davranışına **hüquqazidd davranış** deyilir. Hüquqazidd davranış hüquqauyğun davranışın antipodudur. O, şəxslərin hüquq və azadlıqlarını, qanuni mənafelərini pozur, cəmiyyətə maddi və qeyri-maddi (mənəvi) zərər vurur. Hüquqazidd davranış cəmiyyətin, dövlətin, eləcə də ayrı-ayrı şəxslərin maraq və mənafelərinə cavab vermir və onlara zərər vurur. Belə davranış cəmiyyət üçün ziyanlı nəticələrə səbəb olur. Hüquqazidd davranış öz ictimai xarakterinə görə, mahiyyətcə, cəmiyyətə ziddir.

Həm də qeyd etməliyik ki, hüquqazidd davranışın müəyyən növü **hüquq pozuntusu** adlanır.[1] Hüquq pozuntusu bütün hallarda hüquqazidd davranışdır. Lakin hüquqazidd davranış bütün hallarda hüquq pozuntusu hesab edilmir. Belə ki, anlaqsız vəziyyətdə olan şəxs tərəfindən, məsələn, inzibati xəta törədildikdə, onun bu hərəkəti hüquqazidd davranış olsa da, hüquq pozuntusu sayılmır. Başqa bir misalda, aqrar sektorda fəaliyyət göstərən sahibkar müqavilə üzrə istehlakçı müəssisəyə məhsul göndərməyi öhdəsinə götürür. Lakin hava şəraiti quraqlıq keçdiyi üçün sahibkar onun iradəsindən asılı olmayan səbəblərə görə üzərinə götürdüyü öhdəliyi yerinə yetirə bilmir. Bu, hüquqazidd davranışdır, lakin hüquq pozuntusu sayılmır.

Hüquqazidd davranışın hüquq pozuntusu hesab edilməsi üçün hüquq pozuntusunun müəyyən **hüquqi əlamətlərə** uyğun gəlməsi tələb olunur. Deməli, hüquqazidd davranış bu əlamətlərə uyğun olduqda hüquq pozuntusu sayıla bilər. Doktrina hüquq pozuntusunun bir neçə əlamətini müəyyənləşdirir ki, məhz

---

[1] Hüquqauyğun davranış, hüquqazidd davranış, hüquq pozuntusu və onun əlamətləri barədə ətraflı bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: «Hüquq Yayın Evi», 2018, s.143-148.

bu əlamətlər vasitəsilə hüquq pozuntusunu xarakterizə etmək və digər sosial norma pozuntularından fərqləndirmək mümkündür.[1]

**Birinci əlamət** ondan ibarətdir ki, hüquq pozuntusu (latınca – transgressio, injuria, delictum; ingiliscə –offense, violation of law) hüquq pozuntusu **ictimai təhlükəli** davranışdır. İctimai təhlükəli davranış onu ifadə edir ki, şəxsin əməli (hərəkəti, hərəkətsizliyi) cəmiyyətin, dövlətin, eləcə də ayrı-ayrı şəxslərin maraq və mənafelərinə zərər vurur. Bu, o deməkdir ki, hüquq pozuntusu cəmiyyət üçün ziyanlı olub, ictimai həyatın müxtəlif sahələrinə qəsd edir, vətəndaşların siyasi, iqtisadi, sosial və şəxsi hüquqlarına zərər vurur, onların mənafelərinə xələl gətirir.

**İkinci əlamət** onu ifadə edir ki, hüquq pozuntusu şəxslərin **təqsirli davranışı** nəticəsində baş verməlidir. Yalnız təqsirli davranış hüquq pozuntusu kimi tanınır. Başqa sözlə, hüquqazidd əməl (hərəkət və ya hərəkətsizlik formasında) törədilməsində şəxsin yalnız təqsiri olduqda, həmin əməl hüquq pozuntusu sayılır.

**Üçüncü əlamət** ondan ibarətdir ki, hüquq pozuntusu **hüquqi məsuliyyətə** səbəb olmalıdır. Belə halda hüquq pozuntusu törədən şəxsə qarşı qanunvericiliklə nəzərdə tutulmuş müvafiq hüquqi məsuliyyət tədbirləri tətbiq edilir. Hüquqi məsuliyyətə səbəb olmayan hüquqazidd davranış hüquq pozuntusu kimi tanınmır.

**Dördüncü əlamət** isə onu ifadə edir ki, hüquq pozuntusu anlaqlı vəziyyətdə olan və ya müəyyən yaş həddinə çatan şəxsin hüquqazidd davranışı olmalıdır. Belə ki, şəxsin anlaqsız vəziyyətdə hüquqazidd davranışa yol verməsi hüquq pozuntusu sayılmır. Tələb olunan yaş həddinə çatmayan şəxsin də hüquqazidd davranışı hüquq pozuntusu hesab edilmir.

Beləliklə, hüquq pozuntusu dedikdə anlaqlı vəziyyətdə olan və müəyyən yaş həddinə çatan şəxsin təqsirli, hüquqazidd elə bir

---

[1] Ətraflı bax: Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.:Юринформцентр, 2005, с.677.

davranışı başa düşülür ki, bu davranış cəmiyyətə, dövlətə və ya ayrı-ayrı şəxslərə zərər vurur və **hüquqi mübahisənin** yaranmasına səbəb olur. Deməli, tərəflər arasında mübahisənin yaranmasının **əsas və başlıca səbəbi** kimi hüquq pozuntusu çıxış edir.

Hüquq ədəbiyyatı səhifələrində hüquq pozuntusu fonunda yaranan mübahisələri **tətikləyən 5 faktor, səbəb** göstərilir:[1]

1. Maraq mübahisəsi və ya maraqlardakı fərqlərdən yaranan mübahisə;
2. Struktur və ya sərhəd xarakterli mübahisə;
3. Dəyərlərdəki fərqlər və ya dəyər mübahisəsi;
4. Data və ya informasiya mübahisəsi;
5. Münasibət mübahisəsi.

**Maraq mübahisəsi və ya maraqlardakı fərqlərdən yaranan mübahisə** dedikdə tərəflərin maraqlarında ehtimal edilən və həqiqi ziddiyyətlərdən yaranan mübahisə nəzərdə tutulur. Bununla yanaşı, bəzi hallarda mübahisənin əmələ gəlməsinin və ya yarandıqdan sonra həll edilməməsinin səbəbi tərəflərin maraqlarının bir-birinə zidd olması inancı ilə bağlı olur. Mübahisə ilə əlaqədar maraqlardakı fərqlər ehtimal edilən və həqiqi maraqlardakı ziddiyyətlər və ya real olaraq rəqib maraqlar, o cümlədən prosedur, substantiv, psixoloji elementlərlə müşahidə olunur.

Eyni zamanda, **maraq mübahisəsi** bir tərəfin öz ehtiyaclarını ödəmək qabiliyyətinə digər tərəfin müdaxilə etdiyinə inandığı zaman da ortaya çıxa bilər. Bu tip mübahisəyə, nümunə qismində, bir şirkətin istehsal prosesinə maneçilik törədilməsi və ya istehsal prosesinin qarşısının alınması məqsədilə, istehsal üçün zəruri olan bütün əsas texnoloji hissələrin digər şirkət tərəfindən satın alınmasına inandığı situasiyanı göstərmək olar.

Mübahisələrin yaranmasına maraqlarla yanaşı, **emosiyalar** da səbəb olur. Belə ki, emosiyalar həm fəaliyyətin nəticəsi, həm

---

[1] Bu barədə ətraflı bax: məsələn, Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.17-30.

də onun hərəkət "mexanizmi" kimi təzahür edir. Ədəbiyyat səhifələrində göstərilir ki, empirik müşahidələrə görə, insanın yaxşı əhvali-ruhiyyəsi onun öz fəaliyyətinə münasibətinə də ciddi müsbət təsir göstərir. Əksinə, pis əhvali-ruhiyyə, qəm, qüssə, kədər sanki insanın əl-qolunu bağlayır, onun müəyyən bir işi, fəaliyyəti həvəslə yerinə yetirməsinə ciddi surətdə mane olur. Belə bir vəziyyət affekt halında, stress vəziyyətində də nəzərə çarpır. Başqa sözlə, belə qüvvətli pis hisslər fəaliyyətə pozucu təsir göstərir, fəaliyyətin xarakterindən asılı olaraq, məhsuldarlığın aşağı düşməsinə, hüquq pozuntusuna yol vermək və s. kimi hallara gətirib çıxarır.[1] Bir sıra hallarda tərəflərin emosional ehtiyacları ifadə edilmədən və ya onlar anlanılmadan mübahisənin həll edilməsi qeyri-mümkün olur. Belə emosiyalara səbəb olan **əsas narahatlıqlar** sırasında qiymətləndirmə, mənsubiyyət, müstəqillik, status və rol kimi amillər fərqləndirilir.[2]

**Struktur və ya sərhəd xarakterli mübahisə.** Bu cür mübahisə insanların bir-biri qarşısında rol və məsuliyyətlərini fərqli tərzdə anlamalarından irəli gəlir. Məsələn, əmək münasibətləri ilə bağı – işəgötürən işçidən hər hansı işi yerinə yetirməsini tələb etdiyi halda, işçi bu tələbin öz funksional vəzifə bölgüsünə aid olmadığını düşünür; başqa bir misalda, müştəri satıcıdan aldığı zay məhsulun dəyişdirilməsini gözlədiyi halda, satıcı hesab edir ki, satılan məhsul uzun müddətdir ki, müştəridədir.

Deməli, mübahisələrin yaranmasına səbəb kimi tərəflər arasındakı münasibətlərin sərhəd, hüdud xarakterli strukturu da çıxış edir. Bu, o deməkdir ki, tərəflərin tutduqları mövqelər və ya daşıdıqları vəzifələr də mübahisələrə səbəb ola bilər. Sözügedən mübahisələrin tərkib elementi kimi tərəflərin güc fərqi, struktur

---

[1] Fəaliyyətin emosional tənzimi barədə ətraflı bax: Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Çinar-Çap" nəşriyyat-poliqrafiya müəssisəsi, 2009, s. 390-393.

[2] Əsas narahatlıqlar barədə ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.27-28.

meyarlar, resurslara fərqli (qeyri-bərabər) çıxış, vaxt məhdudiyyəti, destruktiv davranış modelləri, qeyri-bərabər səlahiyyət və s. amillər aktiv rol oynayır.[1]

**Dəyərlərdəki fərqlər və ya dəyər mübahisəsi.** Tərəflər arasında mübahisələrin yaranma səbəblərindən biri də insanların daşıdıqları dəyərlərdəki fərqlərdən ibarətdir. Dəyərlər dedikdə adət-ənənələr, inanclar, əxlaq normaları, din və insanların formalaşmasına təsir edən digər faktorlar başa düşülür.

Eyni zamanda, qeyd etməliyik ki, dəyər mübahisəsi, əsasən, "doğru" və ya "yanlış" barədə dərin inanclardan irəli gəlir. Bu cür mübahisələrə nümunə qismində, məsələn, müxtəlif mədəniyyətlərə malik olan ölkələrdən gəlmiş, eləcə də səmərəli biznes təcrübəsi barədə fərqli yanaşma tərzinə malik olan iki sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisəni göstərmək olar. Dəyərlər faktoru özündə ideya və davranışları qiymətləndirmək üçün fərqli meyarlar, həyat haqqında fərqli baxışlar, ideologiya və yanaşmalar kimi meyarları ehtiva edir.

**Data və ya informasiya mübahisəsi** təqdim edilən faktların nədən ibarət olduğu barədə tərəflərin fikir ayrılığından və yaxud da tərəflərin faktları necə dərk və təfsir etməsindən irəli gəlir. Buna misal olaraq, eyni bir hadisəni özünün dərk etdiyi şəkildə görən iki fərqli şahidi göstərmək mümkündür. Deməli, tərəflərin fərqli düşüncə, yaddaş və məlumatlara əsaslanmaları mübahisələrin yaranmasının səbəbi kimi çıxış edə bilər.

Bu, o deməkdir ki, mübahisə edən hər iki tərəfin istinad etdikləri informasiyalar müxtəlif meyar və xüsusiyyətlərinə görə bir-birindən fərqlənə bilər. Məsələn, əsassız ərazi iddiası irəli sürən tərəfin informasiyalarının yanlış olmasını qarşı tərəfin müxtəlif tarixi xəritə, demoqrafik durum və statistik göstəricilərlə istinad etməklə sübut etməsi data mübahisənin həll üsulla-

[1] Mübahisəni tətikləyən 5 faktor və onların məzmunu barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.28-40.

rından biridir. Data informasiya, mahiyyət etibarilə, özündə məlumat çatışmazlığı, səhv məlumat, fərqli proqnoz və şərhlər, təfsir və düşüncələr və s. bu kimi elementləri təsbit edir.

**Münasibət mübahisəsi.** Bu növ mübahisələr keçmişdə öz həllini tapmayan mübahisələrin de-fakto indiki zamana daşınması nəticəsində baş verir. Belə hal, bəzən, "köhnə yükün daşınması" kimi terminlə də ifadə edilir. Bu cür həll edilməmiş mübahisələr, adətən, tərəflər arasında narahatçılıq yaradır və belə narahatçılıq öz-özlüyündə yeni mübahisənin əmələ gəlməsinə səbəb ola bilər. Münasibət mübahisəsində, adətən, yanlış kommunikasiya, əvvəlki neqativ münasibət, qarşılıqlı inam-etimadın olmaması, güclü emosiyalar, səhv anlayışlar, stereotiplər, zəif ünsiyyət, yanlış məlumatlar, passiv davranış və s. bu kimi elementlər təzahür edir.

### 1.3. 2. Mübahisələrin yaranmasının və həll edilməsinin mərhələləri

Mübahisələrin yaranmasının zaman baxımından mərhələlərini, habelə inkişaf dövrlərini elmi cəhətdən araşdırmaq, bu istiqamətdə zəruri biliklərə malik olmaq bütövlükdə mediasiya prosesi və mübahisələrin səmərəli həlli üçün vacib əhəmiyyət kəsb edir. Bəzi mütəxəssislər mediasiyada baxılan **mübahisələrin yaranması** prosesinin beş mərhələdən ibarət olmasını göstərirlər.[1]

Gündəlik həyatda insanlar arasında rast gəlinən fikir ayrılıqları mübahisələrin yaranmasının **birinci mərhələsi** sayılır. Tərəflər arasında yaranan bu cür fikir ayrılıqları, adətən, müzakirə aparılması yolu ilə həll edlir. Belə mübahisələr müzakirə aparılması yolu ilə həll edilmədikdə növbəti ikinci mərhələyə keçir.

---

[1] Douglas E. Noll, A Theory of Mediation, in the Handbook on Mediation, American Arbitration Association, Second Ed. 2010, s.25-27 // Ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.20-22.

**İkinci mərhələ**, mahiyyət etibarilə, mübahisə tərəflərinin müzakirədən açıq mübarizəyə keçmələrini ifadə edir. Bu mərhələdə tərəflər yalnız öz maraqlarına uyğun gələn informasiyaları qəbul edir, toplayır və onlara istinad edirlər, hər bir tərəf ciddi cəhdlə haqlı olduğunu digər tərəfə sübut etməyə çalışır. Məsələ öz müsbət həllini tapmadıqda problem növbəti üçüncü mərhələyə keçir.

**Üçüncü mərhələdə** isə hər bir mübahisə tərəfi qarşı tərəfin onunla razılaşacağı ümidini itirir. Ona görə də, bu mərhələdə tərəf qarşı tərəfə qorxu gəlməyə, təzyiq etməyə səy göstərir. Tərəflər mübahisənin həlli üçün mediasiya prosesinə vəkilləri, adətən, bu mərhələdə cəlb edirlər.

**Dördüncü mərhələdə** artıq mübahisə üzrə tərəflər qarşı tərəfin fikirlərini, maraqlarını, ümumiyyətlə, nəzərə almırlar. Bu mərhələdə tərəflər artıq öz simalarını və münasibətlərini qorumaqda maraqlı olmurlar. Nəhayət, beşinci mərhələ başlayır.

**Beşinci mərhələdə** ideya, prinsip məsələsi tərəflər arasında qarşıdurma və düşmənçilik səviyyəsinə qalxır. Bu mərhələdə tərəflər arasındakı mübahisə, necə deyərlər, artıq ləyaqət və şəxsiyyət məsələsinə çevrilir. Hər iki tərəfin öz mövqeyinin haqlılığına inamları daha da artır və onlar istənilən ədalətli şəxsin məhz onların mövqelərini müdafiə edəcəyinə inanırlar.

Mübahisənin yaranmasının yuxarıda sadalanan beş mərhələsi tərəflər arasındakı mübahisənin həlli istiqamətində həm mediator, həm də tərəflər üçün vacib əhəmiyyət kəsb edir. Qeyd etməliyik ki, praktikada **mübahisənin həll edilməsinin** də, müvafiq olaraq, beş etap dövrü formalaşmışdır.[1]

Belə ki, mübahisənin həllinin **birinci etapı**, adətən, mübahisənin həll variantının **inkar vəziyyəti** kimi təsəvvür edilir. Hər bir tərəfin daxili aləmində günahkar və ya dəyişkən tərəf kimi

---

[1] Gerald Vilyams, Danışıqlar Sağalma Prosesi kimi, Folberg Golann, Lawyer Negotiation, Theory, Practice and Law, 2006, s.7 // Bu barədə bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.22-30.

“dərin köklü bir istək” hissi yer alır. Günahkar və ya dəyişkən tərəf olmağa qarşı bu müqavimət hissi mübahisənin həllini çətinləşdirən səbəblərdən biridir. Əksər mübahisələrdə hər iki tərəf problemin yaranmasında rol oynayır; lakin onlardan heç biri mübahisənin yaranmasında öz rolunu etiraf etmək istəmir.

Mübahisələr münaqişələrin həlli istiqamətində həm də **“psixoloji güzgü”** rolunu oynaya bilər. Belə ki, tərəflər arasında ünsiyyət prosesinə müsbət təsir göstərən sosial-psixoloji amil baxımından, mübahisələr vasitəsilə münaqişə tərəflərinin zəif cəhətləri, mübahisədə daha çox, necə deyərlər, qurban və ya istismarçı olan tərəfləri, kompleksləri, həll olunmamış qəzəb hissləri, eləcə də xüsusi olmaq və sahiblənmək hissləri aşkara çıxarılır. Eyni zamanda, mübahisə edən tərəflər üçün özünəməxsus bu cəhətləri büruzə vermək çox ağrılı olur.[1]

Növbəti **ikinci etap** mübahisələrin həlli üzrə tərəflərin **həqiqəti qəbul etmə** prosesidir. Bu prosesin reallaşması üçün müəyyən vaxt tələb oluna bilər; çünki mübahisə tərəfləri ya fərdi psixoloji xüsusiyyətlərə malik olurlar (məsələn, tərəflərdən birinin həddən artıq utancaq, digərinin qapalı və ya “qaradinməz” olması), ya da onların arasında xüsusi növlü psixoloji münasibətlər – bir-birinə qarşı qərəz, ədavət, düşmənçilik, inamsızlıq və s. bu kimi psixoloji hallar meydana çıxa bilər.

Lakin tərəflərin həqiqəti qəbul etmə mərhələsində **inkar mövqeyindən** kənarlaşmaları və özlərinin problemin bir hissəsi olma ehtimalını qəbul etmələri vacibdir. Başqa sözlə, tərəfin problemin yalnız digər tərəflə bağlı olmamasını, özünün də problemdə müəyyən dərəcədə iştirakının ola bilməsi ehtimalını qəbul etməsi lazımdır. Bununla yanaşı, nadir hallarda ola bilər ki, mübahisənin bir tərəfi həqiqətən tamamilə günahsızdır və bütün günah digər tərəfin üzərindədir. Ancaq tərəflərdən hər hansı

---

[1] Ünsiyyət çətinlikləri və onların aradan qaldırılması yolları barədə ətraflı bax: Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, “Çinar-Çap” nəşriyyat-poliqrafiya müəssisəsi, 2009, s. 513-515.

birinin tamamilə günahsız olduğu hallarda belə, onlar mübahisəni həll etmək üçün ata biləcəkləri **müəyyən addımların olması ehtimalını** qəbul etməlidirlər.

Mübahisənin həll edilməsinin **üçüncü etapı** aşağıdakıları ehtiva edir: tərəflərin özlərinin də mübahisə probleminin yaranmasında iştiraklarının olması ehtimalını və ya məsələnin həlli üçün edə biləcəkləri hərəkətlərin mümkünlüyü ehtimalını qəbul etdikdən sonra növbəti addım onların bununla bağlı nə etməyə hazır olduqları barədə vəziyyət nəzərdən keçirilməlidir. Belə ki, barışıq sazişi üçün tələb olunan **minimum fədakarlıq** hər iki tərəfin kompromisə gəlməsindən ibarətdir, yəni hər iki tərəf öz mövqelərini dəyişməli, müəyyən qarşılıqlı güzəştə getməlidir. Lakin bir çox hallarda tərəflər daha "təvazökar mövqeyə gətirilənə qədər" öz maraq və mənafelərini qurban vermək istəmirlər. Bu, olduqca həssas məsələdir və **insanın sosial inkişaf** səviyyəsindən daha çox asılıdır. İnsanın sosial inkişafı dedikdə şəxsiyyət strukturlarının, sosiallaşma və tərbiyə nəticəsində şəxsiyyətin formalaşması prosesində kəmiyyət və keyfiyyət dəyişmələri başa düşülür.[1]

Bəzi hallarda, insanlar rəğbət qazanmaq istəklərinə, özünütəsdiqetmə ehtiyaclarına, cəzalanmaq qorxularına və digər səbəblərə görə çox təslim olmağa və ya daha əliaçıq olmağa meyilli olurlar. **Təslim olmağa meyilli** olan tərəf üçün tələb edilən fədakarlıq qarşı tərəfə daha çox güzəştlər etməkdən deyil, əksinə, təslim olmaqdan çəkinmək, başqalarını razı salmaq istəyinə qarşı müqavimət göstərməkdən ibarətdir. Digər insanlar üçün isə bu məsələ tam əksinə ola bilər. Belə ki, onlar yalnız öz mənafelərini güdməyə və mövcud vəziyyətdən sui-istifadə etməyə səy göstərə bilərlər. Bu qəbildən olan tərəf üçün fədakarlıq öz **istismarçı xüsusiyyətlərini tanımaq** və qarşı tərəfin **maraq və ehtiyaclarını** daha yaxşı anlamaq kimi təzahür edə bilər. Bəzən,

---

[1] Şəxsiyyətin sosial inkişafı və sosiallaşması barədə ətraflı bax: Məmmədova A.T. Sosial pedaqogika. Ali məktəblərin bakalavr pilləsi üçün metodik vəsait.I hissə. Sumqayıt: SDU-nun nəşriyyatı, 2015, s.188-211.

tərəflər tam qələbə istəyi və ya qisas almaq həvəsi, özlərinin qüsursuz, qarşı tərəfin isə tamamilə günahkar olmasına dair yanlış inanc, yaxud səhvi bağışlamaq istəməmələri kimi yanaşmalardan çəkinməklə də fədakarlıq edə bilərlər.

Başqa hallarda isə, digər tərəfdən və ya vəziyyətdən sui-istifadə etməsinə baxmayaraq, tərəfin cəzasız qalacağına əmin olmasından, özünün digərlərindən daha üstün və imtiyazlı olduğuna inanmasından çəkinmələri lazım gələ bilər. Beləliklə, **dördüncü etap** ərzində edilməyə hazır olan fədakarlıq vəziyyətinin digər tərəfə təqdim olunması nəzərdə tutulur. Məsələn, mübahisəni həll etmək üçün bir tərəfin fədakarlıq göstərməyə hazır olması halının qarşı tərəfə bildirilməsi məhz bu mərhələdə baş verir.

Mübahisələrin həllinin **beşinci etapı** isə mübahisə vəziyyətindən "reabilitasiya" və ya, necə deyərlər, "sağalma" prosesi sayılır. Əgər proses kifayət qədər uğurlu gedərsə, belə halda tərəflər mübahisəni həll etməklə yanaşı, həm də qarşı tərəfi anlaya, mövqeyini dəyişə, psixoloji rahatlıq tapa və özlərini yenilənmiş hiss edə bilərlər. Əldə edilən bu sonuncu nəticə, bəzən, **transformasiya** məqsədi də adlanır.

Transformasiya termini (latınca transformatio) elmi dövriyyədə **müxtəlif mənalarda** işlədilir. Məsələn, kitab dilində: bir şeyin öz şəklini dəyişməsi, başqa şəklə düşməsi, bir haldan başqa hala keçməsi (dəyişmə, dəyişilmə); fizika sahəsində: elektrik cərəyanının transformator vasitəsilə dəyişməsi, hava kütləsinin transformasiyası, işığın transformasiyası, səs transformasiyası və sairə fiziki hadisələr; incəsənət sferasında: aktyorun öz zahiri görkəmini cəld dəyişməsi əsasında qurulan teatr və ya sirk nömrəsi.[1] Transformasiya sözü praktikada elmi-nəzəri cəhətdən

[1] Ətraflı bax: Azərbaycan dilinin izahlı lüğəti. III cild / Filologiya elmləri doktoru, professor Ağamusa Axundovun redaktəsi ilə. Bakı, "Çıraq", 2000, s.142.

həm də **hüquqi kontekstdə** (milli, regional və beynəlxalq hüquq səviyyəsində) işlədilən termindir.[1]

Deməli, mübahisələrin həllinin beşinci etapında tərəflər öz mövqelərini dəyişə, başqa formaya çevirə, yəni **bu məqsədlə transformasiya** edə bilərlər. Belə ki, transformasiya, praktiki olaraq, tərəflərin yalnız mübahisədən əvvəlki (post) vəziyyətlərinə qayıtmalarını ehtiva etmir, onların mövqelərinin daha da yaxşılaşmasına və ya yumşalmasına, özlərini daha bütöv və mərhəmətli, daha az xəsis və ya başqa şəkildə daha yaxşı hiss etmələrinə zəmin yarada bilər. Əlbəttə, tərəflər mübahisənin həlli zamanı belə vacib bir dəyişiklik halına məruz qaldıqda, onların özlərini yenidən oxşar bir mübahisədə tapmaq ehtimalı minimum səviyyədə olacaqdır. Lakin, qeyd etməliyik ki, əgər bu proses uğursuzluqla nəticələnərsə və mübahisə onların yanlış düşüncələrinin nəticəsi olarsa, təbii ki, onlar gələcəkdə analoji məsələlərlə bağlı müxtəlif mübahəsələrlə üzləşə bilərlər.

### 1.3.3. Mübahisələrin həllinə psixoloji maneələr

Real həyatda mübahisələrin mediasiya vasitəsilə müsbət həllinə qarşı müəyyən **psixoloji maneələr** mövcuddur. Söhbət mübahisə tərəfləri vasitəsilə aradan qaldırılması, xüsusilə də, mediatorun köməyindən istifadə edilmədən, çətin olan psixoloji maneələrdən gedir. Onları **iki qrupa** bölmək mümkündür:

1. Strateji maneələr;
2. Koqnitiv maneələr.

**Strateji maneələr** dedikdə mübahisələrin mediasiya üsulu ilə həllinə maneçilik törədən və bir-birilə üzvi surətdə bağlı olan **psixi proseslər** (duyğu, qavrayış, diqqət, hafizə, təfəkkür, nitq, təxəyyül və sairə emosional proseslər), **psixi halətlər** (əhval, af-

---

[1] Hüquq elmi dövriyyəsində işlədilən transformasiya və onun növləri barədə bax: məsələn, Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018, I cild, Ümumi hissə, s.583-593.

fekt, dalğınlıq, inamsızlıq, şübhə və s.) və **psixi xassələrin** (temperament, xarakter, qabiliyyət və s.) məcmusu başa düşülür. Göstərilən amillər, mübahisədə tərəflər **"rasional" strateji** qərarlar qəbul etməyə çalışsalar da, yenə də şəxsi maraqların onların yanaşmasına mənfi təsir etməsi və nəticədə onlara kömək etməyən şəkildə hərəkət edə biləcəkləri ilə bağlıdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, müxtəlif fəaliyyət növlərində bu cür maneələr müxtəlif şəkildə özünü təzahür etdirir; belə çətinliklər elmi dövriyyədə **"psixoloji maneələr"** adlandırılır.[1]

Strateji maneələr, eyni zamanda, dəyər tələb etmək üçün əhəmiyyətli məlumatları danışıqların digər tərəfindən **gizlətmək** və ya onu fəal şəkildə **yanıltmaq** istəyini ehtiva edir. Strateji maneələr həm də rasional davranış formasında təzahür edə bilər, lakin belə davranış böyük ehtimalla informasiya kasadlığı, etimadsızlıq, o cümlədən **qeyri-optimal** nəticələrə səbəb olur.

**Koqnitiv maneələr** mediasiya zamanı tərəflərin mühakimə qabiliyyətini təhrif edən daxili psixoloji proseslərlə bağlıdır. Qeyd etməliyik ki, koqnitiv (ingiliscə cognition – bilik deməkdir) funksiya şüurun əsas funksiyalarından (tənzimetmə, koqnitiv və kommunikativ funksiyalarından) biridir. **Koqnitiv funksiya** yalnız şüur səviyyəsində biliklərin fəal, məqsədyönlü mənimsənilməsi kimi özünü göstərir. Başqa sözlə, mənimsənilmiş biliklərin insanın həyat fəaliyyətində istifadə olunması koqnitiv funksiyanın əsasını təşkil edir; həm də koqnitiv funksiya fərdi şüurun ictimai şüurla üzvi əlaqəsini bilavasitə ifadə edir.[2]

---

[1] Məsələn, bax: "Daxili işlər orqanları əməkdaşlarının fəaliyyətində psixologiya və pedaqogika" fənni üzrə Mühazirələr Toplusu. Dərs vəsaiti / Tərtib edənlər: Muradov F.H., Müzəffərov R.R. Bakı, DİN Polis Akademiyası, 2014, s.99.

[2] Bu məsələlər barədə ətraflı bax: Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Çinar-Çap" nəşriyyat-poliqrafiya müəssisəsi, 2009, s.209-210.

Deməli, mediasiya prosesində koqnitiv maneələr özündə, mahiyyətcə, aşağıdakıları **ehtiva edir**:

– mediasiyada iştirak zamanı tərəflər (insanlar) assimilyasiya prosesində məlumat və informasiyaları təhrif edən müxtəlif beyin quruluşuna malik olurlar;
– mediasiya prosesində danışıqlar aparan tərəflərin "irrasional" davranması tamamilə "təbiidir", baxmayaraq ki, onlar həmin vaxt tam rasional və ya digər tərəfdən daha rasional davrandıqlarını düşünürlər;
– ən güclü psixoloji stimullardan biri qarşılıqlılıq amili sayılır; bu xüsusiyyətlə bağlı, bəzən, tərəflər arasında hədiyyə, təklif və digər bağışlama formaları güclü "borcluluq" hissi və lütfü "geri ödəmək" öhdəliyi yaranır ki, bu öhdəlik bir tərəfin digərinə nə isə "təklif" etdiyi danışıqlar vəziyyətində də özünü biruzə verir və s.

Mübahisələrin həllinə psixoloji maneələr törədən amillər sırasında **yanlış istinadlar**, **məlumatların təhrif edilməsi**, **optimistik-özünəinam**, **reaktiv dəyərdən salma** və s. bu kimi faktorlar yer almışdır.

## 1.4. Mediasiyada müraciət formaları

### 1.4.1. Vətəndaşların müraciətlərinə dair tələblər

Mediasiya qanunvericiliyində nəzərdə tutulmuş mübahisələri mediasiya üsulu vasitəsilə həll etmək üçün tərəfələr mediatora və ya mediasiya təşkilatına müraciət etmək hüququndan faydalanırlar.

Hər şeydən əvvəl qeyd etməliyik ki, **müraciət etmək hüququ** Azərbaycan Respublikasının Konstitusiyasında təsbit

olunmuşdur (maddə 57).[1] Belə ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır. Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər. Hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir.

Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarından və azadlıqlarından istifadə, bu hüquqların və azadlıqların **dövlət təminatına** uyğun olaraq, "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu (VMQ, 2015-ci il) qəbul edilmişdir. Adıçəkilən normativ hüquqi aktda müraciət etmək hüququ ilə bağlı müvafiq müddəa yer almışdır (maddə 1). Qanuna görə, vətəndaşlar şəxsən və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququna malikdirlər. Vətəndaşlar müraciət etmək hüququnu **sərbəst** və **könüllü** surətdə həyata keçirirlər. Vətəndaşın öz müraciət hüququnu həyata keçirməsi digər şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır. Həm də irqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnun məhdudlaşdırılması qadağandır.

Eləcə də ictimai əhəmiyyətli funksiyaları yerinə yetirən müəyyən hüquqi şəxslərə, habelə normativ hüquqi aktlar və ya müqavilə əsasında təhsil, səhiyyə, mədəniyyət və sosial sahələrdə xidmət göstərən **özəl hüquqi şəxslərə** və **fərdi sahibkarlara** müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydası VMQ ilə tənzimlənir. Həmçinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, VMQ-nin müddəaları əcnəbilərin, vətəndaşlığı ol-

[1] Ətraflı bax: Bax: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, s.15.

mayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə də şamil edilir.[1]

Sözügedən normativ hüquqi aktın məqsədləri üçün müəyyən **əsas anlayışlardan** istifadə edilir (VMQ, maddə 3):

– **şifahi müraciət** – vətəndaşların fərdi və kollektiv qəbulu zamanı və ya müraciətə baxan subyektin nümayəndəsinin istirakı ilə canlı yayımlanan televiziya və radio proqramları zamanı, habelə telefon müraciət xidməti vasitəsilə edilən müraciət;

– **telefon müraciət xidməti** – müraciət edənin şifahi müraciətinin qəbulunu, texniki vasitələrin köməyi ilə qeydiyyatını və cavablandırılmasını həyata keçirmək üçün yaradılmış rabitə xidməti;

– **yazılı müraciət** – kağız üzərində və ya elektron formada tərtib edilmiş müraciət;

– **elektron müraciət** – müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciət;

– **kollektiv müraciət** – eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər;

– **təkrar müraciət** – müraciətin qanunvericiliklə müəyyən edilmiş baxılma müddəti ötdükdə və ya həmin müraciət cavablandırıldıqda eyni şəxsin eyni məsələ ilə bağlı eyni müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə göndərdiyi növbəti müraciət;

– **anonim müraciət** – müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə vətəndaşın soyadı, adı, atasının adı, ünvanı, şəxsi və ya elektron imzası (hüquqi şəxslərə münasibətdə hüquqi şəxsin adı və hüquqi ünvanı, onun rəhbərinin imzası) olmadan yazılı formada göndərilən müraciət və s.

---

[1] Toxunulmuş məsələlər barədə ətraflı bax: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu. Normativ hüquqi aktlar toplusu / Buraxılışa məsul: Kərimli B.C. Bakı: «Hüquq Yayın Evi», 2017, 136 s.

Qeyd etməliyik ki, vətəndaşların müraciətlərinə baxılmasının **əsas prinsipləri** aşağıdakılardan ibarətdir:

– qanunçuluq;

– vətəndaşların müraciət hüququnun sərbəst və könüllü həyata keçirməsinə şərait yaradılması;

– müraciətlərə dair tələblərin vahidliyi;

– fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni mənafelərinin qorunması;

– müraciətlərə baxılmasında ayrı-seçkiliyə və süründürməçiliyə yol verilməməsi;

– müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin fəaliyyətində şəffaflığın təmin edilməsi;

– vətəndaşların müraciət etmək hüququ ilə dövlət maraqlarının uzlaşdırılması.

Qanunvericilikdə vətəndaşların **müraciətlərinə dair tələblər** aşağıdakı kimi müəyyən edilmişdir (VMQ, maddə 6):

– vətəndaşlar müraciətlərini həmin məsələyə baxılmasını bilavasitə təmin etməli olan müraciətə baxan subyektlərə və ya onların vəzifəli şəxslərinə yazılı formada təqdim edir və ya şifahi formada bildirirlər;

– yazılı müraciətlər şəxsən və ya nümayəndə vasitəsilə təqdim edilir və ya poçt, telefaks, yaxud elektron müraciətə münasibətdə VMQ-də göstərilən qaydada göndərilir;

– yazılı müraciətdə aşağıdakılar göstərilir: müraciətə baxan subyektin adı və ya onun vəzifəli şəxsinin adı, soyadı, vəzifəsi (vəzifəli şəxsin elektron ünvanına göndərilən müraciətlər istisna olmaqla); müraciət edən fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı (yaxud işlədiyi yer), hüquqi şəxsin adı və hüquqi ünvanı; müraciət nümayəndə vasitəsilə təqdim edildikdə, nümayəndənin adı, soyadı, atasının adı və ünvanı;

– müraciət hüquqi şəxslərin firma rekvizitləri olan blankda göndərildiyi, yaxud fiziki şəxsin əlaqə məlumatlarından ən azı birinin göstərildiyi hallar istisna olmaqla, VMQ-də müəyyənləşdirilmiş tələblərə cavab vermədikdə anonim sayılır. Anonim

müraciətlər müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri tərəfindən qəbul edilmir və onlara baxılmır;

– kağız üzərində yazılı müraciəti fiziki şəxs və ya hüquqi şəxsin rəhbəri, yaxud onların səlahiyyətli nümayəndəsi imzalamalı və tarix qoymalıdır;

– yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə müraciətə nümayəndənin səlahiyyətlərini təsdiqləyən sənədin surəti əlavə olunmalıdır;

– elektron müraciət həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir və ya onun rəsmi internet saytına daxil edilir, eləcə də müraciətə baxan subyektin rəsmi internet saytına daxil edilən müraciətdə vətəndaşın elektron və ya poçt ünvanı göstərilməlidir;

– elektron sənəd formasında göndərilən müraciət elektron imza ilə təsdiq olunmalıdır;

– müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir, həmçinin müraciətin mətnində təhqir və böhtana yol verilməməlidir və s.

Mövcud qanunvericiliklə **vətəndaşların qəbul edilməsi qaydası** da müəyyən edilmişdir (VMQ, maddə 11). Belə ki, müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların **qəbulu cədvəlinə** uyğun olaraq, vaxtında təmin etməlidirlər. Vətəndaşları müraciətə baxan subyektlərin rəhbərləri və ya digər vəzifəli şəxsləri qəbul edirlər. Vətəndaşlar əvvəlcədən məlumat verilən günlərdə və saatlarda qəbul edilməlidirlər. Vətəndaşın müraciəti ilə əlaqədar **təxirəsalınmaz tədbirlərin** görülməsi tələb edildikdə müraciətə baxan subyektin rəhbəri və ya digər vəzifəli şəxsləri onları dərhal qəbul etməlidirlər. Vətəndaş **şəxsiyyətini təsdiq edən sənəd** və ya şəxsiyyətini müəyyən edən rekvizitlər və ya elektron imza olduqda elektron xidmətlər vasitəsilə qəbula yazılır. Qəbula gəlmiş vətəndaş şəxsiyyətini təsdiq edən sənədi təqdim etməlidir.

Qəbul zamanı təqdim edilmiş **yazılı müraciət** qanunvericiliyə uyğun olaraq qəbul edilir, qeydiyyata alınır və ona baxılır.

Vətəndaşın **şifahi müraciəti** ilə bağlı qəbula dair qeydiyyat-nəzarət vərəqəsində qeyd aparılır. Şifahi müraciətdəki məsələlərin həlli əlavə araşdırma aparılmasını tələb etmədikdə vətəndaşın razılığı ilə müraciət qəbul zamanı şifahi qaydada cavablandırılır. Qəbul zamanı vətəndaşın müraciətini şifahi qaydada cavablandırmaq mümkün olmadıqda müraciət yazılı şəkildə **təqdim olunur**. Belə müraciətin qəbul edilməsi, qeydiyyatı və ona baxılması qaydası VMQ-yə uyğun olaraq həyata keçirilir.

Vətəndaşın qəbulu zamanı onun müraciətində qaldırılan məsələnin digər müraciətə baxan subyektlərin və onların vəzifəli şəxslərinin səlahiyyətinə aid olduğu aşkar edilərsə, müraciət edən şəxsə aidiyyəti üzrə **müraciət etmə qaydası** izah olunur. Müraciətə baxan subyektlərin rəhbərlərinin və digər vəzifəli şəxslərinin səyyar və videoqəbullar, o cümlədən onlayn konfranslar keçirmək hüququ vardır.

Eyni zamanda, qeyd etməliyik ki, müraciətlərə baxılması zamanı vətəndaşlar **müəyyən hüquqlara** malikdir. Bu sırada aşağıdakı hüquqi imkanları göstərə bilərik:

– müraciətin tam və hərtərəfli araşdırılması üçün əlavə sənəd və materiallar təqdim etmək və ya bu sənədlərin əldə edilməsini (o cümlədən elektron formada) müraciətə baxan subyektdən xahiş etmək;

– müraciətə baxılmasının dayandırılması barədə ərizə ilə müraciət etmək;

– təkrar yazılı müraciətə ilkin müraciətə baxılmasının nəticəsi barədə sənədləri əlavə etmək;

– ictimai informasiya və fərdi məlumatların əldə edilməsi məqsədi ilə sorğu vermək;

– müraciətin baxılmasına dair sənədlərin və materialların digər şəxslərin hüquqlarına və qanuni mənafelərinə toxunmaması və ya qanunla dövlət sirri təşkil edən məlumatlara və ya qanunla qorunan digər məlumatlara aid edilməməsi şərti ilə həmin sənəd və materiallarla tanış olmaq;

– müraciətin məzmununda vətəndaşın ailə və şəxsi həyatına aid sirr olan, habelə peşə və ya kommersiya sirri olan sənədlərin və ya məlumatların məxfiliyinin təmin olunmasını tələb etmək;

– müraciətin qeydiyyat nömrəsi və daxilolma tarixi barədə, müraciət aidiyyəti üzrə göndərildikdə həmin məktubun qeydiyyat nömrəsi və göndərilmə tarixi barədə məlumat almaq;

– müraciətə baxılması barədə yazılı cavab almaq və s. Hüquqlar.

### 1.4.2. Mediasiyaya səmərəli müraciət

Yuxarıda şərh olunanlarla yanaşı, qeyd etməliyik ki, vətəndaş cəmiyyətində sosial sahələrdə mediasiya xidmətləri göstərən **mediasiya təşkilatlarına** və **mediatorlara** müraciət edilməsi və həmin müraciətlərə baxılması qaydalarının tənzimlənməsi prosesinə mediasiya qanunvericiliyi və vətəndaşların müraciətləri haqqında qanunvericiliyin müddəalarının tətbiqi bu sahədə vətəndaş-dövlət maraqlarının uzlaşdırılması kontekstində daha səmərəlidir.

Belə yanaşmanı **mediasiyaya səmərəli müraciət** anlayışı ilə də əhatə etmək olar. Bu anlayışın mahiyyəti ondan ibarətdir ki, MHQ-yə əsasən, tərəflər məhkəmələrə müraciət etməzdən əvvəl bütün kommersiya, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələrin həlli üçün **mediasiyaya müraciət** etməlidirlər. Məhkəmə, müvafiq olaraq, "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" barədə Arayış və ya "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" haqqında Arayış, yaxud "Mediasiyaya xitam verilməsinə dair" Protokol olmadan kommersiya, ailə və əmək mübahisələri üzrə müraciəti qəbul edərsə, həmin müraciət baxılmamış saxlanılacaqdır.

Eyni zamanda, məhkəmə prosesinin istənilən mərhələsində məhkəmə işin hallarını nəzərə alaraq, öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif edərək işi **mediasiyaya göndərə**

**bilər** (MHQ, maddə 31). Bununla əlaqədar, hakimlərin mediasiyaya dəstək olmaq üçün yerinə yetirdiyi ən **ümumi vəzifələr** aşağıdakı kimi fərqləndirilir:[1]

– hər bir konkret işin mediasiya üçün uyğunluğunu qiymətləndirmək;

– mediasiya seçiminin olmasını vurğulamaq;

– mediasiyanın üstünlükləri barədə tərəflərə məlumat vermək;

– mediasiyanın yarada biləcəyi fürsətləri vəkillərlə müzakirə etmək;

– mediasiyanın nəticələrini məhkəmənin qərarında əks etdirmək və s.

Qeyd etmək lazımdır ki, hakimlərin məhkəmə zalında və məhkəmə sənədlərində ifadə edilməklə tərəflər qarşısında mediasiyanı dəstəkləməsi mübahisə edən tərəflərə mediasiyanın istifadəsində **böyük stimul** yaradır.

Məhkəmə **işin mediasiyaya göndərilməsi** vasitəsi ilə tərəflərə onların spesifik vəziyyətlərində mediasiyanın necə kömək edə biləcəyini izah etməklə, mahiyyət etibarilə, mediasiyadan istifadə olunmasına təşviqetmə prosesini özündə ehtiva edir. İşin mediasiyaya göndərilməsi hüquqi **konstruksiyası** hakimin tərəflərə mediasiyaya getməklə bağlı müvafiq suallar ünvanlamaqla zəruri tövsiyələr verməsi hallarını da əhatə edir.

İşin mediasiyaya göndərilməsi konstruksiyasına belə bir vacib komponent də daxildir – hakim tərəfindən mübahisə üzrə işin mediasiya üçün **yararlılığının qiymətləndirilməsi**. Hər hansı bir işin, misal üçün, ailə münasibətlərindən irəli gələn mübahisələrin həlli üzrə işin mediasiyaya göndərilməsinin uyğun olmasının qiymətləndirilməsinə boşanan tərəflərin mübahisəyə, məsələn, azyaşlı uşağın gələcəyinə və özlərinə aid qərarlar qəbul etmək iqtidarında olub-olmadığını müəyyənləşdirmək daxildir.

---

[1] Mediasiyaya səmərəli müraciət anlayışı barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.61-67.

**İşlərin səmərəli şəkildə mediasiyaya göndərilməsinə** dair müəyyən praktik yanaşma mövcuddur. Belə ki, mediasiya mübahisələndirilən məsələyə uyğun və çox güman ki, məhkəmə çəkişməsinin qeyri-müəyyənliyinə və məsrəflərə yol vermədən daha qənaətbəxş variant tapmağa imkan verən **alternativ həll** üsuludur.

Digər tərəfdən, mediasiya tərəflərin seçdiyi və (və ya) məhkəmə tərəfindən təyin olunan qərəzsiz üçüncü tərəfin (mediatorun) mübahisə edən tərəflərin qarşılıqlı şəkildə məqbul razılığa gəlmələrinə kömək edən **qeyri-rəsmi proses** sayılır.

Həmçinin qeyd etməliyik ki, mediasiyanın məqsədi tərəflər arasında dialoqun etibarlı şəkildə qurulması, tərəflərin maraqlarının müəyyənləşdirilməsi, müvafiq həll variantlarının yaradılması, danışıqlarda tərəflərə köməklik göstərilməsi və icra edilə bilən **barışıq sazişi** adlı sənədin hazırlanmasıdır. Bu müddət ərzində məhkəmə icraatı dayandırılır; tərəflər mediasiya nəticəsində qarşılıqlı razılığa gələ bilmədikdə isə, məhkəmə prosesi davam etdiriləcəkdir.

İlkin mediasiya sessiyasında iştirak etmək məcburi olduqda mübahisə edən tərəflərdən biri mediasiya prosesinin tətbiqi barədə digər tərəfə yazılı formada müvafiq **təklif** göndərir. Təklifdə mübahisənin qısa məzmunu, mübahisənin mediasiya vasitəsilə həll edilməsi, mediasiyaya dair xərclərin tərəflər arasında bərabər şəkildə bölüşdürülməsi və mübahisə üzrə mediator / mediasiya təşkilatı və sairə barədə irəli sürülən təkliflər qarşı tərəfə çatdırılır.

# II FƏSİL. MEDİASİYA PROSESİNƏ HAZIRLIQ

## 2.1. Mediasiya prosesinin hazırlıq mərhələsi

### 2.1.1. Mediasiyada hazırlıq mərhələsinin mahiyyəti

Hər şeydən əvvəl qeyd etməliyik ki, müasir dövrdə BMT-nin İnsan Hüquqları Şurasının 16.06.2011-ci il tarixli 17/4 saylı qətnaməsi ilə **"Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplər"** adlı sənəd qəbul edilmişdir. Bu sənəd biznes fəaliyyəti kontekstində insan hüquqlarına mənfi təsir risklərinin qarşısının alınması və aradan qaldırılmasına dair prinsipləri müəyyən edən qlobal standartdır. Rəhbər Prinsiplərin komponenti kimi hüquq-müdafiə vasitələrinə çıxış barədə prinsiplər (25 – 31-ci prinsiplər) biznes fəaliyyəti sahəsində insan hüquqlarının pozulması hallarında zərərçəkmiş şəxslərin qanuni, əlçatan, adekvat, ədalətli, şəffaf və effektiv müdafiə vasitələrinə çıxışın olmasını nəzərdə tutur. Burada həmçinin mübahisələrin həllinin maraqlı tərəflər arasında qarşılıqlı dialoqa əsaslanmalı olduğu qeyd edilir.[1] Belə yanaşma isə, mahiyyət etibarilə, **mediasiya prosesinin tətbiqini** ehtiva edir.

Mediasiya prosesinin tətbiqi ilə bağlı prosedurlardan biri də **hazırlıq mərhələsi** sayılır. Belə ki, mediasiya prosesinin hazırlıq mərhələsi formatı özündə müvafiq hədəfləri, gündəlikdə duran məsələləri və alətləri, eləcə də effektiv tətbiqetmə üçün görüləcək tədbirlərin və taktikaların məcmusunu ehtiva edir. Əvvəllərdə qeyd etdiyimiz kimi, mübahisənin həlli üçün "ADR CENTER"in 4x4 matrisinin koordinat sistemində **şaquli (vertikal) ox** üzrə atılası addımlar, mərhələlər aşağıdakı ardıcıllıqla müəyyənləşdirilmişdir:[2]

---

[1] Ətraflı bax: Səbinə Əliyeva. BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə ümumi baxış. Bakı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, UNDP, 2023, 12 s.

[2] Ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.46.

1. **Hazırlıq mərhələsi –** müvəffəqiyyət üçün bünövrənin qurulması (mediator və mübahisə tərəfləri);
2. **Ümumi açılış iclası –** danışıqların başlanması (mediasiyaya razılıq, qaydalar, məlumatlandırma);
3. **Təkbətək görüşlər –** tərəflər arasında mediator vasitəsilə danışıqlar (maraqların və ehtiyacların müəyyən edilməsi, danışıqlar);
4. **Yekun iclas –** yekun qərarın əldə olunması (yekun nəticə).

Sözügedən koordinat sisteminin **üfüqi (horizontal) oxu** üzrə isə, hədəfə nail olmaq üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. **Mərhələ –** başlanğıcdan sona qədər nəzərdə tutulan 4 mərhələ;
2. **Məqsəd** – hər mərhələ üçün nəzərdə tutulan konkret məqsədlər;
3. **Gündəlik –** məqsədlərə çatmaq üçün həyata keçirilməli olan hərəkətlər;
4. **Taktikalar** – tərəflər və vəziyyət nəzərə alınmaqla mediatorun alətləri.

Göründüyü kimi, 4 xronoloji mərhələnin hər biri üçün mediatorun əldə etməli olduğu nəticələr, həyata keçiriləsi hərəkətlər, tərəflərin mövqeyi və işin halları nəzərə alınmaqla seçməli və icra etməli olduğu taktikalar mövcuddur. Bu sırada **hazırlıq mərhələsi vacib və aparıcı yer tutur**. Belə ki, hazırlıq mərhələsində, adətən, mübahisəli problemin uğurlu həllinin əsası qoyulur.

Mediasiya prosesində qarşıya qoyulan məqsədlərə çatmaq üçün mediator tərəfindən müvafiq **gündəlik** tərtib edilir. Gündəlikdə aşağıdakı məsələlər öz əksini tapır:

– mediasiya işi üzrə əlaqələr və ilkin görüşlər;

– qərəzsizlik haqqında müvafiq bəyanatın imzalanması;

– mediasiya prosesinin yekun nəticəsində maraqlı olan bütün aidiyyəti tərəflərin müəyyən edilməsi;

– mediasiya prosesi üzrə bütün prosessual, maliyyə və logistika məsələləri barədə müvafiq razılığın əldə edilməsi və s.

Yuxarıda göstərilən gündəliyin icrası zamanı mediator müəyyən sərbəstliyə malik olmaqla, zəruri **taktikalardan** istifadə edir. Başqa sözlə, mediator işin uğurlu həlli üçün aşağıda təsbit edilənlər də daxil olmaqla, bir sıra **alətlər sırasından** seçim edir:

– zənglər, mediasiya qeydləri, məhkəmə sənədləri, ilkin görüşlər və sairə üsullar vasitəsilə yazılı və şifahi mənbələrdən aidiyyəti üzrə zəruri informasiyalar toplamaq və ya məlumatlar əldə etmək;

– mümkün olan bütün maraqların toqquşması hallarını müəyyən etmək;

– mübahisə üzrə qərar qəbul edənlərin, eləcə də məsləhətçilərin vicdanla iştirak etdiyini təsdiq etmək və məsələni həll etmək səlahiyyətlərini yoxlamaq;

– mediasiya işi üzrə bütün logistika məsələləri barədə səlahiyyətli şəxslərlə əlaqələndirmə (koordinasiya) tədbirləri həyata keçirmək;

– zərurət olduğu təqdirdə mediasiya işinə qanunvericiliklə nəzərdə tutulmuş qaydada ekspert-hüquqşünaslar cəlb etmək və s.

Qeyd etməliyik ki, mediasiya problemin (mübahisənin) **müstəqil üçüncü tərəfin** köməyi ilə həll edildiyi danışıqlar deməkdir. Avropa hüququnda da belə **analoji praktika** mövcuddur.[1] Problemin uğurlu həlli istiqamətində aparılan danışıqlar isə **mediasiya prosesinin hazırlıq mərhələsindən** daha çox asılıdır.

Eyni zamanda, göstərməliyik ki, mediasiyanın mərhələləri barədə irəli sürdüyümüz fikirlər mütləq deyil, **nisbi xarakter** daşıyır. Belə ki, adətən, mediasiya prosesinin hansı mərhələlərdən ibarət olması mübahisə üzrə işin hallarından, tərəflərin istək

---

[1] Məsələn, ədalət mühakiməsi prosesində üçüncü tərəfin iştirakı barədə bax: Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı, AZSEA nəşriyyatı, 2012, s.128-129.

və arzularından, eləcə də mediatorun taktika və üslubundan asılıdır. Mediasiyanın yuxarıda fərqləndirdiyimiz praktik tətbiq mərhələləri (hazırlıq, birgə ümumi iclas, birgə və ya təkbətək iclaslar şəklində danışıqlar və yekun iclas) **daha uğurlu variant** sayıla bilər. Lakin mübahisə üzrə işin hallarından asılı olaraq, mediasiya prosesində bəzi mərhələlər olmaya, digərləri isə dəfələrlə təkrarlana bilər. Ona görə də, mediasiya prosesi təşkil edilərkən, mediator mübahisə edən tərəflərin mövqelərini, eləcə də mediasiya prosesinin müvafiq prinsiplərə uyğun keyfiyyətcə həyata keçirilməsinə hazırlıq ehtiyacını, xüsusilə, diqqətə çəkir.

Lakin, təqdirəlayiq haldır ki, Azərbaycanda Nazirlər Kabineti tərəfindən mediasiya prosesinin həyata keçirilməsinə dair konkret normativ hüquqi akt – "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası" (2019-cu il) qəbul edilmişdir.[1] Bu sənəddə **mediasiya prosesinin mərhələləri** barədə müvafiq müddəalar təsbit olunmuşdur (maddə 5). Adıçəkilən normativ hüquqi aktda göstərilir ki, mediasiya danışıqlar şəraitində həyata keçirilir və **aşağıdakı mərhələlərdən** ibarətdir:

– mediasiya prosesinə hazırlıq;
– mediasiya prosesinin başlanılması;
– tərəflərin mübahisənin mahiyyətini açıqlaması;
– tərəflərin hər biri ilə ayrı-ayrılıqda danışıq;
– mübahisənin həlli üçün təkliflərin hazırlanması;
– mediasiya prosesinin yekunlaşdırılması;
– mediasiya prosesinə xitam verilməsi;
– barışıq sazişinin icrası.

Göründüyü kimi, mediasiya prosesinin ilk mərhələsi **mediasiya prosesinə hazırlıq** işlərindən başlayır. Belə ki, mediasiya üçün **müraciət edən tərəf** mediasiya təşkilatı və ya mediatora **mübahisənin xarakteri** barədə qısa məlumat, mübahisənin

---

[1] Bu barədə daha ətraflı bax: məsələn, Mediasiya prosesinin həyata keçirilməsi Qaydası // Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/43222 (19.08.2023-cü il).

tərəflərinin və əgər vardırsa, mediasiyada onları təmsil edəcək vəkilin və ya nümayəndənin **əlaqə məlumatlarını** təqdim edir. Mediasiya prosesi başlayanadək tərəflər öz mövqelərini qiymətləndirir, barışıq və güzəşt imkanlarını nəzərdən keçirir və əgər ehtiyac vardırsa, müvafiq sahənin mütəxəssisi (vəkil, hüquqşünas, müvafiq texniki sahədə mütəxəssis və s.) ilə məsləhətləşmələr aparırlar.

Eyni zamanda, tərəflər özlərinin və ya mediatorun təşəbbüsü ilə işin daha yaxşı başa düşülməsinə köməklik edə bilən **əlavə informasiya** və **zəruri sənədləri** də mediator və digər tərəfə təqdim edə bilərlər. Tərəflərdən hər hansı biri belə məlumat və sənəd təqdim etdiyi təqdirdə, mediator qarşı tərəfə də öz mövqeyini izah edən müvafiq məlumat və sənədləri təqdim etməyi təklif edə bilər. Lakin tərəfin razılığı olmadan belə məlumat və ya sənədlərin məzmunu digər tərəfə açıqlana bilməz.

Bununla yanaşı, mediasiya təşkilatı və ya mediator mediasiya prosesi başlamazdan əvvəl mediasiya sessiyasında iştirak edən tərəflərə **öz xidmət haqqı və xərcləri** barədə məlumat verirlər. Mediasiya təşkilatı və ya mediatora müraciət üçün isə müvafiq formalar mediasiya təşkilatı və ya mediator tərəfindən müəyyən edilir.

### 2.1.2. Mediasiya prosesində hazırlıq mərhələsinin məqsədi və həyata keçirilən tədbirlər

Mediasiya zamanı hazırlıq mərhələsinin **əsas məqsədi** mediasiya prosesinə hazırlaşmaqdan ibarətdir. Bu məqsədə nail olmaq üçün **hədəflər** qismində mübahisə işi barədə ilkin təəssüratın əldə edilməsi, proses iştirakçılarının müəyyənləşdirilməsi, maraqların toqquşması hallarının yoxlanılması və digər təşkilati məsələlərin həll edilməsi kimi amillər çıxış edir. Mediatorlar müəyyən hallarda hazırlıq mərhələsindən tərəflərlə ilkin ünsiyyət yaratmaq üçün də yararlanırlar; qarşıya qoyulmuş hədəflərə

çatmaq üçün mediatorlar müxtəlif üsul və vasitələrdən istifadə edə bilərlər. Bu, **mediator üçün hazırlıq mərhələsi** sayılır.

Mübahisə üzrə ilkin təəssüratın əldə edilməsi məqsədilə mediator öz istəyindən asılı olaraq aşağıdakı **hazırlıq tədbirlərini** görür: şifahi və yazılı mənbələrdən mübahisə işinin predmeti, eləcə də tərəflər barədə zəruri informasiyalar alır, müvafiq məlumatları toplayır, telefon vasitəsilə əlaqə yaradır, məhkəmə sənədləri ilə tanış olaraq ətraflı texniki və ya hüquqi təhlillər aparır, mediasiya işi üzrə tərəflərdən lazımi arayışlar istəyir, ilkin görüşlər (təkbətək, bəzən birlikdə, bəzən isə yalnız nümayəndələr vasitəsilə görüşlər) keçirir və s. Bəzən, mübahisənin xarakterindən asılı olaraq, mediator **işin əsas araşdırılmasını** təyin olunmuş mediasiya gününə də saxlaya bilər. Mediator həm də tərəflərdən arayış almaqla yanaşı, şifahi söhbətlər zamanı mübahisənin mahiyyətini tam anlamaq və hazırlaşmaq üçün tərəflərə **müxtəlif məzmunlu suallar** ünvanlaya bilər.

Hazırlıq mərhələsi prosesində tərəfləri və mübahəsənin predmetini aydınlaşdırdıqdan sonra, tərəflər və mübahəsənin predmeti ilə mediatorun hər hansı **münasibətinin olub-olmaması** halını müəyyən etmək zərurəti ortaya çıxır. Belə bir münasibət mövcud olduğu təqdirdə, təbii ki, mediator bu münasibətin onun müstəqilliyinə və qərəzsizliyinə təsir edib-etmədiyini müəyyən etməlidir. Əgər mediator belə bir münasibətin onun müstəqilliyinə və qərəzsizliyinə təsir etməyəcəyi qənaətinə gələrsə, bu halı hazırlıq mərhələsində və yaxud iclas günü mediasiyaya başlamazdan əvvəl mübahisə tərəflərinə açıqlamalı, onların razılığı olduqda isə prosesə davam etməlidir.

Bəzən, mediator **hazırlıq mərhələsi ərzində** mübahisə tərəflərinə mediasiyanın mahiyyəti, tərəflərin bu prosesə necə hazırlaşmaları və mediasiya günü hansı hadisələrin baş verə biləcəyi **ehtimalları** barədə müvafiq informasiyaları çatdırır. Mediator həmçinin mediasiya prosesində hansı şəxslərin iştirak edəcəyini, eləcə də məsələ üzrə ədalətli qərar qəbul etməyə təsir

göstərə biləcək şəxslərin, habelə vəkil və digərlərinin mediasiyada iştirakını **mübahisə tərəfləri** ilə müzakirə edir.

Hazırlıq mərhələsində həmçinin mübahisə tərəflərinin mediasiya zamanı üzləşə biləcəyi **risklər** də nəzərə alınmalıdır. Belə ki, risklərlə bağlı məsələlər vaxtında tərəflərə ünvanlanmadıqda mediasiyanın başlanması, bəzən, acınacaqlı nəticələrə gətirib çıxara bilər.

Eyni zamanda, hazırlıq mərhələsində bir sıra texniki və maliyyə məsələləri də həll edilir. **Texniki məsələlər** anlayışının məna yükü mediasiya prosesi üçün otaqların ayrılmasını, hazırlanmasını, ilkin sənədləşmənin aparılmasını və digər texniki məsələlərin (məsələn, onlayn mediasiya prosesinin ) həll olunmasını ehtiva edir; bəzən, mediasiya prosesinin tətbiqi və xidmət müqavilələrinin hazırlanması və imzalanması da bu mərhələdə həyata keçirilir. **Maliyyə məsələləri** dedikdə isə, adətən, mübahisə tərəflərinin müvafiq xidmət haqları barədə məlumatlandırılması, eləcə də xidmət haqqının ödənilməsi barədə maliyyə münasibətlərin qaydaya salınması başa düşülür.

Hazırlıq mərhələsində növbəti addım **tərəflər üçün hazırlıq** adlanır. Belə ki, danışıqların uğurla nəticələnməsinin əsas səbəblərindən biri məhz danışıqlarda mübahisə tərəflərinin hazırlıqlı şəkildə iştirak etməsindən ibarətdir. Mübahisə tərəfləri üçün danışıqlara hazırlaşmaq müəyyən vaxt tələb edən **mürəkkəb bir prosesdir**. Lakin, bununla yanaşı, qeyd etməliyik ki, hazırlıq mərhələsi pərakəndə və ya qarışıq bir proses deyil, uğurlu nəticə əldə etmək üçün bu proses **bir neçə istiqamətdə** həyata keçirilir. Danışıqlara hazırlıqlar zamanı, adətən, aşağıda göstərilən istiqamətlərdə araşdırma tədbirləri aparılır.

Mübahisə tərəfləri, ilk növbədə, öz istəklərini müvafiq tələblər və prinsiplər əsasında deyil, **faktiki maraqları** əsasında müəyyən etməlidirlər. Mümkün olduğu təqdirdə mübahisə tərəfi **qarşı tərəfin** də maraqlarının nədən ibarət ola biləcəyi barədə düşünməli və müvafiq təhlil aparmalıdır. Bu hal, ilkin olaraq, danışıqların səmərəliliyinə **müsbət təsir** göstərə bilər.

Sonrakı tədbir kimi **mübahisənin predmeti** (məsələn, kommersiya, ailə, əmək və s. münasibətlərdən irəli gələn mübahisələr) və **qarşı tərəf** (məsələn, fiziki və ya hüquqi şəxs) araşdırılmalıdır. Bu məqamda, eyni zamanda, mübahisə tərəflərinin istinad edə bilmələri üçün müəyyən **standartlar** da müəyyən edilə bilər.

Ədəbiyyat səhifələrində göstərildiyi kimi, hazırlıq mərhələsinin növbəti addımında isə **razılaşmaya ən yaxşı alternativ** (RƏYA) və / və ya **razılaşmaya ən pis alternativ** (RƏPA) müəyyən edilməlidir.[1]

Qeyd etməliyik ki, əgər RƏYA-nın müəyyən olunması üçün qarşı tərəflə razılaşma əldə edilməzsə, onda tərəfin izləyə biləcəyi bütün **real alternativ variantlar** nəzərdən keçirilərək müəyyənləşdirilməlidir. Hər bir mümkün alternativin nəticəsi qiymətləndirilməli və bu alternativlər arasında ən yaxşı variant seçilməlidir; seçilmiş variant tərəfin RƏYA-sı sayılır.

Maraqlı cəhətdir ki, RƏYA, faktiki olaraq, **iki mənada** işlədilir:

– **birinci mənada RƏYA** dedikdə, adətən, mübahisə tərəfləri arasında razılaşma əldə olunmadıqda, tərəflərin digər təkliflər əldə etməsi və həmin təkliflərdən ən yaxşısını alternativ kimi diqqətdə saxlayıb, danışıqlara getməsi başa düşülür. Məsələn, əmlak sahibi olan satıcı-tərəf bir neçə alıcı-tərəfdən aldığı təklifi nəzərdə saxlayaraq, yəni 2 alternativə malik olmaqla, o, üçüncü potensial alıcı-tərəflə danışıqlara gedir;

– **ikinci mənada RƏYA** onu ehtiva edir ki, bəzən, razılaşmaya ən yaxşı alternativ anlayışının məna yükü altında potensial ən yaxşı alternativ nəzərdə tutula bilər. Lakin, bu mənada RƏYA barışıq üçün minimum deyil, maksimum tələbləri ehtimal edərək, yəqin ki, müəyyən mənada məntiqsizlik də yarada bilər. Başqa sözlə desək, ümumilikdə, ikinci mənada RƏYA danışıqlar zamanı tələblərin maksimal limit həddini ehtiva edir.

[1] Bu barədə ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.83-85.

Deməli, məqsədə çatmaq üçün RƏYA-ya sözügedən ikinci mənada istinad edildikdə, danışıqlar zamanı tələblərin minimal həcmini müəyyənləşdirmək üçün hər bir tərəf razılaşmaya ən pis alternativi, yəni **RƏPA variantını** müəyyən edir. Təbii ki, bu zaman hər bir tərəfin öz RƏPA variantından daha aşağı şərtlərlə razılaşması məntiqsiz görünür. Həmçinin RƏPA-nı müəyyən etmək üçün tərəflə razılaşma əldə olunmadığı təqdirdə, tərəfin izləyə biləcəyi bütün **real alternativ variantlar** nəzərdən keçirilərək müəyyən edilməlidir. Hər bir belə alternativin nəticəsi qiymətləndirilməli və bu alternativlər arasında ən pis variant seçilməlidir; seçilmiş bu variant tərəfin RƏPA-sı hesab edilir.

Eyni zamanda, qeyd etməliyik ki, tərəflər özünəməxsus RƏYA və RƏPA variantlarını müəyyən etməklə yanaşı, qarşı tərəfin də RƏYA və RƏPA variantlarını dəqiqləşdirməyə səy göstərməlidirlər. Belə ki, RƏYA və RƏPA bazar iqtisadiyyatı, qanunvericilik, məhkəmə təcrübəsi və digər faktorlardan funksional şəkildə asılı olan **obyektiv göstəricilər** sayılır. Bunlardan fərqli olaraq, **son limit həddi** tərəflərin subyektiv arzu, istək və maraqlarına əsasən müəyyən edilir: məsələn, əmlak alqı-satqısı zamanı son limit həddi dedikdə qarşı satıcı-tərəflə razılaşmaq üçün alıcı-tərəfin qəbul edəcəyi ən aşağı məbləğ və ya ən çox ödəyə biləcəyi məbləğ nəzərdə tutulur. Ona görə də, qeyd edə bilərik ki, danışıqlardan əvvəl hər bir maraqlı tərəf özü üçün, ilkin olaraq, belə bir limit müəyyən edir; həmçinin, mümkün olduğu təqdirdə, qarşı tərəfin də ehtimal edilən limiti nəzərə alınmalıdır.

Tərəf öz limitini və qarşı tərəfin ehtimal olunan limit həddini müəyyən etdikdən sonra, bu limitlərin kəsişdiyi sahə **potensial barışıq sahəsi** adlanır. Danışıqlar prosesi zamanı qarşılıqlı razılıq, adətən, potensial barışıq sahəsi formatında əldə olunur. Ancaq, bəzən, belə barışıq sahəsi əvvəlcədən mövcud və mümkün olmadıqda, sonradan tərəflər mediasiya zamanı danışıqların prinsipləri və mediasiya sessiyalarında nəzərdə tutulmuş qaydada **dəyər yaratmaqla** sözügedən potensial barışıq sahəsini formalaşdıra bilərlər.

Beləliklə, qeyd edə bilərik ki, hazırlıq mərhələsinin sonunda danışıqların prinsipləri ilə bağlı bütün mümkün **obyektiv kriteriyaların** (məsələn, bazar meyarları, standartlar, normativlər, qanunvericilik, adət-ənənə, milli mentalitet və sairə meyarların) tətbiq edilməsi uğurlu nəticənin əldə edilməsinə zəmin yarada bilər.

### 2.1.3. İlkin təklifin müəyyən edilməsi və ilkin mediasiya sessiyasına hazırlıq tədbirləri

Qeyd etməliyik ki, mediasiyada danışıqlar prosesi mübahisə tərəfləri arasında ilkin təklifin verilməsi, ilkin tələbin irəli sürülməsi ilə başlayır. Ona görə də, mediasiya prosesində müsbət yekun nəticəyə nail olmaq üçün **ilkin təklifin müəyyən edilməsi**, hansı formada təqdim olunması, həm də ona lazımi səviyyədə hazırlaşmaq xüsusi aktuallıq kəsb edir. Belə ki, ilkin təklif, bir qayda olaraq, konkret hallarda mediasiyada danışıqların vacib istiqamətlərini və uğurlu nəticə ilə yekunlaşıb-yekunlaşmayacağı proqnozunu ehtimal edə bilər.

İlkin təklifin **həcminin** və **gücünün** danışıqlar prosesinin davam etdirilməsinə göstərə biləcəyi **təsirin** müəyyən edilməsi də olduqca vacib məsələdir. Lakin, praktiki cəhətdən, ilkin təklifdən **manipulyasiya** aləti və ya vasitəsi kimi istifadə edilməsi yolverilməzdir. Çünki, məlum olduğu kimi, danışıqların aparılması qaydalarının əsas komponentlərindən biri **səmimiyyət** elementidir. Əgər mediasiya prosesində danışıqlar zamanı ortada səmimiyyət elementi mövcud olmazsa, onda qarşı tərəf öz hisslərinə qapana, söhbətdə özünümüdafiə mövqeyini tuta və bununla da danışıqların uğursuzluqla nəticələnməsinə səbəb ola bilər.

Digər tərəfdən isə, ilkin təklifin razılaşdırıla biləcəyi **son limit həcmində** verilməsi, bəzən, müəyyən hallarda tərəflərin barışığagəlmə ehtimallarına mənfi təsir göstərə bilər. Çünki, ilkin təklifin **aşağı limit həcmində** verilməsi isə, qarşı tərəfin

digər tərəfin mövqeyində şübhəli olmasına, qeyri-səmimi hisslərin nümayiş etdirilməsinə və güzəştlərin dəyərləndirilməməsinə səbəb ola bilər. Belə situasiyanın yaranmasının qarşısının alınması məqsədilə, adətən, bir çox tərəf ilkin təklifi potensial olaraq, real əldə edə biləcəyi **maksimal həcmdə** irəli sürür. Belə halda ilkin təklif formalaşdırılarkən, RƏYA və RƏPA ilə yanaşı, potensial əldə oluna biləcək **ən yüksək miqdar** (həcm) meyarı da müəyyən edilərək, nəzərə alınır.

Qeyd etməliyik ki, ilkin təklifin **qeyri-real olaraq yüksək və ya aşağı səviyyədə verilməsi** qarşı tərəfin digər tərəfə və onun niyyətinə etibarının itməsinə səbəb ola bilər, hətta təhqir halı kimi başa düşülə bilər. Göründüyü kimi, ilkin təklifin həddən artıq yüksək, yaxud aşağı səviyyədə irəli sürülməsi halları **tərəflər arasında münasibətləri** qarşılıqlı səmimiyyət və etibarlılıq mühitindən uzaqlaşdıraraq korlaya, çəkişməyə, eləcə də hər iki tərəfi yalnız maksimal nəticə əldə etməyə fokuslandıra, sövq edə bilər.

Eyni zamanda, qeyd etməliyik ki, mediasiya prosesi zamanı yaranmış situasiyadan **sui-istifadə** etmək, habelə **manipulyasiya** hallarına yol vermək zəminində həddən artıq yüksək və ya aşağı səviyyədə ilkin təklif irəli sürülməsi qarşı tərəfin, adətən, **mənfi reaksiyasına** səbəb olur. Belə ki, sözügedən halda mübahisə tərəfləri, praktiki olaraq, müxtəlif üsul və vasitələrdən istifadəyə əl atırlar; bəzən, qarşı tərəf analoji variantda **aqressiv əks-təklif** irəli sürür. Digər hallarda, mübahisə tərəfi analoji təklifin mediasiya üzrə danışıqların ruhuna və barışığa kömək etməyəcəyini düşünərək, qarşı tərəfdən mübahisənin həllinə dair **yeni təklif verilməsini** gözləyə bilər. Lakin, bəzi hallarda isə, mübahisə tərəfi təqdim edilən ilkin təklifə varmadan və ya ona fikir vermədən, mübahisə üzrə **digər münasibətlərin muzakirəsinə** başlaya bilər. Qeyd etməliyik ki, belə hal yarandığı zaman mübahisə tərəfləri eyni mərhələdə qalmamaq üçün irəli sürülən ilkin təklifin həddən artıq müzakirəsindən **yayınmalıdırlar**; çünki, mübahisə üzrə həddən artıq yüksək və ya aşağı

səviyyədə ilkin təklif verən tərəf mövqeyini özünəinam şəklində əsaslandırmaqla, ona daha çox **sıx bağlana** bilər.

Mediasiya qanunvericiliyində nəzərdə tutulduğu kimi, mübahisənin həlli üçün **təkliflərin hazırlanması mərhələsində** tərəflər müvafiq təkliflər verir, təklif olunan variantları təhlil edir və irəli sürülən təkliflərə öz fikirlərini bildirirlər.[1] Mediasiya prosesində tərəflər öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair təkliflərini **yazılı** və ya **şifahi** şəkildə bildirirlər. Müvafiq təkliflər irəli sürülərkən mövcud qanunvericiliyin tələbləri, üçüncü şəxslərin hüquqları və qanunla qorunan mənafeləri nəzərə alınmalıdır.

Eyni zamanda, mübahisənin həlli üçün təkliflərin hazırlanması mərhələsində təqdim olunan təkliflər barışıq sazişinin **şərtlərinin icrasının mümkünlüyü** baxımından, tərəflər və əgər vardırsa, onların nümayəndələri tərəfindən dəyərləndirilir. Eləcə də mediasiya prosesinin hər hansı mərhələsində mediator mübahisənin həlli məqsədilə tərəflər üçün **öhdəlik nəzərdə tutmayan** şifahi və ya yazılı təklif də irəli sürə bilər; ancaq hər iki tərəfə açıqlanan belə **barışıq təklifi** tərəflərin qarşılıqlı razılığı ilə verilir.

Mediasiya prosesi zamanı **ilkin mediasiya sessiyasına hazırlıq** tədbirlərinin görülməsi də xüsusi aktuallıq və əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikasında qüvvədə olan mediasiya haqqında qanunvericiliyə görə, mediasiya prosesi tərəflər arasında bağlanan **“mediasiya prosesinin tətbiqi barədə müqavilə”** əsasında ilkin mediasiya sessiyasında iştirak etməklə həyata keçirilir (MHQ, maddə 21, 28, 29).[2] Adıçəkilən

[1] Bu barədə daha ətraflı bax: Mediasiya prosesinin həyata keçirilməsi Qaydası (maddə 10) // Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/43222 (21.08.2023-cü il).

[2] Bu barədə ətraflı bax: “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, “Hüquq Yayın Evi”, 2019, s.18-20.

müqavilədə, əvvəllərdə göstərdiyimiz kimi, müqavilənin tarixi, vaxtı və tərtib olunduğu yer, tərəflərin adları və rekvizitləri, mübahisənin predmeti, tərəflərin seçdiyi mediator (mediatorlar) və ya mediasiya təşkilatı, mediasiya prosesi ilə əlaqədar xərclərin ödənilməsi şərtləri və qaydası, mediasiya prosesinin keçirilmə müddəti, mediasiya prosesinin keçirilmə qaydası və başqa **şərtlər haqqında məlumatlar** öz əksini tapır.

İlkin mediasiya sessiyası zamanı mübahisə işi üzrə **iddia qaldırmaq istəyən tərəf** digər tərəfə mediasiya prosesinin tətbiqi barədə **yazılı formada təklif** ünvanlayır. Sözügedən təklif qarşı tərəfə təqdim edildikdən sonra **10 iş günü** ərzində qəbul edilmədikdə, yaxud tərəflər mediator və ya mediasiya təşkilatı barədə ümumi razılığa gəlmədikdə, istənilən tərəf aidiyyəti üzrə müvafiq **mediasiya təşkilatına müraciət** edə bilər.

**Mediasiya üçün müraciətdə** birinci tərəf (tam adı, fiziki və ya hüquqi şəxs, ünvan, telefon, elektron poçt, nümayəndə, vəkil, hüquq şirkəti barədə informasiyalar), ikinci tərəf (eyni məlumatlar əks olunmaqla) və digər tərəflər barədə (müvafiq məlumatlar əks etdirilməklə), eləcə də tərəflərin qarşılıqlı razılığı əsasən mediatoru seçib-seçmədikləri, mediatordan tələb olunan dil biliyi və təcrübə, mediasiyanın keçirilməsi üçün üstünlük verilən yer, mediasiyaya dair xərclərin tərəflər arasında bölüşdürülməsi qaydası, mediasiya sessiyalarının keçirilməsi üçün üstünlük verilən vaxt, mübahisənin qısa məzmunu, mediasiyadan gözlənilən nəticələr və s. barədə **məlumatlar göstərilir**.

Eyni zamanda, **mübahisə tərəfi** aidiyyəti ərazi üzrə müvafiq mediasiya təşkilatı olmadıqda, məhkəmə orqanının yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən **mediasiya təşkilatına** (MHQ, maddə 28.3) və yaxud **aidiyyəti məhkəməyə** müraciət edə bilər (MHQ, maddə 28.4).

Mübahisə tərəflərindən biri yuxarıda göstərilən qaydada mediasiya təşkilatına müraciət etdikdə və tərəflər mediator barədə qarşılıqlı razılığa gələ bilmədikdə, mediatoru **mediasiya**

**təşkilatı təyin edir** (MHQ, maddə 28.3). Mübahisə tərəfləri məsələnin həlli üçün eyni ərazidə yerləşən fərqli mediasiya təşkilatlarına müraciət etdikdə, belə halda tərəflərdən hər hansı birinin ilk müraciət etdiyi mediasiya təşkilatı **səlahiyyətli** hesab olunur.

**Mediatorun və ya mediasiya təşkilatının seçilməsi, mediasiyanın keçirilmə yeri və vaxtı** barədə münasibətlər mediasiya qanunvericiliyi ilə ətraflı şəkildə tənzimlənir (MHQ, maddə 23).[1] Belə ki, mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflər **qarşılıqlı razılaşma** əsasında bir və ya bir neçə mediator seçir. Tərəflər mediatorun seçilməsi üçün mediasiya təşkilatına da müraciət edə bilərlər. Tərəflər **mediatorun seçilməsi** üçün mediasiya təşkilatına müraciət etdikdə mediasiya təşkilatı tərəflərə bir və ya bir neçə mediatorun namizədliyini təklif edir; eyni zamanda, mediasiya təşkilatı tərəflər arasında bağlanmış "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə"də təsbit olunduğu, həmçinin tərəflərin qarşılıqlı razılaşmasına əsasən və ya MHQ-də nəzərdə tutulduğu hallarda mediatoru (mediatorları) bilavasitə təyin edir.

**Mediator və ya mediasiya təşkilatı** "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlandığı ana qədər tərəflərə mediasiyanın məqsədlərini, onların hüquq və vəzifələrini **ödənişsiz izah etməlidir**. Mediator və ya mediasiya təşkilatı ilə mübahisə tərəfləri arasında münasibətlər mediasiya xidmətlərinin göstərilməsinə dair müvafiq müqavilə ilə tənzimlənir. Mediasiya xidmətlərinin göstərilməsinə dair bağlanan **müqavilədə** mediatorun və ya mediasiya təşkilatının, tərəflərin hüquq və vəzifələri, məsuliyyəti, konfidensiallıq, mediasiya xərcləri, MHQ-yə, eləcə də Mülki Məcəlləyə (MM) uyğun olaraq digər şərtlər **təsbit edilir**. Mediator tərəflərin qarşılıqlı razılığı ilə mediasiya prosesinin **keçirilmə yerini** və **vaxtını** da müəyyənləşdirir.

---

[1] Toxunulmuş məsələ barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.21.

Göründüyü kimi, mübahisə tərəflərindən mediasiya təşkilatına belə bir **müraciət daxil olduqda**, mediasiya təşkilatı mediator təyin etməli və mediasiyanın vaxtını müəyyən edib, tərəfləri mediasiya prosesinə dəvət etməlidir.

Eyni zamanda, qeyd etməliyik ki, mediasiya təşkilatı mediator təyin edərkən, mediasiya işinin mürəkkəbliyini, onun predmetini, mediatorun peşə təcrübəsini, eləcə də mediatorun qərəzsizliyini və bitərəfliliyini, habelə maraqların toqquşmasının onun olub-olmaması hallarını **nəzərə almalıdır**. Bu zaman mediatorun maraqlar toqquşması aspektinin olmadığını müəyyən formadan istifadə etməklə təsdiq etməsi məqsədəuyğun sayılır. Belə təsdiqedici forma, bəzən, mediatorların **maraqların toqquşması yoxlama vərəqi** də adlanır.Yoxlama vərəqi mediasiya təşkilatı və ya müstəqil fəaliyyət göstərən mediator tərəfindən tərtib olunaraq mübahisə tərəflərinə təqdim edilir.

Mediasiyanın vaxtını mediasiya təşkilatı və ya iş üzrə təyin edilmiş mediator mübahisə tərəfləri ilə **müvafiq məsləhətləşmələr** apararaq, öz qərarına əsasən müəyyən edir. Mediasiyanın keçiriləcəyi vaxt müəyyən olunduqdan və iş üzrə mediator təyin edildikdən sonra mübahisə tərəflərinə mediator və ya mediasiya təşkilatı vasitəsilə ilkin mediasiya sessiyası haqqında müvafiq **bildiriş** təqdim olunur. Bu rəsmi bildiriş sənədi, bəzi hallarda, **mediasiyaya dəvət məktubu** kimi adla da tanınır. Mediasiyaya dəvət məktubunda **aşağıdakı məlumatlar** öz əksini tapır:

– mübahisə üzrə dəvət edilən tərəflərin məlumatları;

– dəvət edən şəxsin və ya təşkilatın məlumatları, müraciət edilən tarix;

– mediasiya prosesinin tətbiqi barədə təklifdə təsvir edilən mübahisənin qarşılıqlı razılıqla həll edilməsi üçün ilkin mediasiya sessiyasında iştirak etməyə dəvət haqqında bildiriş;

– ilkin mediasiya sessiyası zamanı peşəkar və qərəzsiz mütəxəssis olan mediator tərəfindən mediasiya prosesi barədə daha ətraflı informasiya veriləcəyi və tərəflər arasındakı mübahisənin

qarşılıqlı razılığa əsasən həll edilməsi imkanlarının ilkin olaraq araşdırılacağı haqqında tövsiyələr;

– əgər varsa, vəkillərin və ya nümayəndələrin iştirakı ilə keçiriləcək ilkin mediasiya sessiyasına çağırış və s. məlumatlar.

İlkin mediasiya sessiyası haqqında bildirişə mediasiya qaydaları (əgər varsa), eləcə də mediasiyaya dair xərclər, barışıq sazişi nümunəsi və mediasiya prosesinin tətbiqi barədə təklif **əlavə edilir**. Mediasiya haqqında qanunvericiliyə görə, əgər tərəflər arasında başqa qayda müəyyən edilməmişdirsə, onda mediasiyaya dəvət məktubu mübahisə üzrə **tərəflərə** ilkin mediasiya sessiyasının keçirilmə tarixindən azı **5 gün əvvəl** təqdim edilir (MHQ, maddə 29.2).[1]

## 2.2. Mediasiyada danışıqlar prosesi

### 2.2.1. Danışıqlar prosesinin anlayışı

Qeyd etməliyik ki, mediasiya müstəqil mütəxəssis, yəni mediator tərəfindən **idarə edilən** bir danışıq prosesidir. Burada mediatorun **əsas rolu** danışıqlar prosesində mübahisə tərəflərinin həyata keçirmək istədiyi qarşılıqlı təsir mexanizminin mahiyyətini dərk etmələrindən ibarətdir. Başqa sözlə desək, mediator mübahisə üzrə razılığın əldə edilməsi, mübahisələrin qarşısının effektiv surətdə alınması və həll edilməsi, eləcə də mediasiyanın idarə edilməsi üçün danışıqlar prosesini **sadələşdirməlidir**; bu məqsədlə o, mediasiya fəlsəfəsi, prinsipləri və strategiyaları barədə zəruri biliklərə, habelə praktik təcrübəyə malik olmalıdır.

Eyni zamanda, danışıqlar prosesində **mərkəzi fiqur sayılan mediator** mediasiya ilə əlaqəli digər mövzuları, yəni hakimlər, prokurorlar, polislər, vəkillər, məhkəmə nəzarətçiləri, notariuslar, probasiya məmurları, sosial işçilər və mediasiyanın digər əsas iştirakçıları üzərində fokuslanmaqla mediasiya sahəsində

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.25.

müxtəlif proqramların təşkil edilməsi və müvəffəqiyyətlə həyata keçirilməsi üçün lazım olan "əsas məqamları" dərindən bilməli, eləcə də xüsusi və mürəkkəb mediasiya situasiyaları yarandıqda necə işləmək lazım olduğunu operativ şəkildə dərk etməlidir. Həm də uğurlu mediasiya nəticələrinə nail olmaq mediasiyanın bütün iştirakçıları tərəfindən danışıqlar prosesinin necə başa düşülməsindən **daha çox** asılıdır. Bu səbəbdən, pozitiv və marağa əsaslanan, dəyər tələb edən və dəyər yaradan geniş əhatəli, unikal danışıqlar prosesinə təfərrüatlı və spesifik yanaşma üsulları ilə, necə deyərlər, **danışıqlar nəzəriyyəsinin təməli** yaradılır.[1]

Beləliklə, **mediasiyada danışıqlar** dedikdə mübahisə tərəfləri arasında razılığın əldə edilməsi, mübahisələrin effektiv surətdə qarşısının alınması, həll və ya idarə edilməsi üçün danışıqlar prosesinin mediator vasitəsilə asanlaşdırılması başa düşülür.

Danışıqlar prosesinin **səmərəli şəkildə** təşkil olunması və idarə edilməsi üçün mediator tərəflər arasında mövcud ola biləcək **aşağıdakı aspektlər və ya hallar** kontekstində xüsusi reaksiyaya malik olmalıdır: Rəqabət aparılması; Qarşı tərəfin qayğılarının nəzərə alınması; Yayınma; Əməkdaşlıq; Kompromis. Tərəflər arasındakı mübahisənin həlli üzrə göstərdiyimiz **yanaşma variantlarına** qısaca anlayış verək.

**Rəqabət aparılması** dedikdə mübahisə tərəflərinin təkid xarakterli və əməkdaşlıq mövqeyi daşımayan münasibətləri, başqa sözlə, bir tərəfin öz maraqlarını digər tərəfin hesabına həyata keçirməsi halları ehtimal olunur. Bu, mahiyyət etibarilə, gücyönümlü bir yanaşmadır. Başqa sözlə, rəqabət aparmaq, sanki, "haqları müdafiə etmək", "doğru olduğuna inanılan bir mövqeyi müdafiə etmək" və ya sadəcə olaraq "qazanmağa çalışmaq" kimi mənaları ehtiva edir.

---

[1] Toxunulmuş məsələ barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.8, 26-36.

**Qarşı tərəfin qayğılarının nəzərə alınması** təkid xarakteri deyil, əməkdaşlıq mövqeyi daşıyır – Rəqabət aparılması münasibətlərinin tam əksidir və bu anlayış, bəzən, **birtərəfli güzəşt** kimi də ifadə edilir. Qarşı tərəfin qayğılarının nəzərə alınması zamanı mübahisə tərəfi digər tərəfin qayğılarını təmin etmək üçün, sanki, öz qayğılarını görməzdən çıxış edir. Belə yanaşmada, adətən, fədakarlıq elementi mövcud olur və bu hal səxavətlilik və ya xeyirxahlıq formasında təzahür edir.

**Yayınma** isə nə təkid, nə də əməkdaşlıq xarakteri daşıyır. Bu, o deməkdir ki, mübahisə tərəfi nə öz qayğılarını, nə də qarşı tərəfin qayğılarını təmin edir, yəni tərəflər mübahisə ilə məşğul olmur. Yayınma, adətən, qarşıda duran mübahisəli məsələni xalq diplomatiyası yolu ilə yan keçmək, mübahisənin uğurlu həllini daha yaxşı vaxta təxirə salmaq, yaxud sadəcə olaraq təhlükəli vəziyyətdən qaçmaq şəklində təzahür edə bilər.

**Əməkdaşlıq** həm təkid, həm də qarşılıqlı münasibət xarakteri daşıyır, yəni Yayınma halının tam əksidir. Başqa sözlə, Əməkdaşlıq vəziyyəti qayğıları tam qane edə biləcək bir həll variantını tapmaq üçün mübahisə tərəfləri ilə səmərəli işləmək cəhdini nəzərdə tutur. Bu, mübahisə üzrə hər iki tərəfin əsas ehtiyaclarını və istəklərini müəyyənləşdirmək üçün mübahisənin dərindən araşdırılmasını ehtiva edir. Tərəflər arasındakı qarşılıqlı əməkdaşlıq münasibətləri onların mövqelərini öyrənmək üçün fikir ayrılığını və ya mübahisənin uğurlu həllini tapmağa səy göstərilməsi formasında da təzahür edə bilər.

**Kompromis** dedikdə həm təkid, həm də qarşılıqlı əməkdaşlıq münasibətləri baxımından, mübahisə tərəflərinin orta mövqeyi başa düşülür. Burada məqsəd mübahisə üzrə hər iki tərəfi qismən məmnun edə biləcək məqsədəmüvafiq, qarşılıqlı uğurlu həll variantını tapmaqdan ibarətdir. Kompromis vəziyyəti Rəqabət aparılması və Birtərəfli güzəşt mövqeləri arasında qərar tutur. Belə ki, Kompromis vəziyyəti Rəqabət aparılması mövqeyindən daha azını, Birtərəfli güzəşt mövqeyindən isə daha çoxunu verir. Lakin Kompromis mövqeyi mübahisə üzrə məsələ

ilə Yayınma vəziyyətinə münasibətdə daha geniş miqyasda məşğul olur; eyni zamanda, toxunulmuş mübahisə məsələsini Əməkdaşlıq mövqeyində olduğu qədər dərindən araşdırmır. Bəzən, mediasiya işində Kompromis halı iki mövqe arasındakı fərqi bölmək, güzəştlər mübadiləsi və yaxud problemin tez orta həll yolunu tapmaq mənasını ehtiva edə bilər.

Şərh olunan məqamları nəzərə alaraq, qeyd edə bilərik ki, mediasiyanın effektiv şəkildə həyata keçirilməsi üçün **danışıqlar prosesi** vacib əhəmiyyət kəsb edir. Bu zaman danışıqlar prosesində mediator **"yüksək danışıq"** qabiliyyətinə malik olmalıdır, yəni mediator prosesi idarə etmək üçün zəruri strategiya və taktikaların təqdim edilməsinə, eləcə də aşağıdakı hərəkətlərin həyata keçirilməsinə **üstünlük** verməlidir:

– mübahisə tərəflərinin hər biri ilə müvafiq danışıqlar aparmalıdır;

– tərəflərin mübahisə üzrə danışıqlar aparmasına lazımi imkan yaratmalıdır;

– mübahisə üzrə tərəflərinin danışıqlar aparmasına düzgün yol göstərməlidir;

– tərəflərlə aparılan söhbətlər uğurlu nəticə vermədikdə, danışıqlara başlamalıdır;

– mübahisə tərəflərinin qabaqcadan fikirləşmədiyi həll variantlarını araşdırmaqda onlara müvafiq köməklik göstərməlidir;

– mübahisə işi üzrə problemin uğurlu həllinə yaradıcı yanaşmalıdır və s.

Deməli, danışıqlar prosesi, mahiyyət etibarilə, mübahisə tərəfinin digər tərəf ilə ünsiyyət qurmaq, müzakirələr aparılması vasitəsilə mübahisə üzrə müəyyən razılığa və ya kompromisə gəlmək, eləcə də mübahisənin uğurlu həlli üzrə tərəflərə pozitiv təsir göstərə biləcək və ya onları inandırmağa istiqamətlənmiş hər hansı sairə hərəkətlər kimi **tərkib hissələrdən** ibarətdir.

Toxunulmuş məsələ ilə bağlı ən **mühüm ideya** isə mübahisə üzrə bir tərəfin digər tərəflə danışıqlar aparılması variantını

seçməsidir. Belə ki, mübahisə üzrə bir tərəf hansısa ünsiyyət forması ilə digər tərəfə təsir göstərərək, mövcud variantları reallaşdıra biləcəyinə inamlı olur. Başqa sözlə ifadə etsək, bu aspektlər mübahisənin həlli üzrə mövcud **potensial seçimlərin** mümkünlüyünün yaxşılaşdırılması üçün müvafiq təsir göstərilməsi ilə bağlıdır. Burada söhbət mediasiyada danışıqlar prosesinin hazırlıq, müzakirə, təkliflər və tamamlama kimi kompleks elementlərindən gedir.

**Hazırlıq** dedikdə mübahisə üzrə tərəflər arasında vəziyyətin qiymətləndirilməsi, hədəfin müəyyən olunması və strategiyanın inkişaf etdirilməsi prosedurları başa düşülür.

**Müzakirə** anlayışı tərəflər arasında mübahisə üzrə məsələlərin və mövqelərin aydınlaşdırılması, mübahisənin həlli üçün konstruktiv şəraitin yaradılması, tərəflərə qulaq asma və onları anlama kimi hərəkətlərin məcmusunu ehtiva edir.

**Təkliflər** prosesində mübahisənin həlli üzrə təkliflərin edilməsi, maraq və ehtiyacların qiymətləndirilməsi və risk analizi barədə məsələlər nəzərdə tutulur.

**Tamamlama** prosesində isə tərəflər arasında mübahisə üzrə razılaşmanın hazırlanması və imzalanması, yekun və icra mexanizmi ilə bağlı münasibətlər müəyyənləşdirilir.

### 2.2.2. Danışıqlar prosesində yanaşmalar və motivasiya amili

Mediasiya fəaliyyətinin tərkib hissəsi olan danışıqlar prosesində vəziyyətin dəyərləndirilməsi üzrə müxtəlif **yanaşma metodları** formalaşmışdır. Mediasiya fəaliyyəti praktikasında belə yanaşma metodlarına, bəzən, **"düşüncə tərzi"** də deyilir. Burada "yanaşma" və "düşüncə tərzi" terminləri sinonim anlayışlar mənasında işlədilir.

Ədəbiyyat səhifələrində qeyd olunduğu kimi, müasir dövrdə mediasiya ilə bağlı danışıqlar prosesində mübahisə işi üzrə

tərəflərin situasiyanı qiymətləndirməsi istiqamətində **iki fərqli yanaşma** mövcuddur:[1]

1. ”Bölüşdürücü” yanaşma;
2. “Birləşdirici” yanaşma.

Mediasiyada danışıqlar prosesi ilə əlaqədar birinci yanaşma **”bölüşdürücü” yanaşma** adlanır. Belə yanaşma, praktiki olaraq, çəkişmə əsaslı, mövqe (pozisiya) və rəqabət əsaslı, dəyər iddia edən və ya “xaricdən-daxilə” danışıqlar kateqoriyası kimi də fərqləndirilir. Eyni zamanda, bölüşdürücü danışıqlar, sadə dildə desək, mübahisə işi üzrə danışıq aparan tərəflərin, məsələn, bazar iqtisadiyyatı münasibətləri mühitində sadə mallar və yaxud xidmətlər üçün alqı-satqı sövdələşməsi apararkən təcrübədən və ya sınaqdan keçirdiyi danışıqlar.

Mediasiyada danışıqlar prosesi ilə bağlı ikinci yanaşma isə, yuxarıda göstərdiyimiz kimi, **“birləşdirici” yanaşma** adlanır. Belə yanaşma metodu mübahisə işi üzrə problem həll edən, maraq əsaslı, əməkdaşlıq münasibətləri xarakteri daşıyan, dəyər yaradan və ya “daxildən-xaricə” danışıqlar kateqoriyası sayılır. Eyni zamanda, birləşdirici danışıqlar, bir qayda olaraq, tərəflərin danışıqlar prosesində hədəfə doğru uğurla irəliləməsi üçün, əslində, problemin həlli istiqamətində nəyə ehtiyac duyulduğunu daha dərindən qavramağı ehtiva edir.

Ona görə də, mediasiyanın hazırlıq mərhələsinin danışıqlar prosesində uğurlu nəticələrə nail olmaq məqsədilə, **adıçəkilən yanaşma metodlarının** dərindən anlaşılması və praktiki tətbiqetmə bacarığı vacib məsələdir. Belə ki, danışıqlar sahəsində qazanılmış **praktik təcrübə** mübahisə üzrə tərəflərin mediasiya masasına əyləşdikləri zaman, onların toxunulmuş məsələ üzrə bir-birləri haqqında nə düşündüklərini və nə etməyə səy göstərdiklərini başa düşməyə real zəmin yaradır. Danışıqlar sahəsində

---

[1] Bu barədə ətraflı bax: Leonardo D’Urso, Konstantin-Adi Qavrila. Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.48-49.

praktik təcrübə və onu müşayiət edən taktikalar həm də mediasiya prosesinin müxtəlif mərhələlərində mübahisə üzrə tərəflərin daha keyfiyyətli danışıqlar aparması, eləcə də bölüşdürücü danışıqlardan birləşdirici danışıqlara keçid etmələri üçün tərəflərə müvafiq köməklik göstərilməsi **mexanizminin** necə fəal işlədiyini dərk etməyə imkan verir.

Eyni zamanda, qeyd etməliyik ki, **danışıqlar prosesində motivasiya** əsas amil sayılır. **Motiv** (latınca *movere* – hərəkətə gətirmək, itələmək deməkdir) anlayışının məna yükü altında tələbatların təmin olunması ilə bağlı insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. **Motivasiya** isə özünü və başqalarını özünün şəxsi və ya ictimai məqsədlərə nail olunması üçün fəaliyyətə **vadaretmə prosesidir**. Həm də motivlə məqsədin dialektik əlaqəsi mövcuddur və bütün hallarda motivin psixoloji funksiyası eynidir: o, insanı fəaliyyətə **təhrik** edir və onun fəaliyyətinin **istiqamətlərini** müəyyənləşdirir. Göstərilən bu iki cəhət (təhriketmə və istiqamətləndirmə) bir-birilə vəhdət təşkil edir və motivin **əsas funksiyaları** kimi meydana çıxır.[1]

Motivasiya haqqında irəli sürülən sərrast nəzəriyyələrdən biri amerikalı psixoloq, humanitar psixologiyanın yaradıcısı Abraham Maslouya (ingiliscə – *Abraham Maslow*) məxsusdur. Müəllifin insan ehtiyacları iyerarxiyasını təqdim edən **"Maslou Piramidası"** diaqramı geniş yayılmışdır. Onun ehtiyacların iyerarxiya modeli iqtisadi nəzəriyyədə əhatəli şəkildə tətbiq edilir, eləcə də motivasiya və istehlakçıların davranışı barədə təlim və postulatın təşəkkül tapmasında mühüm rol oynayır.

Görkəmli alim Abraham Maslounun irəli sürdüyü adıçəkilən nəzəriyyəyə əsasən, insan ehtiyacları iyerarxiyasının **aşağı və yuxarı səviyyələri** fərqləndirilir. Göstərilən diaqramda insan

---

[1] Ətraflı bax: Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, "Çinar-Çap" nəşriyyat-poliqrafiya müəssisəsi, 2009, s.145-147.

ehtiyacları aşağı səviyyədən yuxarı səviyyəyə doğru aşağıdakı kimi təqdim edilir:[1]

– **fizioloji-psixoloji ehtiyaclar** (nəfəs almaq, qida qəbul etmək, su içmək, istirahət etmək, istilik, seks və s. bioloji tələbatlar);

– **təhlükəsizlik ehtiyacları** (orqanizmin-bədənin, peşə iş fəaliyyətinin, ehtiyatların, mənəvi əxlaqın, insan sağlamlığının qorunması və sairə fiziki təhlükəsizlik halları);

– **sevgi / mənsubiyyət ehtiyacları** (dostluq etmək, rəğbət qazanmaq, həyatı sevmək, ailə qurmaq, cinsi intimlik, eşq-sevgi yaşamaq və s. sosial tələbatlar);

– **hörmət ehtiyacları** (özünə hörmət, özünə inam, özünə güvənmək, uğur və nailiyyətlər, digərlərinə hörmət etmək, digərlərinin hörmətini qazanmaq və s.);

– **özünü reallaşdırma ehtiyacı** (əxlaq, yaradıcılıq, daxili səbəblərdən törəyən və öz-özünə əmələ gələn hallar, özünü doğrultma və dərk etmə, estetik tələbatlar, şəxsiyyətin inkişafı və s. ehtiyaclar).

Deməli, "Maslou Piramidası" sxeminə görə, insanlar daha yüksək səviyyədə təsvir edilən ehtiyacların ödənilməsindən əvvəl daha aşağı səviyyədəki ehtiyacları ödəməyə **motivasiya olunurlar**. Bu, o deməkdir ki, insanlar, xüsusilə, aşağı səviyyədəki ehtiyaclar ödənildikdən sonra bir pillə yuxarı səviyyədəki ehtiyacların ödənilməsinə motivasiya (təhrik) olunmaqla, bu prosesin **reallaşmasına** səy göstərirlər.

### 2.2.3. Danışıqlar prosesinin mərhələləri

Ümumiyyətlə, cəmiyyətdə baş verən hər bir ziddiyyət və ya konflikt insanları həmin mübahisələrin tənzimlənməsi və aradan qaldırılması haqqında daim düşünməyə vadar edir. Bu məqsədlə

[1] Bu barədə daha ətraflı bax: https://ru.wikipedia.org/wiki/ (31.07.2023-cü il).

mübahisələrin konstruktiv həlli mexanizmləri kimi **danışıqlar konstruksiyasından** geniş surətdə istifadə olunur. Danışıqlar prosesi kontekstdə onun mərhələləri haqqında aşağıdakı **ümumi qaydalar** irəli sürülür:

– danışıqlara hazırlıq mərhələsi;
– danışıqların aparılması və razılığın əldə edilməsi mərhələsi;
– danışıqların nəticələrinin təhlili və əldə olunmuş razılaşmanın şərtlərinin yerinə yetirilməsi mərhələsi.[1]

Qeyd etməliyik ki, **mediasiyada isə danışıqlar prosesi**, konkret olaraq, spesifik və xüsusi xarakter daşıyır, mahiyyət etibarilə, müəyyən özünəməxsus praktik **mərhələlərdən** və ya **fazalardan** ibarətdir. Hər bir mərhələnin konkret məqsədləri vardır və hər bir mərhələ mediatordan müxtəlif alətlərdən və ya taktikalardan istifadə etməklə qarşıda duran problemin həllinə yönəlməyi tələb edir; bununla da mediasiyanın danışıqlar prosesində **uğurun təməli** qoyulur. Belə ki, mübahisə üzrə tərəflərin könüllü olaraq, mediatorun köməyi ilə problemin həlli ilə bağlı razılığa gəlmələri üçün **danışıqlar prosesi** mühüm əhəmiyyət kəsb edir. Danışıqlar prosesinin uğurla həyata keçirilməsində mediatorlar **unikal rol** oynayırlar.

Təməl olaraq, mediator mediasiyada iştirak edən bütün tərəflərin mediasiya prosesinə **hazır olmasını** təmin etməlidir; həm də effektiv hazırlıq uğurla nəticələnən razılıq əldə edilməsi ehtimalını artıra bilər. Mediasiyanın hazırlıq mərhələsində **danışıqlar vasitəsilə** nail oluna biləcək hədəflər kimi aşağıdakıları göstərə bilərik:

– mübahisə işini və onun maraqlı tərəflərini dərindən tanımaq;
– mübahisə işi üzrə maraqların toqquşmasından yayınmaq;

---

[1] Danışıqlar prosesinin ümumi qaydaları barədə bax: məsələn, Danışıqlar və onların həyata keçirilməsi / Elşad Mirbəşiroğlu, siyasi elmlər üzrə fəlsəfə doktoru // "Dövlət idarəçiliyi", №1 (33). Bakı, 2011, s.153-157. https://elibrary.az/docs/jurnal/jrn2011_381.pdf (01.08.2023-cü il).

– mediasiyada danışıqlar prosesi zamanı etibar və inam yaratmaq;
– danışıqlar prosesində qərar qəbul edən əsas şəxslərin iştirakını təmin etmək;
– mediasiya fəaliyyəti ilə bağlı aidiyyəti qanunvericiliyə riayət etmək və s.

Xüsusilə qeyd etməliyik ki, mediasiyaya hazırlıq dövründə danışıqlar prosesi, praktiki olaraq, müəyyən **spesifik mərhələlərdən** ibarətdir və bu sırada aşağıda göstərilən **tərkib hissələri** (mərhələləri və ya fazaları) fərqləndirə bilərik: ehtiyaclar, maraqlar, danışıq strategiyası, danışıq pozisiyası, ilkin mövqe, son hədd, danışıqlar zonası, MRZ, RƏYA, RƏPA, seçimlər, alternativlər.[1]

**Ehtiyaclar –** hər hansı bir istəyin, sadəcə, arzuedilən olduğuna görə deyil, çox əhəmiyyətli və ya vacib olması səbəbindən tələb edilməsi; başqa sözlə desək, ehtiyac və öhdəliklərin ifadə olunması.

**Maraqlar –** ehtiyacların büruzə verilməsi; bu kontekstdə maddi ehtiyaclar, psixoloji ehtiyaclar və ya prosedur ehtiyacları çıxış edə bilər.

**Danışıq strategiyası –** danışıqlar prosesində qarşıda duran məqsədlərə çatmaq üçün verilməli olan bütün qərarları ehtiva edir.

**Danışıq pozisiyası –** müəyyən bir zaman kəsiyində mediasiya işi üzrə mübahisə tərəfinin bütün tələb və təkliflərinin məcmusu nəzərdə tutulur.

**İlkin mövqe –** mediasiya işi üzrə danışıqlar prosesi zamanı arzuolunan danışıq məkanının yaradılması üçün ilkin tələbin ifadə edilməsi deməkdir.

**Son hədd –** danışıqlar prosesində iştirak edən tərəfin, məsələn, alqı-satqı müqaviləsi üzrə minimum satış qiyməti barədə

---

[1] Bu barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s. 29-35.

danışıqlara artıq davam edə bilməyəcəyi müəyyən bir qiymət və ya şərt nəzərdə tutulur.

**Danışıqlar zonası –** mübahisə işi üzrə bir tərəfin ilkin mövqeyi və son həddi arasında mövcud olan zona, yəni danışıqlar sahəsi ehtiva edilir.

**MRZ –** mediasiya işində tərəflər arasında mümkün razılaşma zonası, yəni mübahisə işi üzrə tərəflərin müvafiq danışıqlar zonalarının kəsişmə sahəsi.

**RƏYA** – razılaşmaya ən yaxşı alternativ (hər bir tərəf üçün).

**RƏPA –** razılaşmaya ən pis alternativ (hər bir tərəf üçün).

**Seçimlər –** mediasiya işində mübahisə üzrə tərəflərin danışıqlar prosesi formatının "daxilində" razılıq əldə etmək üçün araşdırdığı həll imkanları deməkdir.

**Alternativlər –** mediasiya işində mübahisə üzrə tərəflərin danışıqlar prosesi formatının "xaricində" araşdırdığı, danışıqlar nəticəsində razılıq əldə edilmədiyi təqdirdə mümkün olan hallar nəzərdə tutulur.

Eyni zamanda, qeyd etməliyik ki, **Danışıqlar terminologiyasında** "Alternativlər" anlayışı "Seçimlər" anlayışının əksi kimi təsəvvür edilir. Həmçinin "Danışıq strategiyası" həyata keçirilən zaman eyni problemlərdən irəli gələn anoloji işlərin həll edilməsi vasitəsi kimi **pilot-qərar prosedurundan** da istifadə oluna bilər.[1]

Danışıqlar prosesində dəyərin iddia edilməsi **bölüşdürücü danışıqlara** xas olan əlamətdir. Belə ki, **dəyər tələb edilməsi** danışıqlar masasında fundamental elementdir. Lakin, bu, danışıqlar zamanı problemin yalnız aşkar görünən hissəsidir. Çünki bölüşdürücü danışıqlara aşağıda göstərilən **çatışmazlıqlar** xarakterikdir:

– danışıqlarda çıxılmaz vəziyyət;

---

[1] Pilot-qərar proseduru barədə ətraflı bax: məsələn, Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı, AZSEA nəşriyyatı, 2012, s.138-139.

– danışıqlar nəticəsində qeyri-rasional razılaşmalar;
– qeyri-effektiv danışıqlar prosesi;
– danışıqlar zamanı münasibətlərə xələl gəlməsi;
– "zəif" tərəfin daha çox istismar edilə bilməsi;
– yalnız "səthi məsələlərə" toxunduğu üçün prosesin qısa olması və s.

Buna görə də danışıqlarda **dəyər yaradılması** üçün prinsiplərə əsaslanan effektiv danışıqlardan, yəni **birləşdirici danışıqlardan** istifadə edilməsi daha uğurlu variantdır. Birləşdirici danışıqlar aşağıda sadalanan **prinsiplər** əsasında həyata keçirilir:

– mübahisə problemi ilə bağlı müxtəlif insanlarla danışıqların aparılması (mahiyyət, proses, münasibət üzrə danışıqlar; dolaşıqlıqdan çəkinmə; əsas bacarıq kimi – *dinləmə*);

– danışıqlar aparan tərəflərin mövqeləri deyil, maraqları üzərində fokuslanmaq (mövqelər dedikdə təkliflər, tələblər və iddialar başa düşülür; maraqlar isə mövqelərin əsasında duran istək və ehtiyacları ehtiva edir; maraq əsaslı danışıqlar uğurlu razılaşma əldə edilməsini asanlaşdırır və dəyər yaradır; burada əsas bacarıq tərəflərə müvafiq *sual verməkdən* ibarətdir);

– qarşılıqlı fayda əldə edilməsi üçün müxtəlif seçimlərin yaradılması (razılıq əldə edilməsinin müxtəlif yolları; danışıqlar prosesindən əvvəl və proses ərzində yaradıcı olmaq; əsas bacarıq *kəşf etməkdən* ibarətdir);

– prinsiplərə əsaslanan danışıqlar sessiyasının nəticələrinin obyektiv meyarlar üzərində qurulması (obyektiv meyarlar qarşılıqlı şəkildə razılaşdırılmış, legitim və praktik olur; mahiyyətə, məsələn, ədalətli bazar dəyərinə və prosesə, məsələn, növbələşməyə tətbiq olunur; danışıqları aparan şəxsin legitimliyini və gücünü artırır; əsas bacarıq kimi *istinad etmək* nəzərdə tutulur).

Mediasiyada **araşdırma xarakterli danışıqlar prosesində**, bir qayda olaraq, aşağıdakı prinsiplər tətbiq edilir: məsələn, problemin yalnız nə olduğunu soruşmamaq, onun səbəbini soruşmaq lazımdır; mübahisə üzrə tələbləri deyil, maraqları uzlaşdırmağa səy göstərmək; mübahisədə ortaq olmayan müttəfiqlər

üçün ortaq fikir yaradılması; danışıqlar prosesi zamanı irəli sürülən tələblərin fürsət olaraq qiymətləndirilməsi; mübahisə üzrə "tərəflərin problemi olaraq" heç bir məsələnin üzərindən keçməmək və s.

Mübahisə işi üzrə dəyər yaradılması üçün **hazırlıq strategiyaları** kimi aşağıdakıları fərqləndirə bilərik:

1) özünəməxsus çoxsaylı maraqların müəyyən edilməsi;
2) mübahisə işi üzrə qiymətləndirmə sisteminin yaradılması;
3) təkliflər paketi üzrə son həddin müəyyənləşdirilməsi;
4) digər tərəfin çoxsaylı maraqlarının müəyyən edilməsi və s.

## 2.3. Mediasiya zamanı danışıqlar prosesinin əsas ideyaları

### 2.3.1. Danışıqlar prosesində tətbiq edilən prinsiplərin əhəmiyyəti

Məlum olduğu kimi, hüququn mahiyyətini və sosial məqsədini ifadə edən əsas başlanğıc müddəalar (ideyalar) **hüququn prinsipləri** adlanır. Hüququn ictimai münasibətlərə göstərdiyi təsirin əsas istiqamətlərinə isə **hüququn funksiyaları** deyilir.[1]

Digər sahələrdə olduğu kimi, mediasiyada da danışıqlar prosesinin uğurla həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətlərin tənzimlənməsində hüququn tətbiq edilən prinsipləri və funksiyaları **vacib əhəmiyyət** kəsb edir. Belə ki, mediasiyada danışıqlar konkret mübahisə məsələsi üzrə qarşılıqlı hüquqi razılığa gəlmək üçün tərəflər arasında müvafiq **prinsiplər əsasında** aparılan müzakirə prosesidir. Mediasiya işi üzrə aparılan danışıqlar prosesi zamanı, adətən, hər bir tərəf qarşı tərəfi öz istəyinə razı salmağa çalışır. Bəzi hallarda mübahisə tərəflərindən biri digər tərəfə, necə deyərlər, möhtac olduğundan,

---

[1] Ətraflı bax: məsələn, Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: «Hüquq Yayın Evi», 2018, s.130-131; Марченко М.Н. Теория государства и права: учебник. – 2-е изд., перераб. и доп. – Москва: Проспект, 2011, с.551-552 və s.

yəni başqa seçimi olmadığından və ya digər **obyektiv səbəblərdən** qarşı tərəflə razılaşmaq məcburiyyətində qalır. Belə arqumentlər nəticəsində əldə edilmiş razılaşma əksər hallarda mübahisə tərəflərindən biri üçün **faydalı** və **ağlabatan** olmur. Mübahisə edən tərəflərdən birini qarşı tərəfin tələb və şərtləri ilə barışığa gəlməyə məcbur edəcək səbəblər olmadıqda isə, hər bir tərəf öz pozisiyasını müdafiə edərək, tutduğu mövqeyinə daha sıx bağlı olur və onların mövqeləri qütbləşərək bir-birindən uzaqlaşır. Bu formatda olan danışıqlara, adətən, **"mövqe danışıqları"** deyilir.

Eyni zamanda, bəzi insanlar eyni **hüquqi müstəvidə** mövqe tutsalar da, belə situasiyada real gücə və qarşı tərəf üzərində nisbi üstünlüyə (məsələn, iqtisadi mövqe, məhkəmə perspektivi və s.) malik olmadan razılığa gəlməyin mümkün olmadığını düşünürlər. Bu kimi yarana biləcək situasiyaların, eləcə də mübahisə üzrə tərəflərin öz mövqelərinə qapanaraq bir-birlərindən uzaqlaşması hallarının qarşısının alınması üçün Harvard Universitetinin professorları Roger Fişer və Vilyam Uri tərəfindən **"prinsiplərə əsaslanan danışıqlar" modeli** təklif edilmişdir.[1]

Ona görə də, mediatorlar, adətən, bu modelə üstünlük verərək, mübahisə edən tərəfləri mövqelərə əsaslanan deyil, maraqlara əsaslanan danışıqlar prosesinə yönəltməyə çalışırlar və belə danışıqların aparılmasında tərəflərə zəruri köməklik göstərirlər.

### 2.3.2. Danışıqlar prosesinin əsas prinsipləri

Qeyd etməliyik ki, prinsiplərə əsaslanan **danışıqlar metoduna** əsasən, mübahisə üzrə tərəflər qarşı tərəflə öz mövqelərindən çıxış edərək mübarizə aparmırlar, onlar hər iki tərəfin maraqları nəzərə alınmaqla müvafiq prinsiplərdən ibarət bir yanaşma izləyirlər. Bu **əsas prinsiplər sistemi** aşağıdakı komponentlərdən ibarətdir:

---

[1] Toxunulmuş məsələ barədə ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.70-76.

– şəxslərin problemdən ayrılması;
– maraqlara fokuslanmaq;
– yeni barışıq imkanları aşkarlamaq;
– obyektiv kriteriyalardan istifadə etmək.

İndi isə danışıqlar prosesinin yuxarıda sadalanan əsas prinsiplərinin mahiyyəti və məzmunu haqqında **qısaca məlumat** təqdim edək.

**Şəxslərin problemdən ayrılması** dedikdə mediasiya işi üzrə tərəflərin mübahisə problemindən ayrı saxlanılması başa düşülür. Bu, o deməkdir ki, problemə hər iki tərəfin ümumi problemi kimi baxılması uğurlu danışıqlar üçün vacib təməldir. Ona görə də mediasiya probleminə **konstruktiv yanaşma** tələb olunur.

Mediasiyada tərəflərin mübahisə problemini həm də **vizual olaraq** qarşı tərəfdən ayırmaq lazımdır. Bu, onu ifadə edir ki, mübahisə tərəfi digər tərəfi qarşısında deyil, öz yanında hiss etməyə, problemi isə hər iki tərəfin qarşısında görməyə çalışmalıdır.

Deməli, şəxslərin problemdən ayrılması mübahisə işi üzrə tərəflər arasında mediasiya probleminin həll edilməsində onların **əməkdaşlıq etməsinə** müvafiq imkan yaradır. Əgər mediasiya problemi qarşıdakı tərəfdən ayrılmasa, onda problem və qarşıdakı tərəf eyniləşdirilir, bu hal, bir qayda olaraq, tərəflər arasında "mövqe danışıqları"nın aparılması ilə nəticələnir. **Mövqe danışıqları** formatında isə, mübahisə işi üzrə tərəflərin yalnız tutduqları pozisiyaları və öz mövqelərindən çıxış etdikləri danışıqlar nəzərdə tutulur. Bəs, problemin şəxsdən ayrılması üçün nə etməli?

Hesab edirik ki, bu məqsədə çatmaq üçün mediasiya işində qarşı tərəflə qarşıdurma halından yayınmaq və qarşı tərəfə **diqqətlə qulaq asmaq** lazımdır. Qarşı tərəfə qulaq asmaqla onun, yəni qarşı tərəfin nə istədiyini, habelə tələb, təklif və iradının **əsl mahiyyətini tam anlamaq** mümkündür. Bu zaman qarşı tərəfin söylədikləri, adətən, nəzərdə saxlanılır və problemin, eləcə də

qarşı tərəfin istək və iddialarının nədən ibarər olduğu müəyyən edilir, qarşı tərəfə münasibətdə etibar və inam yaranır.

Danışıqlar prosesinin növbəti əsas prinsipi **maraqlara fokuslanmaq** adlanır. Mediasiyada mübahisə işi üzrə qarşı tərəfin tələb və iddialarını tam anladıqdan sonra daha vacib bir mərhələ başlayır. Göstərilən mərhələdə həmin tərəfin əsl maraqlarının nədən ibarət olduğunu aşkarlamaq, başqa sözlə, qarşı tərəfin tələb və istəklərinə səbəb olan **əsl maraqları** müəyyən etmək lazımdır. Bu zaman danışıqlar prosesinin səmərəliliyini artırmaq məqsədi ilə, maraqları ehtimal edən qənaətə gəlməmişdən əvvəl onu, "axı niyə" sualı verməklə, **mütləq dəqiqləşdirmək** vacib məsələdir. Eyni zamanda, mübahisə işi üzrə qarşı tərəfdə inam və etimad yaratmaq və onun şəxsi maraqlarını açıqlaması mövqeyini təşviq etmək üçün maraqlarınızı və ya digər aidiyyəti informasiyaları qanunvericiliklə yol verilən formatda **qarşı tərəflə paylaşmaq** da faydalı ola bilər.

**Yeni barışıq imkanları aşkarlamaq** danışıqlar prosesinin əsas prinsiplərindən biridir. Mediasiyada mübahisə işi üzrə tərəflərin maraqları müəyyənləşdirildikdən sonra həmin **maraqların necə təmin** ediləcəyi barədə imkanlar araşdırılaraq nəzərdən keçirilir. Belə ki, mübahisə işi üzrə tərəflər onların tələbləri deyil, maraqları təmin edildiyi təqdirdə **qarşılıqlı razılığa** asanlıqla gələ bilərlər. Mübahisə işi üzrə barışıq imkanlarını aşkarlamaq üçün tərəflərin maraqları nəzərdən keçirilir, onların necə və hansı halda uzlaşdırıla biləcəyi müəyyən olunur. Bu zaman tələblər danışıqlar müstəvisindən kənarda saxlanılaraq, mübahisə üzrə tərəfləri daha nələrin maraqlandıra biləcəyi **məqamlar** müəyyən edilir.

Göstərilən məqsədə nail olmaq üçün əldə edilən **informasiyalar** hərtərəfli təhlil edilir və yaradıcı yanaşma sərgilənərək, yalnız qarşı tərəfin tələbləri ilə məhdudlaşmır. Bəzən, qarşı tərəfə tələb etmədiyi hər hansı bir güzəşt etməklə, ondan iş üzrə problemin həlli üçün lazım olan **güzəşt əldə edilə** bilər. Eyni

zamanda, əgər iş üzrə bir neçə tələb varsa və bununla bağlı danışıqlar bir neçə istiqamətdə aparılarsa, onda irəli sürülən bu tələblərin **birlikdə müzakirə** edilməsi əksər hallarda daha məqsədəuyğun sayılır. Təbii ki, belə halda hər hansı bir tələbdə güzəştə getməklə, digər tələbə münasibətdə əlavə **fayda əldə etmək** mümkündür.

Danışıqlar prosesinin əsas prinsiplərindən digəri isə **obyektiv kriteriyalardan istifadə etmək** prinsipi sayılır. Bəzən, mübahisə işində tərəflərin maraqları müəyyən edilsə də, onlar tərəfindən barışıq razılaşması üzrə layihənin **ədalətli qərar** kimi qəbul olunması üçün müəyyən obyektiv kriteriyalara istinad edilməsinə zərurət yaranır. Belə obyektiv kriteriyalar bütövlükdə danışıqlar prosesinə və ya ümumiyyətlə danışıqların mahiyyətinə də tətbiq edilir.[1] Bu cür obyektiv kriteriyalar kimi məhsulların faktiki bazar qiyməti, işgüzar adətlər, bank faizləri, uçot dərəcəsi, hüquq, adət-ənənə, din, əxlaq və s. **parametr göstəriciləri** çıxış edir.

Eyni zamanda, qeyd etməliyik ki, bir sıra hallarda mediasiyada danışıqlar prosesində üstünlüyə malik olan tərəf özünəməxsus **standart şərtlər** müəyyənləşdirərək, bu şərtlərə düzəliş və dəyişikliklərin edilməsi ilə bağlı qarşı tərəflə müvafiq **danışıqlar aparılmasını** arzulamır.

Yuxarıda göstərilən yanaşma və prinsiplər əksər mübahisə tərəfləri üçün qeyri-praktik kateqoriya kimi görünə bilər. Lakin, təcrübədə belə effektiv və səmərəli yanaşmanın müşahidə edilməsi və **elmi-nəzəri bazis** kimi əsas prinsiplərdən istifadə olunması əksər hallarda öz müsbət nəticəsini verir.

[1] Ətraflı bax: Şeref Malkoç. Kamu Denetçiliği Kurumu (ombudsmanlik). İyi yönetim ilkeleri rehberi. Ankara/Çankaya, İleri Basım Mat.Amb.Reklam Tanıtım Yay. Ve Teknik Hiz.Tic. A.Ş., 2020, 147 s.

### 2.3.3. Mediasiya prosesinin hüquqi nəticələri

Qeyd etməliyik ki, mübahisə işi üzrə mediasiya prosesinin başlanması müəyyən **hüquqi nəticələrin yaranmasına** səbəb olur. Belə hüquqi nəticələrə iddia müddətlərinin axımının dayandırılması və konfidensiallıq tələblərinin başlanması halları aiddir.

Belə ki, mediasiya haqqında qanunvericilikdə təsbit olunduğu kimi (MHQ, maddə 35), mediasiya prosesinin tətbiqi tərəflər arasında mübahisə üzrə qanunla nəzərdə tutulan **iddia müddətinin axımının dayandırılmasına** səbəb olur.[1] Həmçinin mülki qanunvericilikdə (MM, maddə 379) iddia müddətlərinin axımının dayandırılması ilə bağlı xüsusi qaydalar müəyyən edilmişdir. MM-də göstərilir ki, iddia müddətinin axımı **aşağıdakı hallarda dayandırılır**:

– iddianın irəli sürülməsinə fövqəladə və həmin şəraitdə qarşısı alına bilməyən hal (qarşısıalınmaz qüvvə) mane olduqda;

– iddiaçı və ya cavabdeh hərbi vəziyyətə keçirilmiş silahlı qüvvələrin tərkibində olduqda;

– müvafiq icra hakimiyyəti orqanı öhdəliklərin icrası üçün möhlət (moratorium) müəyyənləşdirdikdə;

– fəaliyyət qabiliyyəti olmayan şəxsin qanuni təmsilçisi olmadıqda;

– müvafiq münasibəti tənzimləyən qanunun və ya digər normativ hüquqi aktın qüvvəsi dayandırıldıqda;

– tərəflər arasında yaranmış mübahisə üzrə mediasiya prosesi tətbiq edildikdə;

– iddia müddətinin axımı bir şərtlə dayandırılır ki, bu Məcəllədə göstərilmiş hallar iddia müddətinin son altı ayında, həmin müddət altı aya bərabər və ya altı aydan az olduqda isə iddia

---

[1] Ətraflı bax: “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, “Hüquq Yayın Evi”, 2019, maddə 35, s.30.

müddəti ərzində əmələ gəlsin və ya mövcud olmaqda davam etsin;

– müddətin dayandırılmasına əsas vermiş halın sona çatdığı gündən müddətin axımı davam edir. Müddətin qalan hissəsi altı aya qədər uzadılır, iddia müddəti altı aya bərabər və ya altı aydan az olduqda isə iddia müddətinə qədər uzadılır;

– mediasiya prosesinin tətbiqi ilə əlaqədar dayandırılmış iddia müddətinin axımı "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tarixdən davam edir;

– əgər tələbi qanuni təmsilçisi olmayan məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan şəxs irəli sürürsə, iddia müddəti həmin şəxs tam fəaliyyət qabiliyyətli olanadək və ya onun üçün təmsilçi təyin edilənədək dayandırılmış sayılır;

– nikahın mövcud olduğu dövrdə ərlə arvad arasındakı tələblər üzrə iddia müddətinin axımı dayandırılır və s.[1]

Eyni zamanda, mülki qanunvericilikdə **iddia müddətinə** anlayış da verilmişdir (MM, maddə 372). Belə ki, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Hüququ pozulmuş şəxsin iddiası ilə hüququn müdafiəsi üçün müddət iddia müddəti sayılır. Deməli, iddia müddəti dedikdə hüququ pozulmuş şəxsin öz pozulmuş hüquqlarını müdafiə etməsi, yəni digər şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etməsi üçün qanunvericiliklə müəyyən edilmiş **maksimal müddət** başa düşülür.

Eyni zamanda, qeyd etməliyik ki, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, **iddia müddətləri** və onların **hesablanması qaydası**, eləcə də iddia müddətləri axımının dayandırılması və kəsilməsi əsasları MM ilə müəyyənləşdirilir (maddə 374). Lakin **iddia müddətinin tətbiqi** barədə ayrıca qaydalar müəyyənləşdirilmişdir. Belə ki, hüququn müdafiəsi haqqında

---

[1] Bu barədə ətraflı bax: Azərbaycan Respublikasının Mülki Məcəlləsi / Naşir: Bəhruz Cəbrayıl oğlu Kərimli, hüquq üzrə fəlsəfə doktoru. Bakı: «Hüquq Yayın Evi», 2016, s.271-272.

tələb iddia müddətinin keçməsindən asılı olmayaraq, məhkəmə tərəfindən baxılmağa qəbul edilir. Məhkəmə tərəfindən iddia müddəti yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır (MM, maddə 375).

Mübahisə işi üzrə mediasiya prosesinin başlanması ilə mediator, tərəflər və mediasiyada iştirak edən digər şəxslər üçün **konfidensiallıq prinsipi əsasında müəyyən öhdəlik** yaranır. Bu, o deməkdir ki, mübahisə tərəfləri arasında ayrı şərt müəyyən edilmədikdə, eləcə də barışıq sazişinin təsdiqi və icrası məqsədilə tələb olunan hallar istisna olmaqla, mediasiya zamanı əldə olunan bütün məlumatların, o cümlədən tərəflərdən birinin mediasiyanın həyata keçirilməsi barədə təşəbbüsü, mediasiyaya və mübahisənin mümkün həll variantına razılıq verməsi, tərəflərdən birinin və ya mediatorun mübahisənin mümkün həllinə dair rəy və ya təklifləri, mediasiya zamanı tərəflərdən birinin verdiyi bəyanatları və ya etdiyi etirafları, mediasiyanın həyata keçirilməsi məqsədi ilə tərtib olunmuş sənədlər və s. barədə **məlumatların konfidensiallığı** mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər **şəxslər tərəfindən** qorunur. Həmçinin mediasiya iştirakçılarının və mediasiyada iştirak edən digər şəxslərin onlara mediasiya zamanı məlum olan məlumatları məhkəmə və arbitraj (münsiflər məhkəməsi) proseslərində, başqa mediasiya zamanı və ya hər hansı digər hallarda açıqlamaq və ya onlara istinad etmək **hüququ yoxdur** və belə məlumatlarla bağlı həmin şəxslər şahid qismində iştirak edə bilməzlər (MHQ, maddə 8).[1]

Yuxarıda şərh olunanları diqqətə çəkərək, qeyd edə bilərik ki, mediasiya prosesinin başlanma və bitmə anlarının müəyyən

---

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.6-7.

edilməsi **hüquqi nəticələrə səbəb olmaqla, xüsusi əhəmiyyət** kəsb edən mühüm məsələdir. Belə ki, mövcud qanunvericiliyə görə, mediasiya prosesi aşağıda göstərilən **andan başlanmış** sayılır (MHQ, maddə 21.5):

– mediasiya prosesinin tətbiqi barədə tərəflərdən birinin digər tərəfə qanunvericiliklə müəyyən edilmiş təklifi göndərdiyi andan;

– belə təklif olmadıqda qanunvericiliklə nəzərdə tutulmuş hallarda hər iki tərəfin ilkin mediasiya sessiyasında iştirak etdiyi andan;

– digər hallarda isə mediasiya qanunvericiliyinə uyğun olaraq, mediasiya prosesinin tətbiqi barədə müqavilə bağlandığı andan.

İndi isə **mediasiya prosesinin bitdiyi anı,** yəni ona xitam verilməsi anını müəyyən etmək vacibdir. Belə ki, mediasiya haqqında qanunvericiliyə əsasən, mediasiya prosesinə, faktiki olaraq, aşağıdakı hallarda **xitam verilir**:

– mediasiya prosesinə avtomatik qaydada xitam verilməsi;

– qanunvericiliyə uyğun şəkildə mediasiya prosesinə xitam verilməsi;

– mübahisə tərəfləri arasında yazılı formada barışıq sazişinin imzalanması.

İlk növbədə qeyd etməliyik ki, **mediasiya prosesinə avtomatik qaydada xitam verilməsi**, mahiyyət etibarilə, mediasiya prosesinin bitdiyi anı ifadə edir. Belə ki, könüllü mediasiya zamanı mübahisə işinin həlli istiqamətində göndərilmiş müvafiq mediasiya təklifinə 10 gün ərzində cavab verilmədikdə və yaxud həmin təklif 10 gün ərzində hər hansı formada rədd edildikdə mediasiya prosesinə avtomatik xitam verilir (MHQ, maddə 21.7).

Mediasiya prosesinin bitdiyi anı bildirən məqamlardan biri də **qanunvericiliyə uyğun şəkildə mediasiya prosesinə xitam verilməsi** halıdır. Belə ki, mübahisə üzrə işi araşdıran mediator

tərəfindən aşağıda göstərilən hallarda aidiyyəti protokol ("Mediasiya prosesinə xitam verilməsi haqqında" Protokol) və ya müvafiq arayış ("İlkin mediasiya sessiyasında iştirak edilməməsi " ilə bağlı Arayış, yaxud "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı Arayış) tərtib edildiyi andan **mediasiya prosesi başa çatmış sayılır**, yəni mediasiya prosesinə xitam verilir:

– mübahisə işi üzrə tərəflər və ya onlardan biri mediasiya prosesindən imtina etdikdə;

– mübahisənin tərəflərin qarşılıqlı razılaşması ilə həllinin mümkünsüzlüyü mediator tərəfindən müəyyən edildikdə;

– tərəflərin mediasiya prosesinin müddətinin uzadılmasına dair müraciətləri olmamışsa, mediasiya prosesinin 30 günlük müddəti bitdikdə;

– mübahisə tərəfi olan fiziki şəxs vəfat etdikdə, hüquqi şəxs isə ləğv edildikdə və ya onun fəaliyyəti dayandırıldıqda;

– mübahisə üzrə tərəflərdən biri məhkəmə tərəfindən ölmüş elan edildikdə və ya itkin düşmüş hesab edildikdə;

– mübahisə tərəflərindən birinin fəaliyyət qabiliyyətli olmaması və ya məhdud fəaliyyət qabiliyyətliliyi məhkəmə tərəfindən müəyyən edildikdə;

– mediator və ya mediasiya təşkilatı Mediasiya Şurasının üzvlüyündən çıxarıldıqda, həmçinin mediator və ya mediasiya təşkilatı mediasiya prosesindən imtina etdikdə;

– mediasiya barədə qeyd-şərt və mediator (mediasiya təşkilatı) barədə razılaşma olduqda və tərəflərdən biri mediasiya sessiyasında iştirak etmədikdə;

– məcburi mediasiya zamanı tərəflərdən biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə;

– məcburi mediasiya zamanı ilkin mediasiya sessiyasından sonra mediasiya prosesi davam etdirilə bilmədikdə (MHQ, maddə 32).

Eyni zamanda, qeyd etməliyik ki, mediasiya prosesi mediasiya haqqında qanunvericiliyə əsasən, müvafiq qaydada **bərpa oluna bilər** (MHQ, maddə 21).

Mübahisə tərəfləri arasında yazılı formada barışıq sazişinin imzalanması mediasiya prosesinin **bitməsi anını ifadə edən** hallardan digəridir. Belə ki, mübahisə edən tərəflər barışıq sazişi imzaladıqda, saziş imzalanan andan mediasiya prosesi başa çatmış, yəni proses bitmiş sayılır. Barışıq sazişinin forması, məzmunu və icrasına dair müddəalar mediasiya haqqında qanunvericilikdə təsbit olunmuşdur.

**Barışıq sazişi** tərəflər arasında **yazılı müqavilə** formasında bağlanır və bu sənəddə aşağıdakı **məlumatlar** göstərilir (MHQ, maddə 21):

– müqavilənin tarixi və tərtib olunduğu yer;

– müqavilənin tərəfləri haqqında məlumat;

– mübahisənin predmeti;

– mediator (mediatorlar) və mediasiya prosesi mediasiya təşkilatı vasitəsilə həyata keçirildikdə mediasiya təşkilatı haqqında məlumatlar;

– mübahisənin həlli istiqamətində tərəflərin qəbul etdiyi şərtlər, həmin şərtlərin yerinə yetirilməsinin üsul və müddətləri;

– barışıq sazişində müəyyənləşdirilmiş şərtlərin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri;

– Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Mediasiya haqqında Qanuna və digər normativ hüquqi aktlara uyğun olaraq başqa şərtlər.

Barışıq sazişinin nüsxələri tərəflərin və təqdim ediləcəyi orqanların (qurumların) sayına uyğun olaraq **tərtib olunur** və mübahisə tərəfləri və mediator (mediatorlar) tərəfindən **imzalanır.** Eyni zamanda, barışıq sazişi qanunvericiliyin müddəalarına zidd olmamalıdır. Barışıq sazişi imzalandığı gündə tərəflərə təqdim edilməlidir. Barışıq sazişinin müvafiq orqana (quruma) təqdim edilməli olan nüsxəsini tərəflərdən biri həmin nüsxənin ona

təqdim edildiyi tarixdən **1 iş günü** müddətində müvafiq orqana (quruma) təqdim edir.

**Barışıq sazişinin icrası** da qanunvericiliklə müəyyən edilmiş xüsusi qaydada tənzimlənir (MHQ, maddə 34). Belə ki, barışıq sazişi, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün məcburi xarakter daşıyır. Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilməyibsə barışıq sazişi imzalandığı gündən 10 gün müddətində **könüllü şəkildə** icra olunmalıdır.

Barışıq sazişinin könüllü icrasından boyun qaçırma halı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq barışıq sazişində müəyyən edilən **məsuliyyət** yaradır. Əgər barışıq sazişinin könüllü icrasından imtina olunarsa, onda tərəf, o cümlədən məhkəmə baxışında olan işlər üzrə tərəf barışıq sazişinin məcburi icrası üçün **məhkəməyə** müraciət edə bilər. Həmçinin barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada təsdiq olunur; barışıq sazişi qanunvericiliyin tələblərinə zidd olduqda isə, onun təsdiq edilməsindən **imtina** edilir.

Beləliklə, şərh olunanları ümumiləşdirərək, qeyd edə bilərik ki, mediasiya prosesinin tətbiqi məqsədi ilə hazırlıq mərhələsinin həyata keçirilməsi zamanı əmələ gələn ictimai münasibətlər müvafiq mediasiya-hüquq normaları ilə tənzimlənir. Belə hüquq normalarının məcmusu və bazası əsasında mediasiya hüquq institutunun **xüsusi hissəsinin** tərkibində **mediasiya prosesinə hazırlıq subinstitutu** adlı hüquqi qurum formalaşmışdır.

# III FƏSİL. MEDİASİYA PROSESİ

## 3.1. Mediasiya prosesində sessiyalar

### 3.1.1. Mediasiya prosesinin həyata keçirilmə qaydası və birgə sessiya

**Prosedura**

Hər şeydən əvvəl qeyd etməliyik ki, **mediasiya prosesinin həyata keçirilməsi qaydaları** mediasiya haqqında qanunvericiliklə tənzimlənir. Belə ki, mediasiya prosesi "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununa (2019-cu il), Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 384 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediatorların peşəkar etik davranış qaydası"na, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"na, Mediasiya Şurasının 15.04.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Mediatorların davranışı ilə bağlı Reqlament"ə, mediasiya təşkilatının daxili nizamnamə qaydasına və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirilir.[1]

Mediasiya prosesində **mediator** mübahisə edən bütün tərəflərlə birlikdə (ümümi iclas formasında) və ya onlarla ayrı-ayrılıqda (təkbətək iclaslar formasında) müvafiq görüşlər keçirir, əməkdaşlıq edir, zəruri olan şifahi və yazılı **tövsiyələr verir**. Mediasiya prosesi zamanı mediator tərəflərdən birini üstün mövqeyə qoyan və ya hüquq və vəzifələrini məhdudlaşdıran hərəkətlərə **yol verə bilməz.**

Eyni zamanda, **mübahisə üzrə tərəflər** mediasiya qanunvericiliyində təsbit edilmiş müddəalar (MHQ, maddə 28 və 29) nəzərə alınmaqla, mediasiya prosesinin istənilən anında **mediasiyadan imtina** edə bilərlər. Tərəflərin mediasiya prosesində

---

[1] Toxunulmuş məsələ barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, maddə 24, s.22.

**bilavasitə** və ya **nümayəndələr vasitəsi** ilə iştirak etmələri mümkündür. Bu, o deməkdir ki, tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Mübahisə üzrə tərəflərin razılaşması ilə mediasiya prosesində **digər şəxslər** də iştirak edə bilər.

**Mübahisə edən tərəflər** mediasiya prosesində öz mövqelərinə və mübahisənin həlli şərtlərinə dair müvafiq **təkliflərini** yazılı və ya şifahi şəkildə bildirirlər. Mediasiya prosesində tərəflər mübahisənin həlli şərtlərinə dair **razılığa** da gələ bilərlər. Həmçinin mediasiya prosesinin istənilən mərhələsində mediator mübahisənin həlli məqsədi ilə tərəflər üçün öhdəlik nəzərdə tutmayan şifahi və ya yazılı təkliflər irəli sürə bilər. Lakin **barışıq təklifi** tərəflərin razılığı ilə verilir.

Qeyd etməliyik ki, mediasiya qanunvericiliyinə əsasən, mediasiya prosesinin **ümumi müddəti** 30 gündən artıq olmayaraq davam edə bilər. Mübahisənin mürəkkəbliyi nəzərə alınaraq, tərəflərin razılaşması ilə mediasiya prosesinin müddəti daha 30 gün müddətinə qədər **uzadıla bilər** (MHQ, maddə 24.7). Mediasiya prosesinin keçirilməsinin **konkret müddəti**, ümumi müddət nəzərə alınmaqla, "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə" ilə müəyyən olunur.

Mediasiya hüququnun nizamasalma predmetinə daxil olan mediasiya münasibətlərinin xarakterindən asılı olaraq, müvafiq mübahisələrin **mediasiya prosesi vasitəsilə tənzimlənməsi** müəyyən xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərlə bağlı müddəalar mediasiya haqqında qanunvericilikdə müvafiq yer almışdır. Belə ki, məsələn, **mülki işlər və kommersiya mübahisələri üzrə mediasiyanın xüsusiyyətləri** aşağıdakılardan ibarətdir:

– mübahisə edən tərəflərin qarşılıqlı razılaşması ilə həlli mümkün olan istənilən mülki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla) mediasiya vasitəsilə həll oluna bilər;

– istehlakçıların hüquqlarının müdafiəsi sahəsində mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydasını müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidenti) müəyyən etdiyi orqan (qurum) – Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir (MHQ, maddə 25).

**Ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın da özünəməxsus xüsusiyyətləri** vardır. Belə ki, ailə münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr MHQ-yə uyğun olaraq, **mediasiya vasitəsilə** həll oluna bilər (MHQ, maddə 26):

– nikahın davam etdirilməsi şərtləri;
– valideynlik hüquq və vəzifələrinin həyata keçirilməsi qaydası;
– uşağın yaşayış yerinin müəyyən edilməsi;
– uşağın və əmək qabiliyyəti olmayan digər şəxslərin (ailə üzvlərinin) saxlanılması qaydası;
– ailə münasibətlərindən irəli gələn və ya yaranan digər mübahisələr.[1]

Eyni zamanda, nikah müqaviləsinə mediasiyaya dair **müvafiq şərtlər** də daxil edilə bilər. **Uşağın maraqlarına toxunan** ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə mediator müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Prezidenti) müəyyən etdiyi orqanın (qurumun) **rəyini alır**. Burada söhbət yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarından gedir.

Lakin, əgər ailə münasibətlərindən irəli gələn mübahisələr zamanı uşağın normal böyüməsinə və inkişafına təhlükə yaradan, yaxud onun maraqlarına zərər vura bilən **hallar mövcuddursa** və ya belə halların yaranma **ehtimalı olarsa**, onda mediator bu barədə müvafiq yerli icra hakimiyyətlərinin qəyyumluq

[1] Ailə mühitinin sosial-psixoloji xüsusiyyətləri barədə bax: məsələn, Mirzəyev İ.Ə. Ailənin praktik psixologiyası.Dərs vəsaiti. Bakı,”Adiloğlu” nəşriyyatı, 2005, 312 s.

və himayə orqanlarına məlumat verməyə borcludur və mediator göstərilən işlər üzrə mediasiya prosesinin həyata keçirilməsindən **imtina** edə bilər. Bununla yanaşı, mediator uşağın böyüməsinə, inkişafına və digər maraqlarına toxunan **barışıq sazişini** müvafiq yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına **təqdim etməyə** borcludur.

Eyni zamanda, qeyd etməliyik ki, **ailə münasibətlərindən** irəli gələn mübahisələr üzrə "Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 383 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri** barədə qeyd edirik ki, əmək münasibətlərindən irəli gələn aşağıdakı mübahisələr mediasiya haqqında qanunvericiliklə nəzərdə tutulmuş qaydada mediasiya prosesi vasitəsilə həll oluna bilər (MHQ, maddə 27):

– fərdi əmək mübahisələri;

– kollektiv əmək mübahisələri.

**Əmək münasibətlərindən** irəli gələn mübahisələr üzrə mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim qaydası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 383 nömrəli Qərarı ilə təsdiq edilmiş normativ hüquqi aktla tənzimlənir.

Digər istiqamətdə, yəni **inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə mediasiyanın xüsusiyyətləri** də xüsusi maraq doğurur. Belə ki, "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa (İİQ, 2005-ci il)[1] uyğun olaraq, **inzibati orqanlar** tərəfindən inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi, yaxud inzibati orqanın digər hərəkət və ya hərəkətsizliyindən irəli gələn mübahisələr mediasiya haqqında qanunvericiliyə uyğun olaraq, mediasiya vasitəsilə həll edilə bilər (MHQ, maddə 30).

---

[1] Ətraflı bax: "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2016, 52 s.

Lakin, “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 4.3-cü maddəsində nəzərdə tutulmuş mübahisələr, o cümlədən “Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq inzibati ərazi vahidləri arasında ərazi məsələləri ilə bağlı mübahisələr **istisna təşkil edir.** Belə ki, inzibati orqanlar arasında aidiyyət və ya səlahiyyətlərlə bağlı mübahisələr müəyyən olunmuş qaydada **subordinasiya** baxımından, yuxarı inzibati orqan və ya müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən yaradılmış komissiya tərəfindən həll edilir. İnzibati orqanlar arasında **aidiyyət və səlahiyyətlə bağlı mübahisələrin** həlli qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur (İİQ, maddə 4.3).

Həmçinin, qeyd etməliyik ki, **Ələt azad iqtisadi zonasında** mediasiya sahəsində yaranan münasibətlər mediasiya haqqında qanunvericiliyə əsasən, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun (2018-ci il) tələblərinə uyğun olaraq tənzimlənir (MHQ, maddə 2.2).

**Məhkəmə mediasiya prosesinin** həyata keçirilməsi ilə bağlı yaranan münasibətlər də mediasiya haqqında qanunvericiliklə nizama salınır (MHQ, maddə 31). Belə ki, məhkəmə işin hallarını nəzərə alaraq, məhkəmə prosesinin istənilən mərhələsində öz təşəbbüsü ilə, yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin **mediasiya üsulu vasitəsilə** həllini təklif edə bilər. Mübahisə edən tərəflər arasında “Mediasiya prosesinin tətbiqi barədə Müqavilə” bağlandığı təqdirdə, məhkəmə icraatı, faktiki olaraq, barışıq sazişi və mediasiya prosesinin nəticələri barədə müvafiq protokol **təqdim edilənədək** dayandırılır.

Maraqlı tərəflər könüllülük prinsipi əsasında mübahisəyə baxacaq mediasiya təşkilatı və ya mediator barədə **qarşılıqlı razılığa** gələ bilərlər. Aidiyyəti üzrə belə **razılıq olmadığı təqdirdə**, mübahisəyə həmin məhkəmə ilə eyni şəhər və ya rayonda

yerləşən, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə həmin məhkəmənin yerləşdiyi **inzibati ərazi vahidinə** ən yaxın şəhər və ya rayonlardan birində yerləşən **mediasiya təşkilatında** baxılır. Məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı **mövcud olmadıqda** və ya həmin mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin **müraciəti əsasında** mübahisənin araşdırılması üzrə aid olduğu məhkəmə orqanı mediasiyanın aparılması üçün **mediator müəyyən** edə bilər.

Qeyd etməliyik ki, mediasiya prosesində iştirak edən, lakin mübahisə işi üzrə **müsbət nəticə** əldə etməyən tərəflər və ya onlardan biri mediasiya prosesinin nəticələri barədə protokolu təqdim etməklə **növbəti dəfə** məhkəməyə müraciət etdikdə dayandırılmış **icraat təzələnir** və işə məhkəmə tərəfindən baxılır.

Eyni zamanda, tərəflər arasında mübahisə mediasiya vasitəsi ilə həll edildikdə **barışıq sazişi məhkəməyə təqdim** olunur. Məhkəmə təqdim edilmiş barışıq sazişini təsdiq etdikdə həmin iş üzrə **icraata xitam** verilir.

Şərh olunanları nəzərə alaraq, qeyd edə bilərik ki, **hazırlıq işləri** başa çatdıqdan sonra **mediasiya prosesi** bütövlükdə bir neçə aşağıda göstərilən **mərhələlərdən** ibarət ola bilər:

– mediasiya prosesində birgə sessiya;
– mediasiya prosesində erkən fərdi sessiyalar;
– mediasiya prosesində sonrakı fərdi sessiyalar;
– mediasiya prosesində yekun iclas.

Mediasiya prosesində tətbiq edilən mərhələlərin belə bölgüsü **nisbi xarakter** daşıyır. Belə ki, **mediasiya işinin hallarından** asılı olaraq, mediasiya prosesində bu mərhələlərin bəziləri olmaya, digərləri isə dəfələrlə təkrarlana bilər. Ümumi qayda belədir ki, mediasiya prosesini hər bir mediasiya işinin xarakter və xüsusiyyətlərindən asılı olaraq, **mediator** mübahisə edən **tərəflərlə** birlikdə müəyyən edir. Buna görə də mediasiya prosesi təşkil edilərkən, mediator mübahisə edən **tərəflərin mövqelərini** və bütövlükdə mediasiya işinin müvafiq prinsiplərə uyğun

**keyfiyyətlə aparılmasının** zəruriliyini mütləq diqqətə çəkməlidir. Bu aspektin realizasiyası isə, eyni zamanda, mediasiya mərhələlərinin seçilməsi həm də mediatorun üslubundan və **mediasiya-peşə fəaliyyətindən** daha çox asılıdır.[1]

Mediasiya prosesinin həyata keçirilməsi qaydalarına aydınlıq gətirdikdən sonra mediasiya prosesinin **ilkin mediasiya sessiyasının** vacib proseduru olan **birgə sessiya** mərhələsini nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, mediasiya prosesinin birgə sessiya mərhələsi **məlumatlandırma** xarakteri daşıyır; onu, praktiki cəhətdən, bəzən, birgə açılış iclası və ya birgə açılış sessiyası adlandırırlar.

**Birgə sessiya proseduru**, praktiki olaraq, bir neçə **elementdən ibarətdir**: mediatorun oriyentasiyası və ya açılış bəyanatı, mübahisə edən tərəflərin açılış bəyanatları, ilkin məlumat mübadiləsi, mübahisə üzrə problemin araşdırılması və mediatorun tərəflər ilə onların əsas maraqlarını aydınlaşdırmağa başladığı proses.

Birgə sessiya **prosesi** mübahisə edən tərəflərin, adətən, öz hüquqşünasları ilə birlikdə mediatorun iştirakı ilə konfrans otağında ilk dəfə birgə açılış iclasına yığışması zamanı **qısa təqdimatla** başlayır. Konfransın keçiriləcəyi otağı və iştirakçıların masa arxasında əyləşmə sırasını mediator təşkil edir. Belə ki, birgə açılış iclasının həyata keçirilməsində **məqsəd** mediasiya prosesinin, faktiki olaraq, səmərəli şəkildə başlanmasından ibarətdir. Göstərilən məqsədə nail olmaq üçün müəyyən **hədəflər** də qarşıya qoyula bilər, məsələn:

– mübahisənin həlli istiqamətində mülayim atmosferin müəyyən edilməsi, məhsuldar mühitin yaradılması və səmimiyyətin təşviq edilməsi;

– mediasiya prosesinin və onun hüdudlarının izah edilməsi və mübahisə tərəfləri ilə razılaşdırılması;

---

[1] Mediasiya sessiyaları barədə daha ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.99-133.

– mübahisənin həlli üzrə birgə sessiyanın həyata keçirilməsi üçün əsas qaydaların müəyyən edilməsi;

– tərəflərin açılış etməsi, öz mövqelərini bildirməsi və məlumat mübadiləsinin baş tutması üçün müvafiq köməklik göstərilməsi;

– ilkin olaraq mübahisə üzrə müzakirə mövzularının, eləcə də problemlərin və maraqların müəyyən edilməsi və s.

Birgə sessiya mərhələsinin **gündəlikdə duran məsələlər** bölməsi mübahisə üzrə problemin həlli istiqamətində vacib rol oynayır.[1] Belə ki, birgə iclası mediator, ilk növbədə, mübahisə üzrə tərəfləri **bərabər vəziyyətdə** əyləşdirməklə başlayır. Sonra mediator tərəflərlə tanış olur, özünü təqdim edərək **açılış nitqi** söyləyir, mediatorun rolu, mediasiyanın mahiyyəti, faydaları və prinsipləri barədə qısa məlumat verir, eləcə də mediasiya prosesini təsvir edir və onun qaydalarını mübahisə edən **tərəflərə izah edir**. Daha sonra mediator hər bir iştirakçıya çıxış etmək ardıcıllığı barədə müvafiq məlumat verir və mübahisə üzrə tərəflərə söz verərək, **problemi qısaca təsvir etməyə** dəvət edir. Eyni zamanda, mediator tərəflərin bir-birilə hörmətlə davranmasına və danışmasına çalışır. Mediator tərəflərə söz verdikdən sonra onların söylədiklərini dəqiqləşdirir, birgə sessiyanın əsas istiqamətlərini qeyd edir, tərəflərin bu barədə fikirlərini öyrənir və mediasiya prosesinin **növbəti mərhələsinə** mümkün keçid imkanı əldə edir.

Bu kontekstdə mediatorun açılış nitqinin, açılış bəyanatının **məzmunu** uğurlu mediasiya prosesi üçün xüsusi əhəmiyyət kəsb edir və müsbət nəticələrə nail olmağa zəmin yaradır. Belə ki, mediatorun açılış bəyanatının məzmununda aşağıdakı **məqamlar** öz əksini tapır:

---

[1] Mediasiya prosesində birgə sessiya mərhələsi, hədəflər, taktikalar və s. məsələlər barədə ətraflı bax: Leonardo D’Urso, Konstantin-Adi Qavrila. Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.67-70.

– mediator və mediasiya prosesinin bütün iştirakçılarının təqdim edilməsi, eləcə də mediatorun rolunun izah edilməsi, onun müstəqilliyinin və qərəzsizliyinin vurğulanması;

– mediasiyanın məhkəmədən fərqinə işarə olunması, mübahisə edən tərəflərin bir-birini dinləməyə dəvət edilməsi və mübahisənin həlli ilə bağlı qərar qəbul edilməsi məsuliyyətinin tərəflərin öz üzərinə qoyulması;

– mediasiya prosesinin təməl qaydaları, hüquqi aspektləri və konfidensiallıq barədə müvafiq məlumatların proses istirakçılarına çatdırılması, mediasiya sirri haqqında razılaşmanın imzalanması;

– mediasiya prosesi üzrə suallar, cavablar və s.

Beləliklə, mediasiya prosesinin **tərkib hissəsi** sayılan birgə sessiya mərhələsində **gündəlikdə duran məsələlər** blokuna xas olan aşağıdakı **strukturu** təqdim edə bilərik:

– mediator tərəfindən mübahisə işi üzrə birgə sessiyanın açılış bəyanatı;

– tərəflərin və birgə sessiyanın mübahisə problemi üzrə işində iştirak edən hüquqşünasların (nümayəndələrin, təmsilçilərin) açılış bəyanatları;

– mediator tərəfindən mübahisə işi üzrə sualların aydınlaşdırılması;

– tərəflərin mübahisə işi üzrə irəli sürdükləri öz yanaşma, fikir, təklif və tələblərini bir-birləri ilə paylaşması;

– fərdi sessiyalara keçid imkanının əldə edilməsi.

Mediasiya prosesinin birgə sessiya mərhələsində **uğurlu nəticələrə** nail olmaq üçün mediator tərəfindən müəyyən üsul və alətlərdən istifadə olunmaqla zəruri **taktikalar** tətbiq edilir ki, onların sırasında aşağıdakıları fərqləndirə bilərik:

– konfrans otağında mübahisə işi üzrə iştirakçılarla görüş və onların masa arxasında əyləşmə ardıcıllığının təşkili;

– birgə sessiya iclasında iştirak edən şəxslərə əsas qaydaların izah edilməsi;

– mübahisə işi üzrə qeyri-formallığın həvəsləndirilməsi və təşviq edilməsi, lakin prosesin daim nəzarətdə saxlanılması;

– tərəflərin öz fikirlərini bildirməsinə imkan və münbit şərait yaradılması;

– mübahisə işi üzrə həll edilməli olan məsələlərin dəqiq və aydın anlaşılması;

– hər zaman müsbət və aydın fikirlər üzrə qeydlərin götürülməsi;

– mübahisə işi və tərəflərin yanaşmaları üzrə xülasənin hazırlanması və s.

Eyni zamanda, birgə sessiya iclasını aparan mediator mediasiya prosesi ərzində yol verilə bilən **səhvlərdən yayınmalı** və bu istiqamətdə müvafiq **çevik tədbirlərin** görülməsini həyata keçirməlidir.

Mediasiya prosesinin birgə sessiya mərhələsi mediatorun özünə ünvanladığı **"Mən hədəflərimə nail ola bilmişəm?"** sualının cavablarını real şəkildə dəyərləndirməklə başa çatır. Mediatorlar birgə sessiyanı yekunlaşdırarkən və fərdi sessiyalara keçid qərarı verərkən həm də **"Söhbətə hansı tərəflə başlamalı və nə qədər müddət sərf etməli?"** sualına da diqqət yetirməlidirlər.

### 3.1.2. Mediasiya prosesində erkən fərdi sessiyalar

Mediasiya prosesində **ilkin mediasiya sessiyası** prosedurunun növbəti addımı **erkən fərdi sessiyalar** sayılır. Bu mərhələ, bəzən, **araşdırma mərhələsi** adlandırılır. Erkən fərdi sessiyalar, praktiki olaraq, **qapalı sessiyalar** kimi adla da tanınır.

Mediasiya qanunvericiliyində nəzərdə tutulmuşdur ki, **ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin mediasiya sessiyasında iştirak** məcburi xarakter daşıyır

(MHQ, maddə 28).[1] Belə ki, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər. Qeyd edilən mübahisələr üzrə ilkin mediasiya sessiyasını **tərəflərin qarşılıqlı razılaşdırdığı** mediator və ya mediasiya təşkilatı aparır.

Mübahisə edən tərəfin qanunvericiliklə nəzərdə tutulmuş **mediasiya prosesinin tətbiqi** barədə təklifi digər tərəfə təqdim edildikdən sonra 10 iş günü ərzində qəbul edilmədikdə və ya tərəflər mediator və ya mediasiya təşkilatı barədə razılığa gəlmədikdə, **ilkin mediasiya sessiyası** tərəflərdən hər hansı birinin ilkin müraciət etdiyi mediasiya təşkilatı, mübahisənin aidiyyəti üzrə aid olduğu şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə, həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən **mediasiya təşkilatı** tərəfindən aparılır. Bu halda tərəflər mediator barədə razılığa gəlmədikdə, **mediatoru** mediasiya təşkilatı təyin edir. Eyni zamanda, mediasiya təşkilatında işə baxılması mümkün olmadıqda, tərəflərdən hər hansı birinin müraciəti əsasında **Mediasiya Şurası** ilkin mediasiya sessiyasının aparılması üçün mediator müəyyən edə bilər.

Həmçinin, qeyd etməliyik ki, mediator ilkin mediasiya sessiyasında iştirak etmək üçün **müraciət edən tərəflərə** mediasiya prosesinin mahiyyətini, üstünlüklərini və qaydalarını izah edir, tərəflərlə birgə və ayrılıqda görüşlər keçirir (MHQ, maddə 29). Mübahisə edən tərəflər, yaxud onlardan biri onlara mediatorun (mediasiya təşkilatının) və ya digər tərəfin **mediasiya prosesinin tətbiqi** barədə müvafiq məlumatları və ilkin mediasiya sessiyasının keçirilmə tarixi, vaxtı və yerini əks etdirən ilkin mediasiya sessiyası barədə **bildirişi** təqdim etməsindən sonra tərəf-

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.24-25.

lər və ya onlardan biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə, yaxud iştirak etməkdən yazılı şəkildə imtina etdikdə, mediator sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı **müvafiq arayışı** həmin şəxslərə təqdim edir. Tərəflər arasında başqa qayda müəyyən edilmədiyi halda, qeyd edilən bildiriş tərəflərə ilkin mediasiya sessiyasının keçirilmə tarixindən azı **5 gün əvvəl** təqdim edilməlidir. Beləliklə, ədəbiyyat səhifələrində qeyd olunduğu kimi, ilkin mediasiya günü **mediasiya prosesi ilə bağlı hadisələr** aşağıda göstərilən **3 ssenari** və ya hal üzrə cərəyan edə bilər:[1]

1. Tərəflər və ya onlardan biri mediasiya prosesinə gəlməyə bilər;
2. Mübahisə edən tərəflər ilkin mediasiya sessiyasında iştirakdan sonra tam mediasiya sessiyasında iştirak etmək istəməyə bilərlər;
3. Mübahisə edən tərəflər ilkin mediasiya sessiyasında iştirakdan sonra tam mediasiya sessiyasında iştirak etmək barədə razılığa gələ bilərlər.

**Birinci ssenaridə**, yəni tərəflər və ya onlardan biri ilkin mediasiya sessiyasında iştirak etmədikdə, mediator mübahisə işi üzrə sessiyada iştirak edən və etməyən tərəfləri qeyd etməklə "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı hazırlayaraq, mübahisə edən tərəflərə verir. Sözügedən bu arayış əsasında iddiaçı müvafiq mübahisə işi ilə bağlı məhkəməyə müraciət edə bilər.

**İkinci ssenaridə**, yəni mübahisə edən tərəflər ilkin mediasiya sessiyasında iştirakdan sonra tam mediasiya sessiyasında iştirak etmək istəmədikdə, mediator mediasiya prosesinə xitam verir və "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı müvafiq arayışı tərəflərə təqdim edir.

---

[1] Bu barədə daha ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.95-98.

Göstərilən bu arayış da iddiaçı şəxsin müvafiq mübahisə işi ilə bağlı məhkəməyə müraciət etməsi üçün əsas sayılır.

**Üçüncü ssenari** halında isə, mübahisə edən tərəflər ilkin mediasiya sessiyasında iştirakdan sonra tam mediasiya sessiyasında iştirak etmək barədə razılığa gəldikdə, onlar "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə" bağlayır və mediasiya prosesi həyata keçirilir.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, erkən fərdi sessiyaların **məqsədi** mediator tərəfindən mübahisə edən tərəflərin problemə yanaşmasına uyğun olaraq, mediasiya işi və maraqlar barədə ətraflı **informasiya toplamaqdan** ibarətdir. Belə informasiyalar çox vaxt **gizli məlumatlar** şəklində əldə edilir.

Maraqlı tərəflər hansı spesifik məlumatların **konfidensial saxlanmaq** şərti ilə mediatora açıqlana bildiyini aydın şəkildə anlayırlar. Eyni zamanda, qapalı sessiyalarda mediator mübahisə edən tərəflərin mövqelərinin reallığını tədricən sınaqdan keçirməli və **real danışıq pozisiyalarını** müəyyənləşdirməyə çalışmalıdır.

Mediasiya prosesi ərzində hər bir tərəfin prosesə və mediatora **etimadını təmin etmək**, eləcə də erkən fərdi sessiyaların mübahisə edən tərəflərə hər hansı bir formada zərər verməyəcəyinə **əmin olmaq** üçün tərəflərin belə sessiyalarda mediator ilə paylaşdığı informasiyalar digər tərəfə münasibətdə **məxfi** saxlanılmalıdır. Buna görə də, mediator hər sessiyanın sonunda digər qarşı tərəfə hansı məlumatların **açıqlana biləcəyini** öyrənərək dəqiqləşdirməlidir.

Erkən fərdi sessiyalar **qısa təqdimatla** başlayır. Bu mərhələdə mediator tərəfləri fərqli otaqlarda yerləşdirir, hər bir tərəf və onun hüquqşünası ilə digər tərəfdən (tərəflərdən) kənarda, gizli şəkildə söhbətlər aparır. Adıçəkilən sessiyalar mediasiya prosesinin **fərqləndirici aspekti** sayılır və mediasiya işinin əsas hissəsi məhz bu ərəfədə həyata keçirilir. Başqa sözlə, mediator **"irəli-geri" diplomatiya variantına** keçir və gah bir tərəf, gah

da digər tərəflə ayrıca söhbətlər aparmaqla mübahisə edən tərəflər arasında sanki "irəli-geri" formada hərəkət edərək müvafiq mövqe tutur.

Mediasiya prosesində qarşıya qoyulan **məqsədə çatmaq** üçün erkən fərdi sessiyalarda konkret **hədəflər** müəyyənləşdirilir. Belə hədəflər sırasında aşağıdakıları **fərqləndirmək** mümkündür:

– mediasiya üzrə həssas informasiyaları toplamaq və maraqları araşdırmaq;

– mediasiya prosesinin hərtərəfli və səmərəli həyata keçirilməsi üçün xüsusi əhəmiyyət kəsb edən əsas şəxslərə birbaşa çıxışı əldə etmək;

– problemin həll yolunun tapılmasına mane olan halları müəyyən etmək;

– mübahisə edən tərəflərin öz fikirlərini bildirməsinə müvafiq kömək etmək və bu fikirlərə anlayış göstərməklə diqqətlə yanaşmaq;

– mübahisə edən tərəflərin mövqelərini və prioritetlərini aydınlaşdırmaq;

– mediasiya problemi üzrə seçim yaratmağa başlamaq və s.

Mediasiya prosesində erkən fərdi sessiyalar mərhələsində **gündəlikdə duran məsələlər** qismində aşağıda göstərilən tədbirləri qeyd edə bilərik:

– fərdi sessiyalar üçün vaxt və logistikanın təşkil edilməsi;

– birinci fərdi sessiyanın başlanılmasına start verilməsi;

– fərdi sessiyalar arasında "irəli-geri" formatında hərəkət edilməsi;

– əgər zərurət yaranarsa, mübahisə işi üzrə bütün tərəflər və ya onların nümayəndələri (hüquqşünasları) ilə "aralıq" birgə görüşlərin keçirilməsi.

Eyni zamanda, mediasiya prosesində qarşıda duran hədəflərə çatmaq və uğurlu nəticələr əldə etmək üçün erkən fərdi sessiyalarda peşəkar mediatorlar tərəfindən müəyyən **taktikalar** tətbiq olunur. İstifadə edilən belə taktikalar kimi aşağıdakıları göstərmək olar:

– mediasiya prosesində sessiya iclasını mübahisə tərəflərindən kiminlə və problemin hansı aspekti üzrə başlanılması məqamının müəyyən edilməsi;

– mediasiya prosesində məxfilik haqqında razılaşmaların təsdiq edilməsi;

– sessiyaya açıq suallarla başlanılması və qulaq asılması, dinlənilməsi;

– sualların diqqətlə planlaşdırılmış variant üzrə ardıcıllıqla öyrənilməsi;

– tərəflərin dinlənildiyini mediatorun açıqcasına biruzə verməsi, göstərməsi;

– sessiya ərzində yaranan bütün potensial seçimlərin qeyd edilməsi və s.

### 3.1.3. Mediasiya prosesində sonrakı fərdi sessiyalar

Qeyd etməliyik ki, mediator mediasiya prosesində ilkin mediasiya sessiyası, konkret olaraq, erkən fərdi sessiyalar zamanı və ya bu prosedurun tamamında tərəflərin müraciəti əsasında onların **sonrakı mediasiya sessiyalarında** iştirak etmək istəyib-istəmədiklərinə dair qərar verməlidir (MHQ, maddə 29).[1] Belə ki, əvvəllərdə qeyd etdiyimiz kimi, tərəflərdən biri və ya hər ikisi mediasiya prosesini davam etdirməyə **razılıq vermədikdə**, habelə mediasiya haqqında qanunvericiliyə əsasən, mediator mediasiya prosesinin həyata keçirilməsindən **imtina etdikdə**, mediator mediasiya prosesinə xitam verir və "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı **arayışı** tərəflərə təqdim edir.

Tərəflər mediasiya prosesini **davam etdirməyə qərar verdikdə** isə, tərəflər arasında "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə" bağlanılır və **mediasiya prosesi həyata keçirilir**.

[1] Ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.25-26.

Əlavə olaraq qeyd edək ki, mübahisə edən tərəflər bu mərhələdə mediasiya təşkilatı və ya mediatorla yaranan xidmət münasibətlərini hüquqi cəhətdən tənzimləmək məqsədi ilə, müvafiq **xidmət müqaviləsi** də imzalayırlar. Alternativ variant kimi, mübahisə edən tərəflər və mediator (mediasiya təşkilatı) həm mediasiya prosesi, həm də mediasiya xidmətləri ilə bağlı münasibətləri nizama salmaq üçün **qarışıq müqavilə formasında saziş** – "Mediasiya prosesinin tətbiqi və mediasiya xidməti barədə Müqavilə" adlı sənəd imzalaya bilərlər. Məhz göstərilən müqavilələr bağlandıqdan sonra **tam mediasiya sessiyası** başlayır.

Tərəflər mediasiya prosesinin yekununda **barışıq əldə edə bilmədikdə**, eləcə də mediator mediasiya prosesinin həyata keçirilməsindən imtina etdikdə, mediator mediasiya prosesinə xitam verir və bu barədə müvafiq **protokolu** tərəflərə təqdim edir.

Yuxarıda göstərilən arayışı və ya protokolu əldə etdikdən sonra mübahisə üzrə tərəf **məhkəməyə** və ya **arbitraja** (münsiflər məhkəməsinə) müraciət edə bilər. Belə müraciətə müvafiq arayış və ya protokol da əlavə edilməlidir.

Mediasiya prosesində baş tutan **sonrakı fərdi sessiyalar**, bəzən, **danışıqlar mərhələsi** kimi anlayışla da ifadə edilir. Mediasiya prosesi zamanı danışıqlar mübahisə edən hər iki tərəfin iştirakı ilə **birgə sessiya** və ya təkbətək **fərdi sessiyalar** formasında həyata keçirilə bilər.

Praktikada əksər mediatorlar tərəfindən danışıqlar mərhələsinin **təkbətək** fərdi sessiyalar formasında həyata keçirilməsinə **üstünlük verilir**. Belə hal, yəni danışıqların təkbətək fərdi sessiyalar formatında həyata keçirilməsi metodu mediatora imkan verir ki, gizli informasiyaları **daha çevik** surətdə əldə etsin, eləcə də tərəflərlə ayrı-ayrılıqda problemin həlli üçün **barışıq imkanları** axtarmağa daha tez başlasın. Bu metod mübahisənin həllinə daha proqmatik və texniki aspektdən yanaşmağa imkan verir.

Eyni zamanda, digər tərəfdən, danışıqlar mərhələsinin **hər iki tərəfin iştirakı** ilə birgə sessiyalar formatında həyata keçirilməsi mübahisə edən tərəflərin bir-birlərini daha yaxşı **anlamağa**, perspektiv münasibətlərini detallı şəkildə **müzakirə etmələrinə** və mediasiya işi üçün maraq doğuran hər hansı məlumatın proses ərzində **itməməsinə** imkan yaradır.

Mediasiyada sonrakı fərdi sessiyalar prosesini də danışıqlar meyarı üzrə **iki mərhələyə** bölmək olar: danışıqlar prosesinin ilkin mərhələsi, danışıqlar prosesinin növbəti mərhələsi.[1]

**Danışıqlar prosesinin ilkin mərhələsində** əsas və başlıca **məqsəd** mübahisə edən tərəflərdən problem ilə bağlı vacib məlumatları əldə etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün aşağıdakı **tədbirlərin** həyata keçirilməsi nəzərdə tutula bilər:

– tərəflərin öz emosiyalarını ifadə etmələri hallarının təşviq olunması;

– tərəflərin sərgilədikləri mövqe və prioritetlərin əhatəli şəkildə öyrənilməsi.

Danışıqlar prosesinin ilkin mərhələsində **mediator mübahisə edən tərəflərə**, adətən, açıq və səlis suallar verərək, onları səbr, təmkin və diqqətlə dinləyir. Əgər bu mərhələ **təkbətək görüşlər formatında** keçirilərsə, mediator bu zaman tərəflərin bəyan etdiyi konfidensial məlumatların digərlərinə açıqlanmayacağını onlara **xatırlatmalıdır**; həm də bu mərhələdə mediator, bir qayda olaraq, tərəflərin mövqelərini sorğulamır və onların mövqelərinin dərhal mülayimləşməsinə, eləcə də mübahisə üzrə **vaxtından əvvəl** barışıq imkanlarının axtarılmasına səy göstərmir.

**Danışıqlar prosesinin növbəti mərhələsində** həyata keçirilən sessiyaların **məqsədi** mübahisə edən tərəfləri barışığa gətirmək imkanı ola bilər. Bu məqsədə çatmaq üçün mediatorun

---

[1] Toxunulmuş məsələ barədə daha ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.105-133.

**seçdiyi üslubdan və strategiyadan** asılı olaraq, aşağıdakı tədbirlərin görülməsi **ağlabatan variant** sayılır:

– mübahisə edən tərəflərə öz maraqlarını anlamağa köməklik göstərilməsi, yəni tərəflərin maraqlarının müəyyən edilməsi;

– mübahisə problemi üzrə tərəflərin malik olduqları mövqelərinin yenidən qiymətləndirilməsinə və yenidən formalaşdırılmasına dəstək verilməsi;

– mübahisə edən tərəflər arasında yeni barışıq imkanlarının aşkarlanması, başqa sözlə, yeni barışıq imkanlarının yaradılması;

– tərəflər arasında barışığın əldə olunması üçün, yeri gəldikdə və ya zərurət yarandıqda, "barışığın müdafiəçisi" rolunun, funksiyasının yerinə yetirilməsi.

Beləliklə, yuxarıda şərh olunanları diqqətə çəkərək, qeyd etməliyik ki, mediasiya prosesində **sonrakı fərdi sessiyalar qısa təqdimatla** başlayır. Burada əsas məqsəd mübahisə edən tərəflərin maraq nöqtələri ilə əlaqəli olan məlumatlardan yeni seçimlər hazırlamaq, dəyər formalaşdırmaq və real danışıqlara başlamaq üçün istifadə etmək **imkanının yaradılmasından** ibarətdir. Mediator həm də sonrakı fərdi sessiyalar ərzində mümkün riskləri və alternativləri dəyərləndirə, son maneələri ötə və potensial razılaşmaların stabilliyini, dayanıqlığını **sınaqdan keçirə** bilər.[1]

Sonrakı fərdi sessiyalarda **hədəflər** kimi aşağıda göstərilən vacib məsələlər qarşıya qoyulur:

– mediasiya prosesində iştirakçıların yanaşmalarının dəyişdirilməsi;

– mübahisə işi üzrə məhkəmə çəkişməsinin xərc və məsrəfləri, vaxt itgisi və risk amillərinin nəzərdən keçirilərək təhlil edilməsi;

– mübahisə işinin mahiyyəti barədə tərəflərin qiymətləndirməsinin dəyişdirilməsi;

---

[1] Mediasiya prosesinin sonrakı fərdi sessiyalar mərhələsi barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.73-74.

– mübahisə işi üzrə yeni seçim fürsətlərinin yaradılması;

– mediasiya prosesində tərəflərlə danışıqlar üslubunun yaxşılaşdırılması;

– mediasiya işi üzrə ən məqbul variantın seçilməsi.

Mediasiya prosesinin sonrakı fərdi sessiyaları ərzində qarşıya qoyulan hədəflərə çatmaq üçün **gündəlikdə duran məsələlər** kimi risklərin qiymətləndirilməsi və alternativlərin araşdırılması, eləcə də son maneələrin aşılması və potensial razılaşmaların davamlılığının təcrübə yoxlamasından keçirilməsi üzrə tədbirlər müəyyənləşdirilə bilər.

Eyni zamanda, mediasiya prosesinin sonrakı fərdi sessiyalar mərhələsində mediator problemin həlli üzrə müəyyən **hüquqi vasitə və taktikalardan** istifadə edir. Sözügedən tədbirlər blokuna aşağıdakılar daxildir:

– iş üzrə yaranmış situasiyada reallığın yoxlanılmasına nail olunması;

– mübahisə işi üzrə məhkəmə çəkişməsinin xərcləri, vaxt itkisi və risk parametrləri barədə münasibətlərin müəyyən edilməsi;

– mübahisə edən tərəflərdən kompromis təkliflərin əldə edilməsi və sınaqdan keçirilməsi, eləcə də tərəflər arasında barışığın təşviq edilməsi;

– mübahisə işi üzrə irəliyə doğru addım atılması və araşdırmanın davam etdirilməsi, zərurət yarandıqda isə, məcburi olmayan qiymətləndirmənin təşkil və təklif edilməsi;

– mübahisə edən tərəflərin irəli sürdüyü təkliflərin mediatorun ideyası kimi təqdim edilməsi, problemin həlli istiqamətində "əgər olarsa..." texnikası üzrə metodologiyadan istifadə edilməsi;

– mübahisənin həlli üzrə mümkün variantların və kompromis təkliflərin seçilməsi, habelə "yaranmış çıxılmaz vəziyyətin qırılması" texnikasından istifadə edilməsi (məsələn, belə bir fikir irəli sürülə bilər ki, "problem daha sonra müzakirə ediləcəkdir");

– mübahisə edən tərəflərin ortaq şərtlərə doğru istiqamətləndirilməsi və əgər münasib olarsa, problemin həlli üzrə “mediatorun paketi”nin təklif edilməsi.

Proses zamanı **mediator** yönəldici sualların verilməsi, qiymətləndirmə və digər təkliflərin çox erkən irəli sürülməsi, məxfi məlumatların açıqlanması, iştirakçıların alçaldılması, işin yalnız hüquqi tərəfi üzərində diqqətin cəmlənməsi, çox tez təslimolma və s. bu kimi **səhv hallara yol verilməsindən** çəkinməlidir.

Mediasiya prosesinin sonrakı fərdi sessiyalar mərhələsinin **yekununda** mediator mübahisə işi üzrə qarşıya qoyduğu **hədəflərə nail olunması**, eləcə də **barışıq sazişi layihəsinin mümkünlüyü** barədə fikirlərə əmin və malik olmalıdır.

## 3.2. Mediasiya prosesində yekun iclas

### 3.2.1. Yekun sessiyada hədəflər və taktikalar

Qeyd etməliyik ki, mübahisələrin həlli üzrə mediasiya prosesinin mərhələlərindən biri **yekun sessiya** sayılır. Sözügedən mərhələ praktikada, bəzən, **mediasiya prosesində yekun iclas** adı ilə də tanınır. Bu mərhələyə mübahisə edən tərəflərin razılıq əldə edib-etməməsindən asılı olmayaraq, mediasiya prosesinin yekunlaşdırılması üçün lazım olan bütün **kompleks işlər** daxildir.

Mediator, adətən, aşağıda göstərilən hallarda və zaman kəsiyində mübahisə predmeti üzrə bir tərəflə digər tərəf arasında **öz fəaliyyətini**, necə deyərlər, **mediasiya prosesi formatında hərəkət etməyi** davam etdirir:

– mübahisə işi üzrə hər hansı bir tərəf mediasiya prosesini dayandırmaq qərarına gəldiyi vaxtadək;

– tərəflər arasında mübahisə predmeti üzrə razılaşma əldə edilən dövrədək;

– tərəflər və mediator gələcəkdə mübahisə işi üzrə razılıq əldə edilməsinin mümkün olmayacağı qənaətinə gələnə qədər dövr ərzində.

Bu zaman, əgər mediasiya prosesini yekunlaşdırmaq zərurəti yaranarsa, mediator mübahisə edən tərəfləri bir yerə toplayır və lazım olarsa, mübahisə işi üzrə barışıq sazişini tərtib edir.[1]

Mediasiya prosesində yekun iclas **qısa təqdimatla** başlayır. Bu zaman **mediator işi üzrə problemi** ətraflı şəkildə müzakirə etdikdən, eləcə də müvafiq birgə və fərdi sessiyalar keçirdikdən sonra mübahisə edən **tərəflərin** razılığa gəlib-gəlməməsi, barışıq sazişi imzalamaq istəyib-istəməməsi barədə **fikirlərini öyrənir**. Mediasiya prosesinin sözügedən mərhələsində problemin həlli istiqamətində mediatorun rolu daha da aktivləşir. O, proses ərzində **"götür və ya tərk et" taktikasını** tətbiq edə bilər; əgər mübahisə işi üzrə tərəflər arasında müvafiq razılıq əldə olunarsa, mediator belə razılaşmanın məntiqi cəhətdən formalaşdırılmasında **tərəflərə zəruri köməklik** göstərir.

Yeri gəlmişkən, mediasiya prosesində uğurlu nəticələrə nail olmaq üçün **yekun sessiyada hədəflər** qismində aşağıda göstərilən tədbirlərin həyata keçirilməsini qeyd edə bilərik:

– mübahisə edən tərəfləri iş üzrə qərar qəbul etməyə dəvət etmək, çağırmaq;

– tərəflər arasında əldə edilən razılaşmanın rəsmiləşdirilməsində, yəni sənədləşdirilməsində onlara müvafiq köməklik göstərmək;

– mübahisə işi üzrə problemin həlli istiqamətində tərəflər arasında uğurlu nəticə əldə edilmədikdə, başqa bir mümkün MAH prosedurunu nəzərdən keçirmək;

– mediasiya prosesini bağlamaq.

Mediasiya prosesində qarşıda duran **hədəflərə çatmaq üçün** son fərdi sessiyanın və birgə yekun sessiyanın keçirilməsi, razılaşma şərtlərinə dair xülasənin hazırlanması, tərəflər arasında razılaşmanın yazılmasına köməklik göstərilməsi, işlə bağlı

---

[1] Mediasiya prosesində yekun sessiya mərhələsi barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.75-77.

mediasiya qanunvericiliyinə uyğun zəruri sənədləşmələrin aparılması və s. tədbirlərin görülməsi **gündəlikdə duran məsələlər** sırasına daxil edilə bilər.

Mediasiya prosesinin yekun sessiya mərhələsində mediatorun tətbiq edə biləcəyi faydalı **taktikalar** kimi aşağıdakı mümkün tədbirlərin həyata keçirilməsi məqsədəuyğun sayılır:

– mediasiya işi üzrə “razılıq əldə edilibmiş” kimi vəziyyətə dair müvafiq xülasənin hazırlanması və onun şərtlərinin yazılması;

– mübahisə işi üzrə tərəflər arasında razılıq əldə edildiyi təqdirdə, mediasiya prosesini tərk etməmişdən əvvəl müvafiq razılaşmanın tərtib edilməsinə və imzalanmasına köməklik göstərilməsi;

– mediasiya işi üzrə SMART razılaşmaya nail olunmasına dəstək verilməsi;

– razılaşma sənədində mediasiyaya dair qeyd-şərtin əlavə edilməsi;

– mübahisə işi üzrə mediasiyanın uğursuz olması halında, problemin həlli istiqamətində zənglər edilməsi, eləcə də digər MAH prosedurunun müəyyən edilməsinə dəstək göstərilməsi və s. tədbirlər.

Mediasiyanın yekun sessiyası prosesində mediator aşağıdakı **tez-tez yol verilən səhvlər** kateqoriyasından yayınmağa çalışmalıdır:

– mediasiya işi üzrə, prinsip etibarilə, razılıq əldə edildikdən sonra təfərrüatların tərəflər arasında növbəti gün razılaşdırılmasına imkan yaratmaq;

– mübahisə edən tərəflər arasındakı sonuncu “fərqin” bağlanması üçün tərəfləri tələsdirməkdən çəkinmək;

– mediasiya prosesinin yekunlaşdırılmasını ləngitmək;

– tərəflər arasındakı sonuncu “fərqin” bağlanması zamanı təslim olmaq.

Eyni zamanda, mediator **yekun sessiya ərzində** mübahisə işi üzrə qarşıya qoyduğu hədəflərə nail olunması, müvəffəqiyyət

qazanılması, prosesdə aktiv rol oynaması, eləcə də barışıq sazişinin hazırlanmasına köməklik göstərilməsi, mübahisənin həlli üzrə digər MAH variantlarının nəzərdən keçirilməsinə dəstək verilməsi və s. məsələlərin **uğurla həyata keçirilməsi** barədə öz əməllərinə tam məntiqi əminliklə yanaşmalıdır.

### 3.2.2. Mediasiya prosesində barışıq sazişi

Qeyd etməliyik ki, mediasiya prosesi barışıqla nəticələndikdə mediator, adətən, barışıq sazişinin **tərtib edilməsində** tərəflərə köməklik göstərir. Belə ki, mediator mübahisə işi üzrə tərəflərin iştirakı ilə onların **razılığa gəldikləri** şərtləri sadalayır. Tərəflər sadalanan şərtlərlə razı olduğu təqdirdə mediator və tərəflərin imzalayacağı müvafiq **barışıq sazişi** tərtib edilir.

Mediator barışıq sazişini tərtib edərkən, bir tərəfdən barışıq sazişinin **işlək olmasına** səy göstərməli, digər tərəfdən isə mübahisə işi üzrə tərəflərə **qərəzsizlik prinsipinə** zidd olan tövsiyələr verilməsindən çəkinməlidir. Başqa sözlə, barışıq sazişi hazırlanarkən, gələcəkdə onun icrası zamanı mümkün **mübahisələrin yaranması** hallarının qarşısının alınması məqsədi ilə sazişin işlək olmasına diqqət yetirilməlidir.[1] Belə ki, barışıq sazişinin işlək olması üçün **aşağıdakı aspektlərə** xüsusi fikir verilməlidir:

– tərtib edilən barışıq sazişi təfsilatı ilə **detallı olmalıdır**. Bu, o deməkdir ki, mübahisə edən tərəflərdən biri digər tərəfə mübahisə işi üzrə, məsələn, pul vəsaiti ödəməyi öz öhdəsinə götürərsə, sazişdə belə öhdəliyin hansı qaydada, nağd və ya nağdsız formada, harada yerinə yetiriləcəyi və digər təfərrüatlar barədə zəruri məlumatlar əksini tapmalıdır;

– barışıq sazişində təsbit edilən öhdəliklərin icrası **real** və **mümkün olmalıdır**. Məsələn, mübahisə edən tərəflərdən biri

---

[1] Ətraflı bax: Mediasiya Şurasının üzvü, mediator Cabbar Həsənov. Barışıq sazişi necə olmalıdır? https://www.e-huquq.az/az/news/mediation/35844.html (28.08.2023-cü il).

üçüncü şəxsdən asılı olan, qanunvericiliklə yol verilməyən və ya hər hansı formada icrası mümkün sayılmayan qeyri-real öhdəliyi üzərinə götürərsə, təbii ki, gələcəkdə belə barışıq sazişinin icrasında müəyyən problemlərin yarana bilməsi gözlənilləndir;

– barışıq sazişində göstərilən öhdəliklərin **ölçülə bilən olması** faktına da fikir verilməsi tövsiyə edilir. Məsələn, mübahisə edən tərəflərin ödəməli olduqları vəsaitin miqdarı barışıq sazişində dəqiq göstərilməlidir. Əgər belə vəsaitin üzərinə faizlər hesablanacaqsa, həmin faizlər də barışıq sazişində dürüst şəkildə qeyd edilməlidir;

– mübahisə işi üzrə gələcəkdə hər hansı mübahisə yaranmasın deyə, barışıq sazişində həm də müəyyən edilmiş **öhdəliklərin icra müddəti** konkret şəkildə təsbit olunmalıdır. Belə ki, məsələn, əgər mübahisə işi üzrə tərəflərdən biri hər hansı ödənişi etməyi və ya işi yerinə yetirməyi öz öhdəsinə götürərsə, onda barışıq sazişində öhdəliklərin icra müddəti ilə bağlı bu cəhət aydın şəkildə öz ifadəsini tapmalıdır və s. aspektlər.

Mediasiya haqqında qanunvericiliyə əsasən, mübahisə işi üzrə tərəflər arasında bağlana barışıq sazişi, yəni müqavilə **konkret məzmuna** malikdir (MHQ, maddə 33)[1]. Belə ki, tərəflər arasında **yazılı şəkildə** bağlanan sazişin məzmununda müqavilənin tarixi və tərtib olunduğu yer, tərəflər haqqında məlumat, mübahisənin predmeti, mediator və mediasiya təşkilatı haqqında məlumatlar, mübahisənin həlli istiqamətində tərəflərin qəbul etdiyi şərtlər, həmin şərtlərin yerinə yetirilməsinin üsul və müddətləri, barışıq sazişində təsbit olunmuş şərtlərin icra edilməməsinin və ya düzgün icra edilməməsinin nəticələri, eləcə də normativ hüquqi aktlarla nəzərdə tutulmuş digər şərtlər barədə müvafiq **məlumatlar** öz əksini tapır.

---

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.29.

Barışıq sazişi mediasiya haqqında qanunvericiliyin müddəalarına **zidd olmadığı** təqdirdə mübahisə edən tərəflər və mediator tərəfindən **imzalanır** və tərəflərə, eləcə də 1 iş günü müddətində müvafiq orqana (quruma) **təqdim edilir**.

Mediasiya prosesi nəticəsində fiziki şəxslər arasında bağlanan **barışıq sazişinin forması** Mediasiya Şurasının 2020-ci il 23 sentyabr tarixli qərarı ilə təsdiq edilmişdir. Barışıq sazişinin imzalanması əvvəllər mövcud olan mübahisəyə və ya qeyri-müəyyən hüquq və ya iddialara istinad edilməsini istisna edir və **hüquqi statusundan** asılı olmayaraq, tərəflər üçün yalnız **sazişin şərtləri etibarlı olur**. Sazişdə nəzərdə tutulan hallar istisna olmaqla, tərəflər əvvəllər mövcud olan mübahisə ilə əlaqədar bir-birini, işçilərini və ya varislərini, vəkillərini və nümayəndələrini bu barışıq sazişinin bağlandığı ana kimi yaranmış, məlum olan və ya olmayan bütün mübahisələr, iddialar, şikayətlər, ittihamlar, tələblər, zərərlər, borclar və öhdəliklərlə bağlı məsuliyyətdən **qarşılıqlı şəkildə** və **birdəfəlik azad edirlər**.[1]

Eyni zamanda, **mülki prosesdə barışıq sazişinin təsdiq edilməsi** ilə bağlı qeyd edə bilərik ki, Azərbaycanda barışıq sazişinin icrası ilə bağlı aşağıda göstərilən normativ hüquqi aktlarda **göstəriş mövcuddur**: Əmək Məcəlləsi, İnzibati-Prosessual Məcəllə və "Mediasiya haqqında" Qanun və s.

Belə ki, Əmək Məcəlləsində təsbit olunmuşdur ki, işəgötürən və işçi **fərdi əmək mübahisəsinin** məhkəmədə həlli prosesində qarşılıqlı razılıqla yazılı barışıq sazişi bağlayarlarsa, **hakim** tərəflərin həmin sazişlə müəyyən edilmiş öhdəliklərin icrasının təmin edilməsi barədə **qərardad qəbul edir** (ƏM, maddə 300, 2-ci hissə). Bu göstəriş **əmək mübahisələrinin** tənzimlənməsinə aiddir. İnzibati-Prosessual Məcəlləyə görə, **məhkəmə qərardadı** ilə təsdiq edilmiş **barışıq sazişi** icra sənədi hesab olunur (İPM, maddə 117.1.3). Bu göstəriş **inzibati məhkəmə icraatına** həsr edilmişdir. Mediasiya qanunvericiliyində isə **barışıq sazişinin icrası** ilə bağlı ayrıca maddə təsbit edilmişdir

---

[1] Ətraflı bax: https://mediation.az/barisiq-sazisi-fiziki-sxslr-arasinda/ (29.08.2023-cü il).

(MHQ, maddə 34). Bu maddənin göstərişi sırf **mediasiya prosesinə** aiddir.

Qeyd etməliyik ki, **mediasiya prosesi nəticəsində bağlanan barışıq sazişi**, əgər sazişdə ayrı şərt nəzərdə tutulmayıbsa, imzalandığı gündən tərəflər üçün **məcburi xarakterə** malikdir. Barışıq sazişinin icrasını təmin etmək **tərəflərin vəzifəsi** sayılır.[1] Barışıq sazişində tərəflər arasında ayrı müddət müəyyən edilmədiyi təqdirdə, barışıq sazişi imzalandığı gündən **10 gün** müddətində **könüllü şəkildə** icra olunmalıdır. Barışıq sazişinin könüllü icrasından **boyun qaçırma** halı Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq, barışıq sazişində müəyyən edilən **məsuliyyətə** səbəb olur.

Əgər barışıq sazişinin könüllü icrasından **imtina olunsa**, tərəf barışıq sazişinin məcburi icrası üçün **məhkəməyə** müraciət edə bilər. Barışıq sazişi məcburi icra edilməsi üçün məhkəmə tərəfindən müvafiq qaydada **təsdiq olunur**, bir şərtlə ki, aşağıdakı hallar gözlənilsin:

– saziş qüvvədə olan mediasiya qanunvericiliyinə zidd deyildirsə;

– saziş mediasiyada iştirak etməyən üçüncü şəxslərin və ya məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan, yaxud məhdud fəaliyyət qabiliyyətli hesab edilən şəxslərin hüquqlarına toxunmursa.

Eyni zamanda, barışıq sazişi mediasiya qanunvericiliyinin müddəalarına **zidd olduqda**, onun təsdiq edilməsindən **imtina edilir**.

Mediasiya prosesi nəticəsində bağlanılmış barışıq sazişinin təsdiq edilməsinə dair **işlər üzrə icraat məhkəmədə** aşağıdakı qaydada aparılır:

---

[1] Bu barədə ətraflı bax: "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası" (maddə 2.3.1.) // Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/43222 (29.08.2023-cü il).

– barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizə fiziki şəxsin yaşadığı yer, hüquqi şəxsin ünvanının olduğu yer üzrə, ərizə dövlət orqanı (qurumu) tərəfindən verildikdə, barışıq sazişinin icrasından imtina edən fiziki şəxsin yaşadığı, hüquqi şəxsin ünvanının olduğu yer üzrə məhkəməyə verilir;

– barışıq sazişinin təsdiq edilməsi ilə bağlı ərizə məhkəməyə daxil olduqdan sonra 10 gün müddət ərzində qanunvericiliyə uyğun şəkildə baxılır;

– məhkəmə ərizəyə baxarkən barışıq sazişinin təsdiq edilməsi və ya təsdiq edilməsindən imtina olunması barədə müvafiq qətnamə qəbul edir.

Məhkəmə tərəfindən müvafiq qaydada **təsdiq edildikdən sonra** sözügedən barışıq sazişinin icrası **aidiyyəti orqan (qurumlar)** tərəfindən təmin edilir.

Barışıq sazişinə dair müəyyən məlumatlar **ictimaiyyətə və ya üçüncü şəxslərə** açıqlana bilər. Belə ki, qanunvericiliyin tələblərindən irəli gələn hallar və ya tərəflərin razılaşdığı digər şərtlər istisna olmaqla, mediator mediasiya prosesi ərzində əldə etdiyi bütün **məlumatların məxfiliyini** qorumalıdır. Tərəflər mediasiya prosesi ərzində əldə olunan məlumatların mediator tərəfindən açıqlanmasına **razılıq verdiyi halda**, mediator belə məlumatları **açıqlaya bilər**.

Mediator tərəflərin mediasiya prosesi ərzində **davranışı haqqında** mediasiyada iştirak etməyən **şəxslərə məlumat verə bilməz**. Mediator **qanunvericilikdə nəzərdə tutulan hallarda**, tərəflərin mediasiya sessiyalarında iştirak edib-etməməsi və ya mediasiya nəticəsində barışıq sazişinin əldə edilib-edilməməsi barədə **məlumat verə bilər**. Mediator **mediasiya fəaliyyəti** ilə əlaqədar qiymətləndirmə, araşdırma və ya tədqiqatda **iştirak edərsə**, tərəflərin **anonimliyini qorumalı** və **məxfiliklə** bağlı ağlabatan gözləntilərinə cavab verməlidir.

Beləliklə, mediasiya prosesində barışıq sazişinin **milli (dövlətdaxili) səviyyədə** nizama salınması aspektlərinə ətraflı şəkil-

də toxunduq. Bununla yanaşı, mediasiya prosesi nəticəsində əldə edələn barışıq sazişinin icrası ilə bağlı **beynəlxalq təcrübəni**, qısaca olaraq, nəzərdən keçirək.

Qeyd etməliyik ki, mediasiya sahəsində barışıq sazişləri həm də **universal səviyyədə** tənzimlənir. Belə ki, bu istiqamətdə, hər şeydən əvvəl, **“Mediasiya Nəticəsində Bağlanan Beynəlxalq Barışıq Sazişləri haqqında” BMT Konvensiyasının** adını çəkməliyik. Sözügedən Konvensiya 2018-ci il dekabrın 20-də qəbul edilmiş (Nyu-York) və 07.08.2019-cu il tarixində Sinqapurda keçirilən rəsmi mərasimdə 46 dövlət (ABŞ, Çin, Hindistan və s.) tərəfindən imzalanmışdır. Bu səbəbdən də, həmin sənəd, bəzən, **“Sinqapur Mediasiya Konvensiyası”** kimi tanınır. Bu Konvensiya mediasiyanın köməyi ilə tərəflər arasında bağlanmış barışıq sazişlərinin icrasının **asanlaşdırılmasına** xidmət edir.[1]

“Sinqapur Mediasiya Konvensiyası”nın **məqsədi** mediasiya nəticəsində bağlanmış beynəlxalq barışıq sazişlərini tənzimləməkdən ibarətdir. Konvensiya beynəlxalq barışıq sazişləri ilə bağlı yaranan münasibətlərə şamil edilir və o, barışıq sazişlərini **icra etmək hüququnun** realizasiyası üçün zəmin yaradır, habelə onların icrası üçün lazım olan zəruri **hüquqi baza** rolunu oynayır.

Eyni zamanda, yuxarıda adıçəkilən Konvensiya **beynəlxalq ticarəti asanlaşdırmaq** və **kommersiya mübahisələrinin həlli** istiqamətində alternativ və effektiv üsul kimi **mediasiyanı təşviq etmək** üçün qəbul edilmiş normativ hüquqi aktdır. Məcburi beynəlxalq-hüquqi akt kimi onun **mediasiya sahəsində beynəlxalq standartlara** müəyyənlik, konkretlik, əminlik və sabitlik gətirməsi, eləcə də **Dayanıqlı İnkişaf Məqsədlərinə** nail olunması işinə müvafiq töhfə verməsi gözlənilir. Konvensiya

[1] Bax: un.org: https://uncitral.un.org/ru/texts/mediation/conventions/international_settlement_agreements (30.08.2023-cü il).

dövlətlər və regional iqtisadi inteqrasiya birlikləri tərəfindən **imzalanmaq üçün açıqdır**.

Sözügedən Konvensiyanın **əsas müddəaları** aşağıdakılardan ibarətdir:

Bu Konvensiya kommersiya mübahisəsinin həlli üçün tərəflər arasında mediasiya nəticəsində əldə edilən və yazılı şəkildə bağlanan **beynəlxalq barışıq sazişlərinə** şamil edilir (maddə 1). Burada həmçinin Konvensiyanın **tətbiq sferasını** istisna edən hallar müəyyən edilmişdir. Belə **istisnalar dairəsinə** istehlakçı tərəfindən şəxsi, ailə və ya məişət məqsədləri üçün, yaxud ailə, vərəsəlik və ya əmək hüququ münasibətlərinə dair bağlanan **barışıq sazişləri aiddir**. Qüvvədə olan və ya gələcəkdə qəbul edilə biləcək **müvafiq konvensiyalar**, yəni "Xarici Arbitraj Qərarlarının Tanınması və İcrası haqqında" Nyu-York Konvensiyası (1958-ci il), "Məhkəmə Aidiyyəti barədə Müqavilələr haqqında" Konvensiya (2005-ci il) və "Mülki və ya Kommersiya Məsələləri üzrə Xarici Məhkəmələrin Qərarlarının Tanınması və İcrası haqqında" Konvensiya (2019-cu il) ilə üst-üstə düşmə, **mümkün təkrarlanma** hallarının qarşısının alınması üçün məhkəmə və ya arbitraj qərarı kimi icraya yönəldilə bilən barışıq sazişləri də Konvensiyanın **tətbiq sferasından çıxarılmışdır**.[1]

Bundan əlavə, 3-cü maddə həm barışıq sazişlərinin icrası, həm də mübahisə edən tərəfin Konvensiyanın əhatə etdiyi barışıq sazişini icra etmək hüququ ilə bağlı Konvensiya istirakçılarının **əsas vəzifələrindən** bəhs edir. Konvensiyanın hər bir iştirakçışı Konvensiyada hər hansı tələblərin irəli sürülməsi nəzərdə tutulmadığı hallarda əməl oluna biləcək **prosedur aspektlərini** özləri müəyyən edə bilər.

---

**1** Sözügedən Konvensiyanın əsas müddəaları və hüquqi təhlili barədə ətraflı bax: məsələn, Supra Legit, S.L. Основные положения и правовой анализ Сингапурской Конвенции о медиации – https://www. supralegit.com/ ru/blog/analiz-konvenczii-o-mediaczii/ (01.09.2023-cü il) .

Konvensiyanın 4-cü maddəsi barışıq sazişinə istinad etmə hallarının **rəsmi formallıqlarını** əhatə edir. Bu da, xüsusilə, onu ifadə edir ki, **mübahisə edən tərəf** səlahiyyətli orqana imzaladıqları barışıq sazişini və barışıq sazişinin mediasiya nəticəsində əldə edildiyinə dair **sübutları təqdim** etməlidir. Bununla yanaşı, səlahiyyətli orqan Konvensiyanın tələblərinə əməl olunduğu faktını yoxlamaq üçün istənilən **zəruri sənədi** tələb edə bilər.

Sözügedən BMT Konvensiyasına müvafiq olaraq, mediasiya üzrə köməklik göstərilməsindən **imtina üçün** bir sıra **hüquqi əsaslar** da mövcuddur:

– əgər barışıq sazişini imzalayan tərəfin hüquq qabiliyyəti olmayıbsa;

– barışıq sazişi etibarsız olduqda, öz hüquqi qüvvəsini itirdikdə və ya qanunla müəyyən edilmiş qaydada icrası mümkün olmadıqda;

– barışıq sazişi məcburi hüquqi qüvvəyə malik deyilsə, habelə tərəflərin tam və yekun qərarı sayılmırsa;

– əgər tərəflərin barışıq sazişi dəyişdirilibsə;

– barışıq sazişindəki öhdəliklər yerinə yetirildikdə və ya aydın olmadıqda;

– mediasiya üzrə yardım göstərilməsi barışıq sazişinin şərtlərinə zidd olarsa;

– mediator tərəfindən standartların pozulması halları baş veribsə;

– mediator onun qərəzsizliyinə və müstəqilliyinə şübhə yarada biləcək halları açıqlamamış və bunu nəzərə alaraq, tərəflərdən biri barışıq sazişi bağlaya bilməmişdirsə;

– klassik şərtlər publik qaydalara ziddiyyət təşkil etdikdə və bu mübahisənin mediasiya yolu ilə tənzimlənməsi mümkün olmadıqda və s.

Beləliklə, qeyd edə bilərik ki, **Sinqapur Mediasiya Konvensiyası** mediasiya nəticəsində bağlanmış barışıq sazişlərinin icrasını asanlaşdırır, başqa sözlə, mediasiya yolu ilə əldə edilmiş beynəlxalq barışıq sazişlərinin **icra mexanizmini sadələşdirir**.

Hal-hazırda məhkəmə və ya arbitraj proseslərindən kənarda **mübahisələrin alternativ həll üsulu** kimi mediasiya nəticəsində barışıq sazişi bağlayan tərəflər yalnız **vahid müqavilə əsasında** barışıq sazişinin icrasını həyata keçirə bilirlər.

## 3.3. Xüsusi xarakterli mediasiya prosedurları

### 3.3.1. Cinayət mühakimə prosesində zərərçəkən və təqsirkar şəxslərə münasibətdə mediasiya

Qeyd etməliyik ki, Azərbaycan Respublikasının ərazisində mübahisələrin alternativ həll üsullarından olan **mediasiyanın təşkili** və **həyata keçirilməsi** qaydaları "Mediasiya haqqında" Qanunla (MHQ) tənzimlənir. Lakin, adıçəkilən normatin hüquqi aktda **cinayət işləri üzrə icraatda** mediasiyanın tətbiq edilməsi nəzərdə tutulmur. Buna baxmayaraq, bir sıra ölkədə (məsələn, ABŞ, Avropa ölkələri, Rusiya Federasiyası, Qazaxıstan Respublikası və s.) cinayət prosesində xüsusi xarakterli **mediasiya institutundan** istifadə edilməsi praktikasına təsadüf olunur və bu barədə müvafiq mediasiya proqramları mövcuddur.

Eyni zamanda, nümunə qismində **Qazaxıstan Respublikasında** qüvvədə olan mediasiya qanunvericiliyini nəzərdən keçirdikdə belə bir maraqlı məqam diqqət çəkdi və məlum oldu ki, fiziki şəxslərin, eləcə də və hüquqi şəxslərin iştirakı ilə həm mülki, həm əmək, həm ailə, həm də digər hüquq münasibətlərindən irəli gələn və ya yaranan müvafiq aidiyyəti mübahisələrin alternativ metodla həlli, habelə cinayət məhkəmə icraatı qaydasında böyük ictimai təhlükə törətməyənvə az ağır cinayətlər, digər cinayət hüquq pozuntuları və icra icraatı prosesi həyata keçirilərkən yaranan ictimai münasibətlər mediasiya institutunun tətbiq sferasına aiddir.[1]

[1] Lalə Nağıyeva,Vəkillər Kollegiyasının üzvü.Mübahisələrin həllində mediasiyanın rolu//Azərbaycan Vəkili jurnalı, IX nömrə. Bakı, "TimePrint" mətbəəsi, 2016, s.2-6.

Yeri gəlmişkən qeyd edək ki, **xüsusi xarakterli** bu növ mediasiya proseduru hüquq ədəbiyyatı səhifələrində və elmi dövriyyədə **müxtəlif adlarla** ifadə olunur: məsələn, **"cinayət mediasiyası"**, **"restitusiya-bərpaedici mediasiya"**, **"zərərçəkən və təqsirkar mediasiyası"** və s.[1] Mediasiya sahəsində hüquqi baza massivini təhlil edərək və göstərilən anlayışları praktiki müstəvidə ümumiləşdirərək, hesab edirik ki, "**cinayət mühakimə prosesində zərərçəkən və təqsirkar şəxslərə münasibətdə mediasiya"** termininin işlədilməsi məntiqi cəhətdən daha ağlabatan və uğurlu variantdır.

Deməli, **cinayət mühakimə prosesində zərərçəkən və təqsirkar şəxslərə münasibətdə mediasiya** dedikdə maraqlı tərəf olan zərərçəkən şəxs ilə cinayət əməli üzrə təqsirli sayılan şəxs arasında təhlükəsiz və planlaşdırılmış şəraitdə müvafiq görüşün keçirilməsinə və cinayətin mediasiya çərçivəsində müzakirə edilməsinə imkan verən bir **proses başa düşülür**.

Bu kontekstdə qeyd etməliyik ki, məsələn, **Rusiya Federasiyasında** cinayət prosesi həyata keçirilərkən **mediasiya prosedurundan** səmərəli şəkildə istifadə olunur. Belə ki, **cinayət prosesində** vəkilin mediasiyaya cəlb edilməsi tərəflərin barışması üçün zərərçəkən və təqsirkar şəxslərin maraqlarını təmin edən **hüquqi mexanizmdir**.

---

[1] Bax: məsələn, Гускова А.П., Маткина Д.В. Медиация в уголовном процессе // Российский судья. Вып.2. М.:Юрист, 2009, с.34-37. https://cyberleninka.ru/article/n/priznanie-viny-kak-uslovie-mediatsii-v-ugolovnom-protsesse/viewer (02.09.2023-cü il); Перекрестов В.Н. Признание вины как условие медиации в уголовном процессе // Вестник Волгогр. Гос. Унив. Сер.5. Юриспруденция. 2011, №1(14), с.205-295; Рустем Максудов. Восстановительная медиация. Практическое руководство для специалистов, реализующих восстановительный подход в работе с конфликтами и уголовно наказуемыми деяниями с участием несовершеннолетних. Кострома, Программа сотрудничества ЕС и России. Проект «Совершенствование доступа к правосудию», 2011, 86 с. http://www.eduportal44.ru/Kostroma_EDU/Kos-Sch-6/DocLib80/2004-2011. pdf (02.09.2023-cü il) və b.

Cinayət prosesinə cəlb edilmiş təcrübəli və peşəkar **mediatorun vasitəçiliyi** ilə cinayət işi üçün əhəmiyyət kəsb edən aşağıdakı **nüansların realizasiyası** mümkündür:

– zərərçəkən şəxs cinayət əməli üzrə təqsirli sayılan şəxsə cinayətin fiziki, psixoloji və maddi təsirləri barədə müvafiq məlumatlar verə bilər;

– zərərçəkən şəxs cinayət əməli üzrə təqsirli sayılan şəxsdən törədilmiş cinayət və təqsirkar subyekt haqqında gecikmiş suallara ətraflı cavab ala bilər;

– təqsirkar şəxs tərəfindən dəymiş maddi zərərin ödənilməsi üçün məqbul ödəmə variantlarının hazırlanmasında zərərçəkən şəxs birbaşa içtirak edə bilər.

Eyni zamanda, qeyd etməliyik ki, hüquqazidd əməl üzrə **mübahisənin tənzimlənməsi** cinayət əməlinin bir çox **tərkib elementləri** üzrə mümkündür, hətta cinayət təqibinin dayandırılması və ya ona xitam verilməsi hallarına da **icazə verilir.** Cinayət prosesində mediasiya prosedurunun tətbiq edilməsi daim **diqqətə çəkilməlidir**, çünki, bu, tərəflərə ciddi cəza və ağır nəticələr olmadan daha böyük dərəcədə **ədalətə nail olmağa** kömək edir.

Cinayət işi üzrə münaqişənin tənzimlənməsinə kömək etmək üçün **mediasiya prosesinə** mümkün qədər tez və **peşəkar hüquqşünas** cəlb etmək vacib məsələdir.[1]

Cinayət prosesində zərərçəkən və təqsirkar şəxslərə münasibətdə mediasiya proseduru əsas **hədəflər** kimi aşağıdakıları ehtiva edir:

– cinayət əməli üzrə təqsirkar sayılan şəxslə zərərçəkən şəxsin könüllü şəkildə görüşməsini, danışıqlar aparılması üçün təhlükəsiz və nəzarət edilən şəraitin təmin edilməsi ilə zərərçəkən şəxsin reabilitasiyası prosesinə dəstək verilməsi;

---

[1] Bu məsələlər barədə ətraflı bax: Алексей Благодов. Процедура медиации в уголовном процессе//https://xn----7sbbajl7bd5an5ab.xn--p1ai/procedura-mediacii-v-ugolovnom-processe (03.09.2023-cü il).

– cinayət əməlinin zərərçəkən şəxsə təsiri barədə təqsirkarın müvafiq məlumat almasına və davranışlarına görə birbaşa məsuliyyəti öz üzərinə götürməsinə əlverişli imkan verilməsi;

– cinayət əməli nəticəsində vurulan zərərlərin ödənilməsi üçün zərərçəkən və təqsirkar şəxs arasında qarşılıqlı şəkildə münasib zəruri plan hazırlanması niyyəti ilə zəruri fürsət yaradılması.

Cinayət prosesində **mediasiyanın imkanları** barədə qeyd edə bilərik ki, barışdırıcı prosedurun həyata keçirilməsi münaqişənin **alternativ həll metodunu** ehtiva edir. Bu zaman tərəflər və müstəqil vasitəçi hər kəsi qane edən və ya hamı üçün məqbul olan həll yolu tapırlar; hətta cinayət mediasiyasının imkanları, bəzən, cinayət prosesində **tərəflərin barışmasının** nəticələri ilə bərabərləşdirilir. Münaqişənin həlli üçün tərəflərin barışıq prosedurundan istifadə etmə metodunun aşağıda göstərilən bir neçə **məqbul ssenari variantı** mövcuddur:

– cinayət törətmiş təqsirli şəxsə qarşı cinayət təqibinə xitam verilməsi;

– cinayət törətmiş təqsirli şəxsə qarşı cəzanın yüngülləşdirilməsi;

– təqsirləndirilən şəxs mediasiya prosesi zamanı öz təqsirini boynuna götürə, onu düzəldə, zərərçəkmişdən üzr istəyə bilər;

– cinayət əməli nəticəsində zərərçəkmiş şəxsə dəymiş maddi və mənəvi ziyanın tam həcmdə ödənilməsi;

– cinayət prosesində ilkin dinləmənin təyin edilməsi məqsədi ilə mediasiya prosedurunun tətbiqinə təşəbbüs göstərilməsi. İşə xitam verilməsi üçün qanuni əsaslar olduqda, məhkəmə əlavə icraat aparılmadan iclasda tərəflərin barışdırılması barədə qərar qəbul edə bilər.

Cinayət hüququnda tətbiq edilən **mediasiya prosedurunu xarakterizə edən əsas xüsusiyyətlər** kimi aşağıda qeyd olunan mümkün aspektləri fərqləndirə bilərik:

– zərərçəkən şəxs konkret olaraq müəyyən edilməlidir. Hüquq pozuntusu, mümkün olduğu təqdirdə, iştirakçıları dəqiq

müəyyən edilmiş tərəflərarası münaqişə kimi səciyyələndirilə bilər. Konkret zərərçəkmiş şəxsə dəymiş ziyanın miqdarını və həcmini müəyyən etmək mümkün olmadığı halda, cinayət işi üzrə barışıq məqsədi ilə mediasiyaya təşəbbüs göstərilməməlidir;

– cinayət törətmiş şəxs törətdiyi cinayət faktını etiraf etməlidir. Bu, münaqişənin konstruktiv həllinə doğru atılan ilk addımdır. Təqsirləndirilən şəxs öz təqsirini boynuna alır, qarşı tərəfə və ya tərəflərə zərər vurduğunu başa düşür və onlara dəymiş zərəri mümkün vasitələrlə ödəməyə hazır olduğunu bildirir. Əgər şübhəli və ya məhkum edilmiş şəxs öz səhv hərəkətlərindən peşman olduğunu bildirməyə hazır deyilsə, cinayət prosesində mediasiyanın tətbiq olunması imkanlarına baxılmır;

– törədilmiş cinayətin xarakteri və ağırlığı nəzərə alınmalıdır. Bu zaman söhbət yalnız kiçik və ya orta ağırlıqlı cinayətlərindən gedə bilər. Əgər şəxs arsız-ədəbsiz və ya qəsdən cinayət törədibsə, çox güman ki, o, günahını etiraf etməyəcək, bağışlanma diləməyəcək və dəymiş ziyanı ödəməyəcək. Eyni zamanda, ölüm və ya sağlamlığa ağır zərər vurulması hadisələri qəsd olmadan törədildiyi hallarda cinayət prosesində mediasiya prosedurunun tətbiq praktikası mövcuddur. Belə ki, ölən şəxsin qohumları və cinayət törətmiş şəxs barışığa gələ bilərlər və sairə aspektlər.

Cinayət prosesində mediasiya proseduru mülki, kommersiya, ailə və əmək mübahisələrində tətbiq edilən **mediasiyadan fərqlidir**, eləcə də onlar **oxşar statusa malik deyillər**. Belə ki, cinayət prosesində tətbiq edilən mediasiyada bir tərəf cinayət əməlinin törədilməsində təqsiri sübuta yetirilmiş təqsirkar şəxsdir, digər tərəf isə cinayət hadisəsi üzrə zərərçəkən şəxsdir; bununla yanaşı, həmçinin mediasiya prosesi, əsasən, iş üzrə barışığın əldə edilməsinə yönəldilmir. Lakin, bütün bunlara baxmayaraq, əksər sessiyalar **restitusiya müqaviləsinin** imzalanması ilə nəticələnir.

Eyni zamanda, qeyd etməliyik ki, hal-hazırda elmi dövriyyədə mediasiya institutunun **cinayət mühakimə icraatında** tətbiqinin effektivliyi barədə təqdirəlayiq mülahizələr irəli sürülür.[1]

### 3.3.2. Ombudsman proqramları üçün mediasiya

Beynəlxalq mediasiya praktikasında **Ombudsman proqramları** çərçivəsində xüsusi xarakterli **mediasiya prosedurlarının** həyata keçirilməsinə rast gəlinir. Belə ki, Ombudsman fiziki və hüquqi şəxslərə, eləcə də digər maraqlı tərəflərə onların fəaliyyəti ilə bağlı yaranan problemlərin həllində **müvafiq köməklik** göstərir. Bu zaman mövcud olan problemlər müstəqillik, neytrallıq, qərəzsizlik, məxfilik şəraitində və könüllülük əsasında qeyri-rəsmi formada, yəni **mediasiya yolu** ilə öz həllini tapa bilər. Ombudsman qurumu **müstəqil mexanizm** kimi insan hüquqlarının qorunması ilə yanaşı, cəmiyyətdə **biznes mühitinin yaxşılaşdırılması** və **maraqlı tərəflərin etimadının artırılması** istiqamətində də fəaliyyət göstərir.

BMT-nin İnsan Hüquqları Şurasının 16.06.2011-ci il tarıxli 17/4 saylı Qətnaməsi ilə qəbul edilmiş **"Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplər"** Ombudsman strukturunun fəaliyyəti və rolu barədə məlumatlılıq səviyyəsinin artırılması kontekstində mühüm əhəmiyyət kəsb edir. Rəhbər Prinsiplərin **"Hüquq-müdafiə vasitələrinə çıxış"** (25-31-ci prinsiplər) adlı

---

[1] Mediasiyanın cinayət mühakimə icraatında tətbiqinin effektivliyi barədə ətraflı bax: Qəfərov Midhəd Seyidəhməd oğlu, hüquq üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrası Kişiyeva Aysel Zakir qızı, Bakı Dövlət Universitetinin "Cinayət prosesi" kafedrasının doktorantı. "Mediasiya" institutunun cinayət prosesində tətbiqi haqqında mülahizələr // "Qanun" jurnalı, 07 (297). Bakı, 2019, s.49-56; Василенко А.С. Медиация в уголовном процессе США. Вестник Пермского Университета, 2012, вып 2 5; Головко Л.В. Альтернативы уголовному преследованию в современном праве. Спб: «Изд. Юридический центр Пресс», 2002, 544 c. və b.

3-cü komponenti xüsusi maraq doğurur. Belə ki, bu komponent biznes fəaliyyəti kontekstində insan hüquqlarının pozulması hallarında zərərçəkən şəxslərin qanuni, əlçatan, adekvat, ədalətli, şəffaf və effektiv **müdafiə vasitələrinə çıxışın** olmasını nəzərdə tutur. Sözügedən komponent məhkəmələr, dövlət əsaslı, habelə şirkətlər tərəfindən həyata keçirilən qeyri-dövlət əsaslı **məhkəmədənkənar mexanizmlər** üçün şikayətlərə baxılmasının effektivlik kriteriyalarını da müəyyən edir. Burada, həmçinin mübahisələrin həllinin maraqlı tərəflər arasında **qarşılıqlı dialoqa** əsaslanmalı olduğu qeyd edilir.[1] Söhbət, təbii ki, **mediasiya prosedurundan** gedir.

Azərbaycan Respublikasında **Ombudsman termini** həm də İnsan hüquqları üzrə müvəkkil (Müvəkkil) anlayışını ehtiva edir. Belə ki, Azərbaycanda **İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu** fəaliyyət göstərir və bu sahədə müvafiq Konstitusiya Qanunu qəbul edilmişdir.

Bu normativ hüquqi aktda, yəni Konstitusiya Qanununda İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) **fəaliyyətinin əsaslarını** tənzimləyən kifayət qədər hüquq normaları yer almışdır (maddə 1). Qeyd etməliyik ki, İnsan hüquqları üzrə Müvəkkil **vəzifəsi** Azərbaycan Respublikası Konstitusiyasında və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və Azərbaycan Respublikasının dövlət orqanları, bələdiyyələr, habelə dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) və büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün **təsis edilmişdir**.

---

[1] Ətraflı bax: Səbinə Əliyeva. BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinə ümumi baxış. Bakı, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili, UNDP, 2023, 12 s.

Ombudsman "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş **milli preventiv mexanizmin** funksiyalarını həyata keçirir. İşgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısını almaq məqsədi ilə o, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm surətdə və ya zəruri saydığı istənilən halda baş çəkir.[1]

Eyni zamanda, Müvəkkil "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə **müstəqil monitorinq mexanizminin** funksiyalarını həyata keçirir. **Müvəkkilin** məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair **şikayətlərə baxmaq hüququ** vardır.

Ombudsman **insan hüquqları sahəsində** dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin təhlilini apara, rəy və təkliflərini müvafiq sahədə monitorinq və qiymətləndirməni həyata keçirən **quruma təqdim** edə bilər.

Qeyd etməliyik ki, düzdür, **mediasiya haqqında qanunvericilikdə** Ombudsmanın mediasiya prosedurlarında **birbaşa iştirak etməsi** nəzərdə tutulmamışdır. Lakin müasir dövrdə ölkəmizdə mediasiya fəaliyyəti ilə bağlı şikayətlərin araşdırılması, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə işinin təşkili məqsədilə Ombudsman Aparatı və Mediasiya

[1] Ətraflı bax: "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının 28 dekabr 2001-ci il tarixli 246-IIKQ nömrəli Konstitusiya Qanunu https://e-qanun.az/framework/1407 (04.09.2023-cü il).

Şurası arasında **sıx əməkdaşlıq** formalaşmışdır. Belə ki, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə **"Mediasiya prosesləri zamanı əmək mübahisələrinin uğurlu həllində dövlət orqanlarının və işəgötürənlərin rolu"** adlı ictimai müzakirə keçirilmiş, Ombudsman Aparatı və Ədliyyə Nazirliyi tərəfindən **"Ailə-nikah münasibətlərinin inkişafı: çağırışlar, islahatlar, perspektivlər"** mövzusunda ictimai müzakirə təşkil edilmiş, eləcə də Ombudsmanın Gəncə Regional Mərkəzi və Tovuz Gənclər Evi Sosial Xidmət Müəssisəsinin birgə təşkilatçılığı, gənclərin geniş iştirakı ilə **"Mediasiya institutunun insan hüquqlarının qorunmasında rolu"** mövzusunda onlayn hüquqi maarifləndirici təlim və s. birgə tədbirlərin həyata keçirilməsi reallaşdırılmışdır.[1]

Belə bir təqdirəlayiq məqamı da, xüsusilə, qeyd etməliyik ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə **"Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"** təsdiq edilmişdir.[2] Sərəncamın icrası ilə bağlı **Tədbirlər Planında** ailədaxili mübahisələrin həlli ilə bağlı **mediasiya xidmətlərinin** tətbiqinin genişləndirilməsi üçün müvafiq tədbirlər görülməsi, **mediasiya hesabına** həll edilən ailədaxili mübahisələrin xüsusi çəkisinin illər üzrə müsbət dinamikasına nail olunması barədə müddəalar geniş yer almışdır (bənd 8.4.6.). və bu da **mediasiyaya inamın**, eləcə də onun inkişafına **dövlət dəstəyinin** bariz təcəssümüdür.

Beləliklə, qeyd edə bilərik ki, müxtəlif Ombudsman proqramları çərçivəsində **mediasiya problemlərinə toxunulması** Ombudsman aparatının funksiyalarından biri kimi təsəvvür edilə

---

[1] Ətraflı bax: https://ombudsman.az/az/view/search/ (05.09.2023-cü il).
[2] Sərəncamın mətni üçün bax: https://president.az/az/articles/view/60947 (05.09.2023-cü il).

bilər.[1] Bununla yanaşı, Ombudsman proqramları mediasiyada mübahisələrin həlli üzrə **təşəbbüslər** və ya **dialoq prosesi** kimi də təqdim oluna bilər.

### 3.4. Mediasiya prosesinə dair xərclər

#### 3.4.1. Mediasiya xidmətinin göstərilməsinə görə haqq və digər xərclər

Hər şeydən əvvəl qeyd edək ki, mediasiya xidmətinin həyata keçirilməsi üçün **müvafiq xərclərə** dair münasibətlər mediasiya haqqında qanunvericiliklə tənzimlənir. Belə ki, MHQ-də təsbit olunduğu kimi, mediasiya prosesinə dair **xərclər kateqoriyasına** aşağıdakı ödənişlər daxildir (MHQ, maddə 36):

– mediasiya xidmətinin göstərilməsinə görə mediatora və ya mediasiya təşkilatına ödənilən haqq;

– mübahisə mediasiya vasitəsilə müsbət həll olunduqda mediatora və ya mediasiya təşkilatına ödənilən mükafat;

– mediasiyanın həyata keçirilməsi ilə əlaqədar mediatorun və ya mediasiya təşkilatının çəkdiyi xərclər;

– həmçinin mediasiya prosesinin həyata keçirilməsi zamanı mübahisənin baxıldığı yerə getmək üçün yol, yaşayış və yemək xərcləri.[2]

Eyni zamanda, mediasiya qanunvericiliyində nəzərdə tutulmuşdur ki, kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə tərəflər məhkəməyə müraciət etməmişdən əvvəl (yəni iddia ərizələri verməmişdən əvvəl) **ilkin mediasiya sessiyasında** iştirak etməlidirlər (MHQ, maddə 28). Bu halda, yəni ilkin mediasiya sessiyası za-

---

[1] Ombudsman proqramları üçün mediasiya barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.103-105.

[2] Ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.30-31.

manı mediasiya xidmətinin göstərilməsinə görə **haqqın** və digər **xərclərin məbləği** Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi orqan (qurum) – **Nazirlər Kabineti** tərəfindən müəyyən edilir.

Müvafiq **"ASAN xidmət" mərkəzinə** müraciət etməklə bağlı bildiririk ki, ilkin mediasiya sessiyasını tərəflərin qarşılıqlı razılaşdırdığı mediator və ya mediator təşkilatı aparır. Bu, o deməkdir ki, müəyyən ərazidə yaşasalar da, qarşılıqlı razılıq olduğu təqdirdə digər ərazidə yerləşən mediatora və ya mediator təşkilatına **müraciət edilməsi** mümkündür. Əgər qarşılıqlı razılıq olmadığı halda ilkin mediasiya sessiyası tərəflərdən hər hansı birinin **ilkin müraciət etdiyi**, mübahisənin aidiyyəti üzrə aid olduğu məhkəmə ilə eyni şəhər və ya rayonda yerləşən mediasiya təşkilatı, həmin şəhər və ya rayonda mediasiya təşkilatı olmadıqda isə həmin məhkəmənin yerləşdiyi inzibati ərazi vahidinə ən yaxın şəhər və ya rayonlardan birində yerləşən **mediasiya təşkilatı** tərəfindən aparılır.[1]

İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləği Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 308 nömrəli Qərarı ilə təsdiq edilmiş **“İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqqın və digər xərclərin məbləğinə”** əsasən müəyyən edilir.[2] İlkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə haqq **mübahisənin növü** üzrə aşağıdakı məbləğlərdə **diferensial qiymətlər** müəyyən edilmişdir:

– ailə münasibətlərindən irəli gələn mübahisələr üzrə – 50 manat;

– əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə – 50 manat;

kommersiya mübahisələri üzrə:

---

[1] https://asan.gov.az/service/asan-xidmetler/funksional-yardimci-xidmetler/mediasiya-xidmeti (08.09.2023-cü il).

[2] Ətraflı bax:URL: https://nk.gov.az/ (09.09.2023-cü il).

iddia qiyməti 500 manatadək olduqda – 20 manat;

iddia qiyməti 501 manatdan 1000 manatadək olduqda – 40 manat;

iddia qiyməti 1001 manatdan 5000 manatadək olduqda – 60 manat;

iddia qiyməti 5001 manatdan 10000 manatadək olduqda – 100 manat;

iddia qiyməti 10001 manatdan 50000 manatadək olduqda – 200 manat;

iddia qiyməti 50000 manatdan çox olduqda – 400 manat.

Göstərilənlərlə yanaşı, **mediasiya xərcləri** mediator və tərəflərin qarşılıqlı razılığı əsasında müəyyən edilir. İlkin mediasiya sessiyasının təşkil edilməsi ilə bağlı mediator və ya mediasiya təşkilatının çəkdiyi **poçt**, **kargüzarlıq** və digər **cari xərclərin məbləği** təsdiqedici sənədlər əsasında **10 manatdan** çox olmayaraq müəyyən edilir.

Göründüyü kimi, mediator və ya mediasiya təşkilatı mediasiyanı **ödənişli əsaslarla** həyata keçirir. Lakin mediator və ya mediasiya təşkilatı öz razılığı ilə mediasiyanı **ödənişsiz əsaslarla da** həyata keçirə bilər.

Eyni zamanda, qeyd etməliyik ki, mediatora və ya mediasiya təşkilatına **ödənilən haqqın məbləği** mediasiya sessiyası başlanana qədər (MHQ-nin 28-ci və 29-cu maddələrində nəzərdə tutulan hallarda isə MHQ-nin 29.5-ci maddəsi nəzərə alınmaqla sonrakı mediasiya sessiyası başlanana qədər) tərəflərlə mediator və ya mediasiya təşkilatı arasında mediasiya qanunvericiliyinə uyğun olaraq bağlanan **müqavilədə** müəyyən olunur.

Eləcə də "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə"də və mediasiyaya dair qeyd-şərtdə başqa şərt nəzərdə tutulmayıbsa, həmçinin ilkin mediasiya sessiyasında tərəfin üzrsüz səbəbdən iştirak etməməsi halında digər tərəfin bütün **mediasiya xərclərini ödədiyi hallar istisna olmaqla**, mediasiyaya çəkilən xərclər tərəflər arasında **bərabər şəkildə** bölüşdürülür.

Mediasiyaya dair qeyd-şərtə və ya "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə"nin şərtlərinə zidd olaraq mediasiyada, həmçinin ilkin mediasiya sessiyasında üzrsüz səbəbdən **iştirak etməyən tərəf** mediasiya ilə bağlı digər tərəfin çəkdiyi **bütün mediasiya xərclərini** ona ödəməlidir.

Əgər **mediator** onun qərəzsizliyinə mane olan şərtlər səbəbindən mediasiyanın keçirilməsindən **imtina edərsə**, belə halda tərəflərin ödədiyi məbləği (faktiki çəkilmiş xərclər çıxılmaqla) **geri qaytarmalıdır**. Həm də barışıq sazişi imzalandıqdan sonra mediator tərəflərə çəkilmiş xərclər barədə hesabat verir və **xərclənməmiş qalıq məbləği** onlara qaytarır.

### 3.4.2. Mediasiya xərclərinin dövlət büdcə vəsaiti hesabına ödənilməsi

Mediasiya haqqında qanunvericilikdə nəzərdə tutulmuşdur ki, mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan hər hansı tərəfin mediasiya xərclərinin ödənilməsi **dövlət büdcə vəsaiti** hesabına həyata keçirilir (MHQ, maddə 36.7). Mediasiya xərclərinin dövlət büdcə vəsaiti hesabına ödənilməsi qaydası **Azərbaycan Respublikasının Nazirlər Kabineti** tərəfindən müəyyən edilmişdir. Söhbət Nazirlər Kabinetinin 2019-cu il 16 avqust tarixli 360 nömrəli Qərarı ilə təsdiq olunmuş "**Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası**"ndan gedir.[1]

Adıçəkilən normativ hüquqi akt ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə ödənilən haqqın və digər xərclərin, yəni **mediasiya xərclərinin** dövlət büdcə vəsaiti hesabına ödənilməsi qaydasını müəyyən edir. Belə ki, mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxsin mediasiya xərcləri, həmin xərclərin tə-

---

[1] Qaydanın mətni ilə tanış olmaq üçün ətraflı bax: AR QT. Bakı, 2019, № 8, maddə 1465.

rəflər arasında bərabər bölüşdürülməsi amili nəzərə alınmaqla, dövlət büdcəsində bu məqsədlər üçün **Mediasiya Şurasına nəzərdə tutulmuş vəsaitlər** hesabına ödənilməsi təmin edilir (Qayda, bənd 2.1).

Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxslərin mediasiya xərcləri həmin şəxslərlə ilkin mediasiya sessiyası həyata keçirən **mediatorun və ya mediasiya təşkilatının** bu Qaydanın mətnində təsbit edilmiş müddəalara uyğun olaraq, təqdim etdiyi müvafiq sənədlər əsasında Mediasiya Şurası tərəfindən həmin mediatora və ya mediasiya təşkilatına **nağdsız qaydada** ödənilir.

Adıçəkilən Qayda ehtiva edir ki, mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan **fiziki şəxslər kateqoriyasına** aşağıdakılar aiddir (Qayda, bənd 2.3-1):

– ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

– Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin müvafiq yerli qurumlarında və "DOST" mərkəzlərində işsiz kimi qeydiyyatda olan şəxslər.

Mediasiya xərclərini dövlət büdcə vəsaitləri hesabına almaq üçün mediator və ya mediasiya təşkilatı **aşağıda göstərilən sənədləri** Mediasiya Şurasına təqdim edir:

– mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxsin bu barədə ərizəsinin surəti;

– fiziki şəxsin bu Qaydanın mətnində qeyd edilən kateqoriyalardan birinə aid olduğunu təsdiqləyən sənədin surəti;

– "İlkin mediasiya sessiyasından sonra prosesin davam etdirilə bilməməsi" ilə bağlı arayışın və ya "Mediasiya prosesinin tətbiqi barədə Müqavilə"nin surəti;

– ilkin mediasiya sessiyasının təşkil edilməsi ilə bağlı mediator və ya mediasiya təşkilatının çəkdiyi poçt, kargüzarlıq və digər cari xərclərlə bağlı təsdiqedici sənədlər;

– çəkilmiş xərclər barədə müvafiq hesabat.

Mediasiya prosesində iştirak edən **fiziki şəxsin** bu Qaydanın mətnində qeyd edilən kateqoriyalardan birinə aid olduğunu **təsdiqləyən sənəd** onun müraciəti əsasında Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir. Fiziki şəxs həmin sənədi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin **"e-sosial" internet portalında** yaradılan elektron kabineti vasitəsilə və ya **"DOST" mərkəzlərinə** müraciət etməklə əldə edə bilər.

Mediasiya xərclərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan fiziki şəxslərin mediasiya xərclərinin ödənilməsi üçün mediator və ya mediasiya təşkilatına **ödənilən vəsaitin məbləği** "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsinə uyğun olaraq,[1] ilkin mediasiya sessiyası zamanı mediasiya xidmətinin göstərilməsinə görə **haqqın** və **digər xərclərin** Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunmuş məbləğindən **artıq olmamalıdır**.

Mediasiya Şurası bu Qaydanın mətnində nəzərdə tutulmuş sənədlərə Şuraya daxil olduğu tarixdən **10 iş günü müddətində** baxaraq, müvafiq **tədbirlər görür** (Qayda, bənd 2.7). Təqdim olunmuş sənədlərdə **çatışmazlıqlar aşkar edildikdə**, bu barədə mediatora və ya mediasiya təşkilatına müraciətin daxil olduğu gündən **5 (beş) iş günü müddətində** (bu müddət sözügedən Qaydanın 2.7-ci bəndində nəzərdə tutulmuş müddətə daxil edilmir) **yazılı bildiriş** göndərilir. **Çatışmazlıqlar** mediator və ya mediasiya təşkilatı tərəfindən bildirişin alındığı tarixdən 5 (beş) iş günü müddətində **aradan qaldırılmalıdır**.

Mediasiya xərclərinin ödənilməsindən **imtina etmək üçün əsaslar olmadıqda**, mediasiya xərcləri Mediasiya Şurası tərəfindən müvafiq mediatora və ya mediasiya təşkilatına **ödənilir**.

---

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.24-25.

Mediasiya xərclərinin ödənilməsindən aşağıdakı hallarda **imtina edilir** və bu barədə mediatora və ya mediasiya təşkilatına imtinanın səbəbləri göstərilməklə, **yazılı məlumat verilir**:

– təqdim olunan sənədlərdə aşkar edilmiş çatışmazlıqlar müvafiq qaydalara uyğun olaraq aradan qaldırılmadıqda;

– təqdim edilmiş sənədlərdə təhrif olunmuş məlumatlar mövcud olduqda.

Sözügedən "Mediasiya xərclərinin dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi Qaydası" adlı normativ hüquqi aktda mediasiya xərclərinin ödənilməsi üçün nəzərdə tutulan vəsaitin istifadəsinə dair **xüsusi tələblər** də irəli sürülür (Qayda, bənd 3). Belə ki, mediasiya xərclərinin ödənilməsinə ayrılan vəsait bu Qaydada nəzərdə tutulmayan **digər məqsədlər** üçün **istifadə edilə bilməz**. Mediasiya xərclərinin ödənilməsinə ayrılan vəsaitin il ərzində **istifadə edilməyən hissəsi** ilin sonunda **dövlət büdcəsinə geri qaytarılır**.

Həmçinin Mediasiya Şurası hər rüb üzrə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq, bu Qaydaya uyğun olaraq rüb ərzində **faktiki mediasiya xərcləri** ödənilən fiziki şəxslərin sayı (adı, soyadı və ünvanı göstərilməklə) və **ödənilmiş vəsaitlərin məbləği** barədə məlumatları **Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə** təqdim edir.

Eyni zamanda, qeyd etməliyik ki, mediasiya prosesi nəticəsində **barışıq sazişi bağlanmadığı hallarda** məhkəmədən əvvəl mediasiya prosesi ilə bağlı xərclərin öz üzərinə düşən hissəsini ödəmiş tərəfin və ya mediasiya qanunvericiliyinə uyğun olaraq, mediasiya xərclərini ödəmiş tərəfin məhkəməyə müraciət edərkən dövlət rüsumundan azad olunması məsələsi **"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu** ilə müəyyən edilir. Məhkəməyə müraciət etdikdən sonra tərəflər arasında mediasiya prosesinin nəticəsində barışıq sazişi imzalanarsa, **ödənilmiş dövlət rüsumu**, mediasiya qanunvericiliyinə əsasən, **Azərbaycan Respublikasının Mülki**

**Prosessual Məcəlləsinə** müvafiq qaydada **geri qaytarılır** (MHQ, maddə 3.4).

Xüsusi maraq doğuran məqamlardan biri də ondan ibarətdir ki, **"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında"** Azərbaycan Respublikasının 9 iyun 2023-cü il tarixli 904-VIQD nömrəli Qanunu qəbul edilmişdir.[1] Adıçəkilən Qanun ölkə ərazisində **Azərbaycan Respublikası Prezidentinin** 26.07.2023-cü il tarixli **Fərmanı** ilə tətbiq olunur.[2]

MPM-ə edilmiş **dəyişikliyə əsasən**, "bu Məcəllə ilə müəyyən edilmiş hallarda, vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan şəxs maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi üçün **dövlət hesabına** peşəkar hüquqi yardım almaq **hüququna malikdir**" (MPM, maddə 14.5).

Göstərilən MPM-ə aşağıdakı məzmunda 67-1-ci maddə də əlavə edilmişdir: **"Maddə 67-1. Vəkilin prosesdə dövlət hesabına iştirakı".**

67-1.1. Bu Məcəllə ilə vəkilin prosesdə **məcburi iştirakı** tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə **dövlət hesabına** vəkilin prosesdə istirakını təmin edir.

67-1.2. Birinci və apellyasiya instansiya məhkəmələrində **mülki işlər üzrə** məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə **peşəkar hüquqi yardıma** ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər

---

[1] Ətraflı bax: https://e-qanun.az/framework/54710 (10.09.2023-cü il).

[2] Bu barədə bax: https://president.az/az/articles/view/60597 (10.09.2023-cü il).

vəsaiti olmayan şəxsin müraciətinə əsasən **vəkil qurumunun ərizəsi** əsasında həmin qurumun yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən **şəxsin yazılı müraciəti** əsasında **işə baxan məhkəmə** tərəfindən baxılır.

67-1.3. Bu Məcəllənin 67-1.1-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin, habelə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan işdə iştirak edən digər şəxslərin vəkil tərəfindən göstərilən **hüquqi yardım haqqını ödəməkdən azad edilməsi** və ödəmənin Azərbaycan Respublikasının **dövlət büdcəsi vəsaiti hesabına** həyata keçirilməsi və ya bundan **imtina barədə əsaslandırılmış qərardad** qəbul edir.

67-1.4. Bu Məcəllənin 67-1.2-ci maddəsində nəzərdə tutulmuş hallarda məhkəmə **iddia tələbinin** kifayət qədər əsaslılığına dair **ilkin sübutların mövcudluğunu** nəzərə alaraq, **aşağıdakı şəxslərin** vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə **əsaslandırılmış qərardad** qəbul edir:

67-1.4.1. orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;

67-1.4.2. insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;

67-1.4.3. valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar;

67-1.4.4. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;

67-1.4.5. müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;

67-1.4.6. maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

67-1.5. Məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində nəzərdə tutulmuş şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan **15 gün müddətində**, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə **təxirə salınmadan** baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardadla bağlı bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

67-1.6. Məhkəmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə **ödənilmiş vəsaitin** iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq, əleyhinə məhkəmə qərarı çıxarılmış **digər şəxsdən** tutularaq **dövlət büdcəsinə ödənilməsini** iş üzrə yekun qərarında qət edə bilər.

Düşünürük ki, MPM-in 67-1.4-cü maddəsində nəzərdə tutulmuş şəxslərin siyahısına **Şəhid ailə üzvlərinin, Vətən müharibəsi veteranlarının, Çoxuşaqlı ailə üzvlərinin** və digər **aztəminatlı sosial qrup üzvlərinin** də əlavə edilməsi məqsədəuyğun hal kimi dəyərləndirilə bilər.

Müasir dövrdə MPM mediasiya hüququnun mənbəyi kimi çıxış etdiyi üçün onda təsbit edilmiş müddəaların **mediasiya prosessual hərəkətləri** həyata keçirilən zaman tətbiq edilməsi olduqca aktual görünür.

Beləliklə, yuxarıda şərh olunanları yekunlaşdıraraq və ümumilikdə nəzərə alaraq, qeyd edə bilərik ki, **mediasiya prosesinin həyata keçirilməsi** ilə əlaqədar yaranan ictimai münasibətlər müvafiq mediasiya-hüquq normaları vasitəsilə tənzimlənir. Bu hüquq normalarının sistemi və məcmusu mediasiya hüquq institutunun **xüsusi hissəsinin** tərkibində formalaşmış **mediasiya prosesi subinstitutu** adlanır.

# IV FƏSİL. MEDİASİYADA KOMMUNİKASİYA VƏ ONUN İDARƏ EDİLMƏSİ

## 4.1. Mediasiyada kommunikasiya prosesi

### 4.1.1. Kommunikasiya prosesinin anatomiyası

Mediasiya zamanı kommunikasiya prosesinin həyata keçirilməsi və bu prosesin idarə edilməsi ilə əlaqədar müəyyən növ **ictimai münasibətlər** əmələ gəlir. Tərəflər arasında kommersiya mübahisələri, həmçinin ailə, əmək və inzibati münasibətlərindən irəli gələn mübahisələrlə bağlı mediasiya prosesinin həyata keçirilməsi, kommunikasiyanın qurulması və onun idarə edilməsi prosedurları ilə əlaqədar yaranan hüquq münasibətləri müvafiq **mediasiya-hüquq normaları** sistemi vasitəsilə tənzimlənir. Bu hüquq normalarının məcmusu müasir dövrdə mediasiya hüquq institutunun **xüsusi hissəsinin** tərkibində formalaşmış **"mediasiyada kommunikasiya və onun idarə edilməsi"** kimi adla ifadə olunan **subinstitut** statusuna malikdir.

Qeyd etməliyik ki, mediasiya, mahiyyət etibarilə, mübahisə edən tərəflər arasında asanlaşdırılmış və sadələşdirilmiş **danışıqlar prosesidir.** Ən sadə fomada ifadə etsək **"...kommunikasiya informasiya ötürülməsi, fikir bölüşməsi (ünsiyyət) prosesidir."** [1] Eləcə də, mediasiya ortaq problemlərə dair münasib həll yolu axtaran iki və ya daha çox tərəf arasında yaranan **kommunikasiya prosesini** ifadə edir.

Eyni zamanda, **"kommunikasiya"** sözü latın mənşəli termin kimi rabitə, əlaqə, ünsiyyət mənalarını ifadə edir. Kommunikasiya cəmiyyətdə insanın həyat və fəaliyyətinin **əsasını** təşkil edir, onu müxtəlif sahələrdə müşayiət edir. Kommunikasiyasız, ünsiyyətsiz heç bir fəaliyyət mümkün deyil. Bütün peşə sahibləri – hüquqşünas, müəllim, həkim, mediator və s.

---

[1] Bu barədə daha ətraflı bax: Cəfərov V. B. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya. Dərs vəsaiti. Bakı, BDU, 2021, s.5.

şəxslər öz işini yerinə yetirərkən ünsiyyət qurmağa, danışıqlar aparmağa, sual verməyə, cavab almağa məcburdur. Deməli, insanın **peşə fəaliyyətində uğuru**, adətən, düzgün kommunikasiyadan asılıdır.

Kommunikasiya prosesinin **anatomiyası** barədə qeyd edə bilərik ki, mediasiya zamanı baş verən kommunikasiya prosesi iki və daha artıq tərəf arasında aparılan **məlumat mübadiləsi** sayılır, eləcə də bu model onların ünsiyyət bacarığını ehtiva edir.

Mediasiya proseduru həyata keçirilərkən tərəflər arasında yaranan kommunikasiya prosesi, məzmunca, müəyyən **struktur elementlərdən** ibarətdir.[1] Məsələn, mediasiyada tipik nümunə qismində kommunikasiya prosesi **modelinin**, əsasən, aşağıda göstərilən **komponentlərini**, ayrıca olaraq, fərqləndirə bilərik: ismariş, ötürən şəxs, kanal, qəbul edən şəxs, səs, reaksiya, kodlaşdırma, kodun açılması, kontekst.[2]

**İsmariş** termini ingilis dilindən alınan "mesaj" və ya "sms" sözünün Azərbaycan dilində analoqu sayılır, adətən, sifariş və ya xəbər mənasını ifadə edir. Bu termin Azərbaycan dilinin orfoqrafiya lüğətində də mövcuddur. Eyni zamanda, virtual aləmdə sözlə və ya yazı ilə göndərilən məlumat, informasiya, ya da xəbər növüdür. Ən sadə kommunikasiya modeli S-M-R sayılır – bu abreviaturada **S** ismarişi göndərən mənbə (source), **M** ismariş (message), **R** isə ismarişi qəbul edən (receiver) şəxs kimi başa düşülür; burada R və S bir-biri ilə əks-əlaqədədirlər.

Mediasiyada kommunikasiya məqsədli fəaliyyət olduğu üçün ismarişin (informasiyanın) aşağıdakı **tərkib hissələrini** fərqləndirmək mümkündür:

---

[1] Mediasiyada kommunikasiyanın effektiv idarə edilməsi barədə bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila.Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.78-82.

[2] Bu və digər terminlərin məna tutumu barədə ətraflı bax: Azərbaycan dilinin orfoqrafiya lüğəti / Ağamusa Axundov. Bakı, "Lider nəşriyyat", 2004, 728 s.; Yeni sözlər və yeni mənalar lüğəti / Redaktor: filologiya elmləri doktoru, professor İsmayıl Məmmədli . Bakı, "Elm" nəşriyyatı, 2016, 269 s.

– **ismarişin məzmunu** – ismarişin daşıdığı fikir, arqumentlər, dəlil və faktlardan ibarətdir; başqa sözlə, ismariş "məna kəsb edən məlumat" deməkdir;

– **ismarişin ötürülmə vasitəsi** – bu mənada mediasiyada tətbiq edilən informasiya-kommunikasiya texnologiyaları, şəxsi görüş, vətəndaş müraciəti, ictimai çıxış və s. üsullar nəzərdə tutulur.[1]

**Ötürən şəxs** dedikdə mediasiyada original ismarişin yaradılması və mənbəyi, yəni mediasiya prosesində bir tərəfin ismarişini digər qarşı tərəfə ötürən şəxs başa düşülür.

**Kanal** termininin məna yükü mediasiyada ismariş ötürülməsi üçün nəzərdə tutulan müvafiq kommunikasiya kanalını ehtiva edir. Kommunikasiyaları ismariş fikrinin formalaşdırılması meyarına görə, şərti olaraq, verbal (nitqli) və qeyri-verbal (nitqsiz) kommunikasiyalara bölmək mümkündür.

**Qəbul edən şəxs** dedikdə mediasiya prosesində göndərilən ismarişi qəbul edən şəxs və ya qrup başa düşülür; bu proses qəbuletmə mərhələsi kimi tanınır.

**Səs** termini – dil qaydalarına görə, sözün səs tərkibi haqqında danışarkən onun yazılışı deyil, tələffüzü əsas götürülür. Məsələn, "ailə" [ayilə] sözündə dörd deyil, beş səs var: üçü sait, ikisi samit səsdir. Bu cür hər hansı maneə mediasiyada kommunikasiya prosesi zamanı həm ismariş ötürən şəxsə, həm də ismarişi qəbul edən şəxsə münasibətdə nəzərə alınmalıdır.

**Reaksiya** anlayışı mediasiyada kommunikasiya prosesi zamanı qəbul edən şəxsin ötürən şəxs tərəfindən göndərilən ismarişə qarşı münasibətini ifadə edir, onun rəyini bildirir.

**Kodlaşdırma** dedikdə mediasiyada kommunikasiya prosesi zamanı ismarişin simvollar vasitəsi ilə düşünülərək və şifrələnərək kod variantında yaradılması variantı ehtiva olunur.

---

[1] Ətraflı bax: https://az.strategiya.az/news.php?id=158368 (12.09.2023-cü il).

**Kodun açılması** isə mediasiyada kommunikasiya prosesi zamanı ismarişə dair simvolların düşünülərək tərcümə edilməsi, yəni kod variantından çıxarılması, şifrələrin açılması deməkdir.

**Kontekst** anlayışının sətiraltı məna yükü mediasiyada kommunikasiya prosesinin strukturunda zamanın fiziki, sosial və psixoloji tərəflərini, özünəməxsus aspektlərini ehtiva edir.

Tərəflər arasında **ünsiyyətin asanlaşdırılmasında** kommunikasiya vacib rol oynayır. Bu baxımdan, kommunikasiya elmi dövriyyədə, bir qayda olaraq, ünsiyyət vasitəsi kimi təqdim edilir.[1] Praktiki kontekstdə informasiyanı ötürən və qəbul edən şəxslər arasında kommunikasiyanın bir neçə növünü fərqləndirə bilərik:

**1. Birtərəfli kommunikasiya.** Bu növ kommunikasiyada qəbul edən tərəf informasiya (ismariş) göndərən tərəfə qarşı münasibətə reaksiya vermir, müəyyən rəy bildirmir;

**2. Ardıcıl kommunikasiya.** Belə növ kommunikasiyada informasiyanı (ismarişi) qəbul edən tərəf sonradan bu ismarişə reaksiya verərək öz rəyini bildirir;

**3. İnteraktiv kommunikasiya.** Bu növ kommunikasiya prosesində maraqlı məsələyə dair informasiyanı qəbul edən tərəf ötürən tərəflə eyni vaxtda, birlikdə reaksiya göstərir, rəy verirlər.

İnformasiyanı (ismarişi) ötürən və qəbul edən şəxslər arasında **dil növü meyarı** üzrə kommunikasiya prosesinin, əsasən, aşağıdakı **formaları** mövcuddur:

**1. Verbal kommunikasiya –** dil, nitq vasitəsilə həyata keçirilir, yəni hər bir insan nitq vasitəsilə ünsiyyət qurur, öz fikir və düşüncələrini ifadə edir. Verbal kommunikasiyanın (nitqin) də, praktiki olaraq, iki növü mövcuddur:

1) tarixən ən qədim hesab olunan **şifahi kommunikasiya**;

---

[1] Kommunikasiyanın ünsiyyət vasitəsi kimi nəzərdən keçirilməsi haqqında ətraflı bax: Kərimova P.A. Kommunikasiya və onun təzahür formaları // Qərbi Kaspi Universiteti. Elmi Xəbərlər, № 2, (Humanitar elmlər seriyası), Bakı, 2022, s.79-83.

2) yazının meydana gəlməsindən, xüsusilə, əlifba yarandıqdan sonra meydana gələn **yazılı kommunikasiya.**

Verbal kommunikasiya modeli vasitəsi ilə ünsiyyət qurulmasına dair şifahi və yazılı kommunikasiya proseslərinin də özünəməxsus fərqli cəhətləri vardır.

**2. Paraverbal kommunikasiya.** Hər şeydən əvvəl qeyd etməliyik ki, **paraverbal vasitələr** dedikdə şifahi nitqi müşayiət edən, ona əlavə məna verən səs siqnallarının toplusu başa düşülür. Paraverbal kommunikasiya isə tərəfdaşda müəyyən niyyətlərə çatmaq üçün zəruri olan müvafiq ünsiyyət duyğuları, hissləri və təcrübələri oyatmaq məqsədi daşıyır. Belə nəticələr, adətən, **paraverbal ünsiyyət** vasitələrindən istifadə etməklə əldə edilir ki, bunlara aşağıdakılar daxildir:

– **prosodiya** – sözün tələffüz üsulu, nitqin ahəngi, diksiya, tezlik, tembr, ton, vurğu, səsin yüksəkliyi və gurluğu;

– **ekstralinqvistika** – pauza, öskürək, ah çəkmə, qəh-qəhə çəkmək və ağlamalar (yəni səda vasitəsilə ifadələrin səsə çevrilməsi). Beləliklə, paraverbal kommunikasiya ünsiyyət vasitəsi kimi dilin ton və tembr xüsusiyyətlərinə, eləcə də onun mədəniyyətdə istifadəsinə əsaslanır. Bu kontekstdə sakit və təmtəraqlı mədəniyyətləri fərqləndirmək olar.[1]

**3. Qeyri-verbal kommunikasiya –** bu növ kommunikasiya dilin, nitqin köməyi olmadan həyata keçirilir. Bu zaman qeyri-verbal vasitələrdən istifadə olunur. Bura mimika və jestlər, səs tonu, intonasiya, fasilə, gülüş və s. ünsiyyət vasitələri aid edilir. Qeyri-verbal kommunikasiya, bir qayda olaraq, **nonverbal kommunikasiya**, yəni sözlərdən istifadə etmədən bədən dili ilə (simvollarla) yaradılan kommunikasiya da adlanır.

Kommunikasiya prosesində təəssürat yaradılmasında **bədən dili** və **mühitlə bağlı eyhamlar** əhəmiyyətli rol oynayır və

---

[1] Bu barədə ətraflı bax: Паравербальная коммуникация. Северный (Арктический) федеральный университет им. М. В. Ломоносова, 11.03.2016. Файл: URL: bibliofond_445082 /file_445082.rtf.: https://studfile.net/preview/ 5840173/page:3/ (16.09.2023-cü il).

özündə aşağıdakı komponentləri ehtiva edir: üz ifadələri, göz teması, bədən vəziyyəti (qamət), toxunuş, əzələ tonusu, hərəkət və jestlər, paltar (bəzək əşyaları), rəng, qoxu və s. əlamətlər.

Praktikada nonverbal kommunikasiya metodu **üstünlük** təşkil etsə də, digər növ kommunikasiya üsulları (verbal kommunikasiya və paraverbal kommunikasiya) da vacib əhəmiyyət kəsb edir. Lakin, yuxarıda göstərdiyimiz hər üç növ kommunikasiya metoduna **aktiv qulaqasma** əlaməti xasdır ki, onun əhatə dairəsinə diqqətin oriyentasiyası, diqqətə fokuslanma, anlama və rəy bildirilməsi, yəni reaksiya verilməsi kimi **psixoloji məqamlar** daxildir.

### 4.1.2. Mediasiyada tətbiq edilən kommunikasiya alətləri

Məlum olduğu kimi, **mediasiya proseduru** tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı, könüllülük, konfidensiallıq, mediatorun müstəqilliyi, qərəzsizliyi və mediasiya prosesinə müdaxilənin yolverilməzliyi prinsipləri əsasında **tərəflərin qarşılıqlı iradəsi** ilə həyata keçirilir. Münaqişə vəziyyətlərinin və mübahisələrin həlli üçün **mediasiya sisteminin işində** bütün hərəkətlər göstərilən prinsiplərə əsaslanır və mübahisələrin **uğurla nəticələnməsi**, bir qayda olaraq, mediatorun peşə hazırlığı və tətbiq etdiyi kommunikasiya alətlərindən daha çox asılıdır.

Belə ki, **mediator** tərəflərin şəxsi xüsusiyyətlərinə, sosial mənşəyinə və ya mediasiya zamanı davranışına əsaslanan qərəz və ya hərəkətlərdən **qorunmalıdır**. Qarşıya qoyulmuş məqsədlərə, yəni mübahisənin həllinə nail olmaq üçün mediasiya prosesində müxtəlif **kommunikasiya alətlərindən** istifadə olunur. Əsas kommunikasiya alətləri kimi **aşağıda göstərilən vasitələr** nəzərdə tutulur:

– **Aktiv dinləmə** – insan mənafeyinə fəal yanaşılmasına və onun bütün maraqlarının dərk edilməsinə yönəlmiş effektiv dinləməni təmin etmək üsuludur;

– **Emosional təkrar** dedikdə duyğuların təzahürü ilə eşidilmiş şeylərin təkrarlanması və ya fikirlərin fərqli şəkildə dəfələrlə ifadə edilməsi başa düşülür;

– **"Anlama döngəsi"** – danışıqlar zamanı söylənilən fikirlərin mənasını aydınlaşdırmaq və dəqiqləşdirmək üçün bir vasitədir, deyilənlərin həmsöhbət tərəfindən mümkün qədər tam və dərin başa düşülməsini təmin etməyə kömək edir, onun vasitəsilə deyilənlər nəinki eşidilir, həm də aydın olur, başa düşülür və qəbul edilir;

– **Sual vermə texnikası** – bu üsul yaranmış vəziyyət və ya problem haqqında daha geniş təsəvvür əldə etmək üçün müəyyən növ sualları vaxtında və uyğun şəkildə vermək bacarığını ifadə edir;

– **Dekonstruksiya** – əvvəlki düşüncələrə dair struktur fikirlərin müzakirə masasından kənarlaşdırılmasıdır ki, onların üstünlük iddiaları sadəcə insan səyinin nəticəsidir və buna görə də, yenidən formalaşdırılaraq nəzərdən keçirilə bilər. Dekonstruksiya funksiyaları: – mətnin irrasionallaşdırılması, yəni mətnin altında yatan strukturların və qurumların tənqidi; əvvəlki köhnə fikirlərin nümayişi; mətnin başa düşülməsində qaçılmaz səhvlərin nümayişi; gizli anlayışların axtarılması, məzmunun münasibətdən ayrılması və s.

– **Məntiqi nəticə** – proses zamanı deyilən fikirlərin motivləri, gələcək inkişaf istiqamətləri və ya situasiya haqqında fərziyyələr irəli sürmək cəhdini ehtiva edir;

– **Verbalizasiya** – mediasiya prosesində mövzu üzrə söhbətin şifahi davam etdirilməsini və dinlənilməsini bildirir;

– **Güzgü əksi** – mediasiya prosesində aparılan müzakirə üzrə həmsöhbətlə eyni duyğu və emosiyaların ifadə olunmasını bildirir;

– **Ümumiləşdirmə** – mediasiya zamanı dialoq prosesində konstruktiv yanaşma və yeni struktur ideyaların formalaşmasını təmin edən çoxfunksiyalı bir vasitədir; bu üsula, bəzən, xulasələndirmə kommunikasiya aləti də deyilir;

– **Parafraz** – mediasiya prosesində mühüm məna kəsb edən və vacib əhəmiyyət daşıyan ifadələri öz sözlərinizlə təkrarlamaq deməkdir. Bu, öz ifadələrinizin kənardan və ya tərəflərin çatdırdığı mənada eşitməyə kömək edir;

– **Reframing** – mediasiya problemi haqqında mövcud fikrin dəyişdirilməsinə, ona fərqli bucaqdan baxılmasına və bununla da mövqelərdən maraqlara keçid edilməsinə imkan verən bir çərçivə kommunikasiya aləti sayılır. Belə bir keçid mediatora fikir ayrılıqlarının həqiqi həllinə nail olmağa və mübahisə edən tərəflər arasında münaqişəni tamamilə aradan qaldırmağa imkan verir;

– **Mediasiya üzrə kouçinq** ("kouçinq" – təlimatlandırmaq, ruhlandırmaq, məşq etmək) – bu anlayış mediasiyada münaqişə tərəfi ilə fərdi söhbət aparılmasını ehtiva edir. O, məsləhət formasında baş verir və buna görə də tərəflərlə fərdi söhbətlərin aparıldığı zaman mediasiyanın hazırlıq mərhələsi üçün ideal hal sayılır;

– **Meta-kommunikasiya** – mediasiyada xüsusi bir ünsiyyət növüdür, onun predmeti elə ünsiyyət prosesinin özüdür. Başqa sözlə desək, metakommunikasiya ünsiyyət haqqında kommunikasiyadır. Metakommunikasiya həm də nəzarət məqsədi güdən gizli ünsiyyət aləti kimi başa düşülür;

– **Exo-texnikası** – mediasiya zamanı həmsöhbətin sözlərinin təkrarlanması prosesi baş verir və bu zaman danışan tərəf əmin olur ki, qarşı tərəf onunla empatiya yaradır, onu eşidir və dinləyir. Exo-texnikasının imkanları aşağıdakılardan ibarətdir: emosional fonun saxlanması, başa düşülmə hallarının aydınlaşdırılması, mövzu üzrə fikir söyləməyə həvəsləndirmə və s.[1]

---

[1] Bu terminlərin məna yükü barədə daha ətraflı bax: Гостищева О.С. Использование инструментов медиации в урегулировании споров по вопросу законности принятых должностными лицами решений / О.С. Гостищева. Текст: непосредственный // Молодой ученый, № 41 (436). Республика Татарстан, г.Казань, 2022, с. 103-106. URL: https://moluch.ru/archive/436/95362/ (дата обращения: 17.09.2023).

Qeyd etmək lazımdır ki, mediasiya proseduru **sosial-kommunikativ texnologiya** kontekstində də nəzərdən keçirilir. Belə ki, müasir dövrdə **vətəndaş cəmiyyətində** mediasiya kifayət qədər yeni bir **fenomen** sayılır və Azərbaycanda yalnız 2019-cu ildə qəbul edilmiş "Mediasiya haqqında" Qanun qüvvəyə mindikdən sonra mediasiya prosedurunun tətbiq olunmasına başlanılmışdır.

İstər elmi ictimaiyyət, istərsə də ictimaiyyət tərəfindən **sosial sferada** mediasiyaya artan maraq səbəbindən bu yeni **kommunikativ təcrübənin** elmi şəkildə dərk edilməsinə ehtiyac yaranmışdır. Mediasiya proseduru müstəqil və qərəzsiz bir mütəxəssisin mübahisədə iştirak edən tərəflərə **qarşılıqlı məqbul həll** tənzimləmə variantına nail olmaq istiqamətində köməklik göstərdiyi proses kimi müəyyən edilir. Mediator tərəflər arasında **kommunikasiyanı** asanlaşdırmaq və istiqamətləndirmək, onlara müvafiq informasiyanın əldə edilməsi və düzgün seçimə nail olunması işinə dəstək göstərməklə qarşılıqlı **razılığa gedən** yolu müəyyənləşdirir.

Beləliklə, **mediasiya** tərəflər arasında mübahisələrin bu münasibətlərdə maraqlı olmayan müstəqil və neytral üçüncü tərəfin – mediatorun iştirakı ilə həllinə yönəlmiş **texnologiyalardan** biridir. Mediator, bir qayda olaraq, tərəflər arasında **danışıqlar prosesini** təşkil edir və ona **nəzarət** edir, lakin istirakçılara və ya əldə edilən faktiki nəticələrə **açıq şəkildə təsir** göstərməyə çalışmır.

Mediasiya modelinin **texnoloji aspektini**, xüsusilə, qeyd etmək lazımdır. Belə ki, hər hansı danışıqlar prosesində olduğu kimi, **mediasiya proseduru** da bütün prosesin uğuru üçün tələb edilən aydın, mütəşəkkil və ardıcıl addımların **həyata keçirilməsindən** ibarətdir.

Eyni zamanda, qeyd etməliyik ki, müasir dövrdə mediasiya prosesi **sosial hadisə kimi kommunikasiyanın informasiya modeli** kontekstində nəzərdən keçirilir. Bu baxımdan, **kommunikasiya modeli** dedikdə məlumat mənbəyi (mesajı-məlumatı

yaradan və onu ötürən şəxs) ilə alıcı (mesajı-məlumatı qəbul edən və onu şərh edən şəxs) arasında seçilmiş kod üzrə müəyyən kanallar vasitəsilə yayılan **qarşılıqlı informasiya əlaqəsidir**.[1] Bu texnoloji kommunikasiyanın **məqsədini** iki tərəf arasında qarşıdurmadan əməkdaşlığa keçid imkanları ehtiva edir. Bu məqsədə münaqişə vəziyyətinə eyni baxış, maraqların aşkarlanması və işlənib hazırlanması, habelə onların əsasında qarşılıqlı məqbul həll variantlarının tapılması yolu ilə **nail olunur**; belə tədbirlər bütövlükdə mediasiya prosesi zamanı **xüsusi suallardan** istifadə etməklə mediator tərəfindən həyata keçirilir. Bu texnoloji kommunikasiyanın **nəticəsi** tərəflərin birgə işləmək və hər iki tərəfin maraqlarını ən yaxşı şəkildə təmin edəcək həll yolu tapmaq üçün qarşılıqlı istəyidir.

Beləliklə, **bu metod** kommunikatora mesajı qəbuledən şəxsin ehtiyaclarına uyğunlaşdırmağa kömək edən **əks əlaqəni tənzimləmək**, həmçinin sonrakı qarşılıqlı əlaqə prosesində ondan səmərəli istifadə etmək **imkanı** yaradır. Bundan əlavə, alınan mesajlar **qarşılıqlı kommunikativ sosial əlaqədə** semantik səs-küyü aradan qaldırmaq üçün mediator tərəfindən kommunikasiyanın keyfiyyətinin yaxşılaşdırılması fonunda **yenidən kodlaşdırıla** bilər.

Yuxarıda göstərilənləri ümumiləşdirərək, qeyd edə bilərik ki, **sosial-kommunikativ texnologiya** kimi mediasiya tərəflər arasında ünsiyyət qurmağa, konstruktiv danışıqlar prosesini təşkil etməyə və yaranmış problemli vəziyyətlə bağlı müəyyən **real razılaşma** əldə etməyə imkan yaradır.

Diqqətəlayiq haldır ki, mediasiya prosesində **kommunikasiyanın səmərəliliyinin** artırılması istiqamətində cəmiyyətdə

---

[1] Toxunulmuş məsələlər barədə ətraflı bax: Гафнер К.Е., г. Санкт-Петербург. Медиация как социо-коммуникативная технология. Уральский федеральный университет. Вестник, 2013, с.564-575. https://elar.urfu.ru/bitstream/10995/51971/1/klo_2013_072.pdf (20.09.2023-cü il).

uğurlu kütləvi **maarifləndirici tədbirlər** həyata keçirilir. Nümunə qismində qeyd etmək yerinə düşərdi ki, 22.07.2022-ci il tarixdə Bakı Dövlət Universiteti (BDU) və Mediasiya Şurası arasında **əməkdaşlıq haqqında müvafiq memorandum** imzalanmışdır. Memorandumda nəzərdə tutulmuşdur ki, BDU-da müvafiq sahə ilə əlaqəli təlim-tədris prosesi daha da təkmilləşdirilsin və Universitetin Nizamnaməsi ilə müəyyən edilmiş fəaliyyət sahələri üzrə **mediasiya xidmətlərinin göstərilməsinə** dəstək həyata keçirilsin, habelə BDU-nun tələbələri üçün Mediasiya Şurasında və onun qurumlarında istehsalat və könüllü təcrübə proqramları təşkil olunsun, professor-müəllim heyəti Şura tərəfindən həyata keçirilən layihələrdə **müqavilə əsasında** məsləhətçi kimi fəaliyyət göstərsinlər. Şuranın yüksək ixtisaslı mütəxəssislərinin müvafiq ixtisas üzrə **mühazirələr oxumaq** üçün Universitetin tədris prosesinə cəlb olunması, birgə beynəlxalq və respublika əhəmiyyətli konfrans, seminar və təlimlərin keçirilməsi müəyyənləşdirilmişdir. Memorandumda **həssas əhali qrupları** üzrə mediasiya xidmətinin təşkilinə dəstək göstərilməsi, Universitet və Şura arasında cəmiyyət üçün aktual olan məsələlərin birgə həll edilməsi ilə bağlı korporativ **sosial məsuliyyət**, habelə digər layihələrinin həyata keçirilməsi, beynəlxalq layihələrdə **birgə əməkdaşlıq** da nəzərdə tutulmuşdur.[1]

Həmçinin 05.04.2023-cü il tarixdə Sumqayıt Dövlət Universiteti və Mediasiya Şurasının birgə təşkilatçılığı ilə **"Daha yaxşı kommunikasiya üçün mediasiyanın effektivliyindən necə istifadə edə bilərik?"** mövzusunda tədbir keçirilmişdir. Tədbirdə **sosial leksikona** yeni daxil olan mediasiya barədə ətraflı məlumat verilərək, mediasiyanın mübahisələrin məhkəmədənkənar həll yolu olduğu bir daha vurğulanmışdır. Digər tərəfdən, **mediasiya prosesi** tərəflərin mediatorun köməyi ilə qarşı

---

[1] Ətraflı bax: https://www.facebook.com/mediationcouncilazerbaijan (21.09.2023-cü il).

tərəfin mövqeyi barədə daha çox məlumat qazanmaqla, öz mövqeyini yenidən qiymətləndirmək və barışıq imkanları qazanmaq fürsəti kimi dəyərləndirilir. Mediasiya proseslərində tərəflərin mübahisəni həll etmələri ehtimalının **85 faizdən yüksək olduğu**, eləcə də bu istiqamətdə vətəndaş cəmiyyətində zəruri **hüquqi bazanın yaradıldığı**, xüsusilə, qeyd edilmişdir.[1]

Eləcə də Azərbaycan Respublikasının Baş Prokurorluğu və Mediasiya Şurası arasında əməkdaşlıq əlaqələrin qurulması, kommunikasiyanın həyata keçirilməsi, mediatorların peşə hazırlığının artırılması məqsədi ilə 2023-cü ilin iyul ayının 26-da **"Əsas insan hüquq və azadlıqların qorunmasında prokurorluq və mediasiya orqanlarının rolu"** mövzusunda maarifləndirici konfrans formatında müvafiq tədbir keçirilmişdir.[2]

Təqdirəlayiq hal kimi qeyd edə bilərik ki, mediasiya prosesində uğurlu **kommunikasiya modelinin** tətbiq imkanlarının genişləndirilməsi barədə həyata keçirilən maarifləndirici tədbirlər artıq **silsilə xarakteri** almışdır. Eyni zamanda, qeyd etməliyik ki, Mediasiya Şurası mediasiya xidmətlərinə əlçatanlığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədi ilə **vətəndaşlarla kommunikasiya imkanlarının** bu istiqamətdə daim genişləndirilməsinə xüsusi diqqət ayırır. Belə ki, daxil olan bütün müraciətlərin **Mediasiya Şurası** tərəfindən vaxtında və lazımınca cavablandırılması ilə bağlı **alternativ əlaqə vasitələri** barədə müvafiq məlumatlar mətbuat vasitəsi ilə əhalinin diqqətinə çatdırılmışdır. Sözügedən məlumatlar sırasına aşağıdakılar aiddir:

Mediasiya Şurası **Çağrı Mərkəzi** – 012 (1927);

**Mobil nömrələr** – +99455 931 66 86, +99455 931 66 87;

**Elektron poçt ünvanı**:

vətəndaş müraciətləri üçün – muraciet@mediasiya.gov.az;

---

[1]https://azertag.az/xeber/Maariflendirici_tedbir_Daha_yaxsi_kommunikasiya_uchun_mediasiyanin_effektivliyinden_nece_istifade_ede_bilerik-2559884 (21.09.2023-cü il).

[2] http://etmprok.gov.az/?lang=az&menu=blog&id=5_1_34 (22.09.2023-cü il).

mediatorların fəaliyyəti ilə bağlı şikayətlər üçün sədrə müraciət – sedr@mediasiya.gov.az;

mediatorların fəaliyyətinin qiymətləndirilməsi üçün – http:// mediasiya.gov.az/faydalı/sorğular ;

**Sosial şəbəkələr**: Feysbuk səhifəsi – Mediasiya Şurası – https://www.facebook.com/mediationcouncilazerbaijan;

İnstaqram: mediasiyaşurası – www.instaqram.com/ mediasiyaşurası/;

Teleqram: Mediasiya Şurası Bot.[1]

## 4.2. Mediasiyada kommunikasiya prosesini idarəetmə

### 4.2.1. Mediatorun peşəkar bacarıqlar modeli

Mediasiya zamanı kommunikasiya prosesinin effektiv surətdə idarə edilməsində **mediator vacib rol** oynayır. Belə ki, mediator fəaliyyəti ilə məşğul olmaq ağır və çətin peşədir, çünki bu fəaliyyət növü onun **subyekti** kimi mediatorun müəyyən şəxsi göstəricilərə, bilik, vərdiş və bacarıqlara **malik olmasını** zəruri edir.

Mediator fəaliyyətini həyata keçirmək hüququna malik olan **şəxslərə dair irəli sürülən tələblər** (təhsil, yaş həddi, iş stajı və s.) mediasiya haqqında qanunvericiliklə tənzimlənir (MHQ, maddə 10).[2] Mediatora dair göstərilən tələbləri və digər qanunvericilik aktlarında təsbit edilən meyarları ümumiləşdirərək, eləcə də mediator peşə fəaliyyətinin spesifik cəhətlərini nəzərə alaraq, **mediatorun peşəkar bacarıqlar modeli** adlı strukturu hüquqi kontekstdə formulə edə bilərik. Bu strukturun tərkibində aşağıda göstərilən bir sıra **komponentləri** fərqləndirmək mümkündür:

---

[1] Bu barədə daha ətraflı bax: Mediasiya Şurası vətəndaşlarla kommunikasiya imkanlarını artırıb // "Azərbaycan" qəzeti, 30 noyabr 2021-ci il. https://www.azerbaijan-news.az/ (22.09.2023-cü il).

[2] Ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.8.

– mediasiya zamanı kommunikasiya (ünsiyyət) bacarıqları;
– mediasiya prosesində baş verən konfliktlərin idarə edilməsi;
– mediasiya prosesində təzahür edən emosiyaların idarə edilməsi;
– mediasiya prosesində yaranan problemlərin təhlili və aydınlaşdırılması;
– praktiki planlaşdırma və bütövlükdə mediasiya prosesinin idarə edilməsi;
– yaradıcı (kreativ) təfəkkür və tərəflərə effektiv suallar vermək bacarığı;
– mediasiya prosesi zamanı müstəqil, qərəzsiz və neytral mövqedə durmaq.

Qeyd edilənlərlə yanaşı, mediasiya prosesində **kommunikasiyanın effektiv** formada yaradılması istiqamətində mediator müəyyən özünəməxsus **spesifik və peşəkar xüsusiyyətlərə** malik olmalıdır. Belə xüsusiyyətlər qismində aşağıdakıları **göstərə bilərik**: 1) özünü tanımaq, 2) səmimilik və sadəlik, 3) düzgün və etibarlı insan olmaq, 4) anlayışlı olmaq (empatiya) və qınaqdan yayınmaq, 5) optimist və səbirli olmaq, 6) fiziki dözümlülük və təmkinlik göstərmək, 7) intektuallıq, yaradıcılıq, məntiq və çeviklik, 8) yumor hissinin yaradılması və s.[1]

1. **Özünü tanımaq** dedikdə mediasiya prosesini aparan mediator (və ya mediatorlar) özünə xas olan qərəz, kompleks, dəyər və inancları dərk etməli və bilməlidir. Göstərilən əlamət mediator tərəfindən mediasiya işinin qərəzsiz aparılmasına və mediasiya zamanı mövcud ola biləcək bu xüsusiyyətlərin idarə edilməsinə zəmin yaradacaqdır. Belə ki, insan özünü tam tanıdıqdan sonra daxili aləmində mənən özü ilə barışa, yəni daxili aləmində sülh əldə edə bilər. Bu cür psixoloji keyfiyyətə malik olan insan ətrafdakı şəxslərə də müəyyən rahatlıq təlqin edə bilər.

---

[1] Mediator peşəsi və şəxsi keyfiyyətlər barədə daha ətraflı bax: Ruslan Mirzəyev. Mediasiya. Nəzəriyyə və Azərbaycan təcrübəsi. Bakı, ADR Center, 2020, s.138-140.

2. **Səmimilik və sadəlik** xüsusiyyətinin mövcud olması mediatorla tərəflər arasında inam və etimad sferasında həlim münasibətlərin yaradılması üçün vacib əhəmiyyət kəsb edir. Mediator səmimilik və sadəlik kimi psixoloji keyfiyyətlərə malik olmadıqda isə, tərəflər də bəzi hallarda öz hislərinə qapanır və onlar arasında səmimi müzakirələr aparılması üçün əlverişli mühit yaranmır.

3. Mediatorun cəmiyyətdə **düzgün və etibarlı insan** kimi şəxsi keyfiyyətə malik olması və tanınması iş üzrə tərəflərin etibarlarının qazanılmasına əhəmiyyətli dərəcədə mühüm fayda verir. Mediatorun bu cür xüsusiyyətlərə malik olması tərəflərin onun fikirlərinə və tövsiyələrinə daha ciddi yanaşmalarına səbəb olur, eyni zamanda, tərəflərin sərbəst şəkildə danışıqlar aparmalarına və öz maraqlarını bildirmələrinə təkan verir.

4. Mediatorun **anlayışlı olmaq (empatiya) və qınaqdan yayınmaq** kimi əlamətə malik olması da mediasiya prosesinin uğurla nəticələnməsi üçün faydalı ola bilər. Burada mediatorun rolu tərəflərdən kimin haqlı, kimin haqsız olmasını müəyyən etməkdən ibarət deyildir. Mediator hər iki tərəfi anladıqda və bunu açıq-aydın şəkildə biruzə verərək bildirdikdə, tərəflər danışıqlar prosesində, aparılan müzakirələrdə daha rahat şəkildə iştirak edirlər. Mediatorun hər hansı qınağını hiss edən tərəf, təbii ki, mediatora etibar etməyəcək, habelə mübahisənin həlli istiqamətində zəruri olan həssas informasiyaları gizli saxlayacaqdır.

5. Mediatorun **optimist və səbirli olması** məsələsi də vacib məqamlardan biridir. Belə ki, mediasiya prosesinin, bəzən, uzunmüddətli xarakter daşıya bilməsi və bəzi hallarda bütün proses ərzində tərəflərin mövqelərinin bir-birindən çox uzaq ola bilməsi məqamlarının mümkünlüyü nəzərə alınmalıdır. Praktikada, adətən, mediasiya üzrə danışıqlar prosesi dinamikasının qısa müddət ərzində, gözlənilmədən dəyişməsi halları da mümkündür. Ona görə də, mediatorun bu proses ərzində səbirli olması və təkidlə işləməsi mübahisə edən tərəfləri barışığa gətirən əsas amillərdən biridir.

6. Çətin və mürəkkəb peşə fəaliyyəti olan mediasiya prosesini həyata keçirmək üçün mediatordan **fiziki dözümlülük və təmkinlik göstərmək** kimi xüsusiyyət tələb edilir. Belə ki, mediasiya işi üzrə tərəflər arasında mövcud olan mübahisənin uğurla başa çatmasında və müsbət nəticəyə nail olunmasında mediatorun yuxarıda göstərilən xüsusiyyətlərə malik olması mühüm əhəmiyyət kəsb edən aspektdir.

7. Mediatorun öz peşə fəaliyyətində müəyyən **intektuallıq, yaradıcılıq, məntiq və çeviklik** kimi xüsusiyyətlərə də malik olması vacib məsələdir. Belə ki, mediatorun belə keyfiyyətlərin daşıyıcısı olması amili onun mediasiya işi üzrə daha məlumatlı olmasına və fəal düşünə bilməsinə, eləcə də mübahisə probleminə dair tərəflər arasında müvafiq barışıq sazişinin əldə edilməsi imkanlarının artırılmasına xidmət edir.

8. Mediator, bir qayda olaraq, **yumor hissinin yaradılması** bacarığına da malik olmalıdır. Belə ki, mediasiya fəaliyyətini həyata keçirən şəxsdə, yəni mediatorda yumor hissinin olması mübahisə edən tərəflər arasında ünsiyyətin asanlaşdırılmasına, mediasiya sferasında gərginliyin azaldılmasına və problemin həlli üçün əlverişli mühitin yaradılmasına dəstək verə bilər.

Mübahisə işi üzrə tərəflər arasında həyata keçirilən mediasiya prosesində mediatorun **uğur qazanması** məhz yuxarıda sadaladığımız faktorlardan funksional şəkildə asılıdır.

### 4.2.2. Mediasiya zamanı emosiyaların idarə edilməsi

Əvvəllərdə qeyd etdiyimiz kimi, mediatorun peşəkar bacarıqlar modelinin komponentlərindən biri də **mediasiya prosesində emosiyaların idarə edilməsi** adlanır. Bəs, emosiya nə deməkdir?

Hər şeydən əvvəl qeyd etməliyik ki, **təkamül prosesində** emosiyalar canlı varlığın, orqanizmin vəziyyətini və xarici təsirlərin bioloji əhəmiyyətini müəyyənləşdirmək tələbatı ilə bağ-

lıdır. Ədəbiyyat səhifələrində göstərildiyi kimi, **insan emosiyaları** ictimai-tarixi inkişafın məhsulu olub davranışı daxilən tənzim edən proseslərə aiddir. Emosiyaların inkişafının **ali səviyyəsi** insanın davamlı hissləridir. Deməli, hər kəsin emosiya və hissləri onun özünə, ətraf aləmə bəslədiyi və məxsusi səciyyə daşıyan **şəxsi münasibətdir**. İnsanın emosiya və hisslər aləmi çox rəngarəng və mürəkkəbdir. Başqa sözlə desək, **hiss və emosiya** insanın dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, həmçinin özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edən **psixi prosesdir**.[1]

İctimai həyatda **emosiyaların idarə edilməsi** üçün emosional halətlər anlayışı da vacib rol oynayır. Belə ki, insana dair psixoloji hisslər qüvvə, davamlılıq və sürətə görə müxtəlif növlərə ayrılır ki, onların məcmusu **insanın emosional haləti** adlanır. İnsanda əmələ gələn, hətta, bəzən, günlərlə, həftələrlə davam edən emosional halətlər təkcə onun **əmək fəaliyyətinə** deyil, həm də **psixi sağlamlığına** mühüm təsir göstərir. Emosional halətlər kateqoriyasına aşağıdakı anlayışlar daxildir: əhval, affektlər, ehtiras, stress, frustrasiya və s.

İlk növbədə qeyd etməliyik ki, **əhval** dedikdə çox zəif cərəyan edən emosional halət başa düşülür. İnsan öz əhvalını **idarə etmək üçün** onu törədən səbəbləri yaxşı bilməlidir. Belə ki, insan orqanizmində baş verən dəyişikliklər, insanın yaşam tərzi, fəaliyyət göstərdiyi həyat şəraiti, lazımi iş yeri, rahat mənzil şəraiti, ictimai asayişin sakitliyi, sağlam ətraf mühitin olması, eləcə də insanlar arasındakı qarşılıqlı münasibətlər insanın əhvalına ciddi təsir göstərir. Ona görə də, **qarşılıqlı münasibət etikasını** gözləmək və cəmiyyətdə **yüksək davranış mədəniyyəti** göstərmək hər bir şəxs üçün zəruri olan sosial tələbdir.

**Affektlər** (latın dilində *affektus* – ruhi təlatüm, həyəcanlanma) anlayışının məna yükü coşğun surətdə əmələ gəlib kəskin

---

[1] Emosiyalar və hisslər barədə ətraflı bax: Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı, “Çinar-Çap” nəşriyyat-poliqrafiya müəssisəsi, 2009, s.152-167.

xarici ifadəyə malik olan azmüddətli, lakin qüvvətlə cərəyan edən hissləri ehtiva edir. Affektə nümunə qismində qeyz, kədər, qəzəb, dəhşət, həddən artıq şadlıq və s. hissləri göstərmək olar. Affekt halları, bəzən, insanların iş və həyat fəaliyyətinə mənfi, pozucu təsir göstərir, eləcə də onların belə məqamlarda öz hərəkətləri, danışıqları üzərindəki şüurlu nəzarəti də zəifləyir.

**Ehtiras** anlayışı qüvvətli, dərin və uzunmüddətli hisslər kateqoriyasına aiddir. Ehtiras insanın şüurunun, daxili qüvvələrinin cəmləşməsində, müəyyən vahid məqsədə yönəlməsində öz əksini tapır. Bu zaman hisslər iradi cəhd ilə birləşərək insanı qarşılaşdığı müəyyən çətinlikləri aradan qaldırmağa təhrik edir. Lakin, bəzən, hər hansı bir obyektə olan ehtiraslı münasibət insanı, başlıca olaraq, passiv surətdə əzab çəkməyə düçar edir. Deməli, ehtiras ikili (mənfi və müsbət) xarakterə malik olmaqla, insanın bütün rəftar və davranışına, fəaliyyətinə dərin iz buraxan qüvvətli hissdir.

**Stress** (ingilis dilində *stress* – təzyiq, gərginlik deməkdir) – insanın gözlənilməz gərgin şəraitlə rastlaşarkən keçirdiyi emosional halətdir. Bu, o deməkdir ki, stress qəflətən təhlükəli vəziyyətdə və ya mürəkkəb şəraitdə təcili surətdə müstəqil qərar qəbul etmək, hərəkət etmək lazım olarkən insanda özünü biruzə verən halətdir. Emosional stress hallarında psixi proseslərin, emosional halətin cərəyanında, fəaliyyətin motivasiya sahəsində dəyişiklik baş verir ki, nəticədə insanın davranışında və nitqində pozğunluq özünü büruzə verə bilir.

**Frustrasiya** (latınca *frustratio* – aldanma, nahaq gözləmə, əhval pozğunluğu) anlayışı onu ifadə edir ki, insanın öz məqsədinə çatmasına maneçilik real və ya xəyali maneələrlə rastlaşdığı zaman düşdüyü psixi vəziyyətdir. Frustrasiya halətində insanda dərin psixi sarsıntılar baş verir. Frustrasiya haləti, bəzən, insanın xarakterinə təsir edir və onda bir sıra dəyişikliklər törədir: davranış və rəftarında özünə inamsızlıq, şablon davranış tərzinə meyillənmə, nevrozların baş verməsi və s. Belə halətin qarşısının

alınması üçün, ilk növbədə, insanda psixi gərginliyə dözüm tərbiyə edilməlidir.

Eyni zamanda, qeyd etməliyik ki, insan ətraf mühitə, vətəndaş cəmiyyətinə, ictimai həyata, əmək fəaliyyətinə, davranış qaydalarına, əxlaq normalarına, ailə münasibətlərinə və **digər reallıqlara** hər hansı bir münasibət bəsləyir. Həmin reallıqlar insan hisslərinin məzmununu təşkil edir ki, burada insanın ali hissləri, xüsusilə, diqqəti cəlb edir. Belə ki, **ali hisslər** cəmiyyətin üzvü kimi insanın yüksək dərəcədə inkişafının məhsulu olub, məzmunca, ən zəngin hisslərdir. Bu sıraya əxlaqi, zehni və estetik hisslər aiddir. Təkcə bir böyük tarixi faktı fəxr hissi ilə qeyd edə bilərik ki, **44 günlük Vətən Müharibəsi** dövründə respublikamızın gəncləri yüksək və ali vətənpərvərlik hissi nümayiş etdirərək zəfər əldə etdilər. Bu **ülvi hiss** insanlarımızın öz doğma vətəninə hədsiz məhəbbət bəsləməsində, onun müvəffəqiyyətini gördükdə ürəkdən sevinməsində, düşmənlərinə dərin nifrət bəsləməsində ifadə olunur.

Emosional hisslər barədə yuxarıda verdiyimiz **qısa şərhlər** mediasiya prosesində **emosiyaların idarə edilməsi** istiqamətində mediatorlar üçün xüsusi aktuallıq kəsb edir. Belə ki, mediator mediasiya prosesinin təşkilatçısı olduğundan bu sahədə zəruri biliklərə yiyələnməli və mediasiya prosedurunu həm **elmi-nəzəri**, həm də **praktiki cəhətdən** idarə etməyi bacarmalıdır.

Mediasiya prosesində emosiyaların idarə edilməsi, sanki, **oyunların idarə edilməsi** variantının prototipidir. Əgər qarşı tərəfin “oyun” oynadığının fərqinə varırsınızsa, bunu nəzərə ala və vəziyyəti idarə edə bilərsiniz. Bəzən, bu oyunlar **fənd** və ya **taktika** adlandırılır. Oyunların idarə edilməsinin **faydalı üsullarından** biri aşağıdakı kimidir:

– açılış oyunları – işin xeyrinə dominantlıq və ya qaydalar formalaşdırmaq;
– üstünlük oyunları – mövqeyinizi dəstəkləmək və gücləndirmək;

– əlverişsiz mövqe oyunları – rəqiblərin əsassız arqumentini zəiflətmək;
– yekunlaşdırma oyunları – müsbət nəticənin əldə edilməsini sürətləndirmək.[1]

Göstərilən **faydalı modelin**, təbii ki, mediasiya zamanı emosiyaların idarə edilməsi prosesinə də **tətbiq edilməsi** məntiqi cəhətdən **ağlabatan** sayılır.

Danılmaz həqiqətdir ki, mübahisə edən tərəflər mediasiya prosesində əksər hallarda, xüsusilə də, birgə sessiyalar zamanı **öz emosiyalarını** büruzə verirlər. Belə ki, tərəflər qorxu, iztirab və narazılığın gizlədilməsi üçün **emosional qəzəb hissi** nümayiş etdirə bilərlər. Buna görə də, mediator **mübahisə işi üzrə** yaranan duyğu hisslərini, eləcə də belə hisslərin davranışa və qərar verməyə necə təsir göstərəcəyini anlamaqla yanaşı, həm də tərəflərin mediasiya prosesində ifadə etdikləri qaçılmaz **emosiya duyğularını idarə etmək** üçün bir müvafiq proses formalaşdırmalıdır.

Emosional duyğular, bir qayda olaraq, insanların bu hissləri necə **dərk etdiklərini** göstərir və qəbul edilməyənə qədər onlar davranışın ağlabatanlıq və məntiq çərçivəsindən **kənara çıxmasına** təkan verir.

Mediasiya zamanı emosiyaların effektiv şəkildə idarə edilməsi üçün müəyyən **texnikalardan** istifadə olunur. Bu kontekstdə **aşağıda göstərilən** bir neçə texnikanın adını çəkə bilərik.

**1. Mediasiya otağında emosiyaların həvəsləndirilməsi.** Bu, o deməkdir ki, mübahisə işi üzrə mediasiya prosesi həyata keçirilən otaqda mediator tərəflərin emosional hisslərinin kons-

---

[1] Ətraflı bax: Maks A. Eggert və Vendi Falzon. Münaqişələrin həll edilməsi. Ayrı-ayrı işçilər arasında və komandalar daxilində fərqli münaqişə səbəblərini müəyyən etmək və başa düşmək, həmçinin münaqişələri effektiv şəkildə həll etmək üçün məsləhət və üsullar. Dekabr, 2022-ci il, səh. 36. https://pocketbook.az/storage/books/December2022/v4yB8VAg23F9St9ApEwI.pdf (24.09.2023-cü il).

truktiv ifadə edilməsi hallarını həvəsləndirməlidir. Belə ki, nevrologiya sahəsində aparılan araşdırmalar göstərir ki, emosional hisslərin sadə şəkildə ifadə edilməsi insan beyninin badamvari vəzi fəaliyyətini azaltsa da, mübahisə edən tərəflər, faktiki olaraq, öz emosiyalarını dilə gətirəndə ən güclü reaksiya baş verir.

**2. Tərəflərin psixoloji ehtiyacları.** Bu texnikaya müvafiq olaraq, mediator mübahisə edən tərəflərdən onların öz psixoloji ehtiyaclarını izah etmələrini istəyir və mübahisə işi üzrə razılıq əldə edilməsi üçün münasib seçim variantlarını araşdırır.

**3. Qarşılıqlı etibar mühitinin yaradılması.** Mübahisə işi üzrə tərəflər arasında uğurlu nəticənin əldə edilməsi məqsədi ilə mediator tərəflər arasında kommunikasiya prosesi üçün qarşılıqlı inam, etimad və etibar mühitinin yaradılmasına nail olmaq istiqamətində səy göstərmələdir. Bu zaman həm də nəzərə almaq lazımdır ki, ən məqbul idarəetmə üsulu inandırmadır, çünki, o, həm mübahisə edən tərəflərin, həm də mediatorun hərəkətlərinin rasionallığına əsaslnaır.

**4. Emosiyaların normallaşdırılması.** Mübahisə işi üzrə tərəflər arasında yaranan kommunikasiya prosesi zamanı mediator diqqətli olmalıdır. Belə ki, mediasiya otağında tərəflərin göstərdikləri emosional hallar tədricən destruktiv xarakter ala bilər. Mediator belə halların baş verməsindən çəkinməli, əgər baş verərsə bunu vaxtında dayandırmalı və emosiyaları normallaşdırmalıdır.

**5. Emosiyaların nəzarətdə saxlanılması.** Mediator mübahisə işi üzrə mediasiya otağında tərəflər arasında yaranan bütün mediasiya-kommunikasiya proseduru ərzində mediasiya prosesini tam nəzarətdə saxlamalıdır. Tərəflərin ifadə etdikləri emosiyalar, məzmunca, destruktiv mahiyyət almağa başlayanda mediator mübahisə edən tərəflərin sakitləşdirilməsi istiqamətində dərhal onların razılığı ilə ayrı-ayrılıqda görüşlər təşkil edərək, fərdi mediasiya sessiyaları keçirməlidir.

Beləliklə, yuxarıda göstərilənləri nəzərə alaraq, qeyd etməliyik ki, mediasiya-kommunikasiya prosesi zamanı **emosional**

**halətlərin** effektiv formada idarə edilməsi mübahisə işi üzrə **uğurlu nəticənin** əldə olunmasının əsas və başlıca şərti kimi çıxış edir. Mediatorlar emosional hisslərin daim **"yoluxucu"** ola bilməsi, mübahisə edən tərəfləri **qıcıqlandıra** bilməsi hallarını da yadda saxlamalıdırlar. Emosional halətlər mediasiya prosesinə kömək etməklə yanaşı, eyni zamanda, mübahisə edən tərəfləri çıxılmaz vəziyyətə də sala bilər. Ona görə belə hallarda **mediatorun peşəkarlıq amili** situasiyanın tənzimlənməsində vacib və əhəmiyyətli rol oynayır.

## 4.3. Mediasiyada təmsilçilik və mediasiya etikası

### 4.3.1. Mediasiya prosesində təmsilçilik

Qeyd etməliyik ki, mediasiya prosesinin həyata keçirilməsi qaydaları mediasiya haqqında qanunvericiliklə tənzimlənir. Bu qanunvericiliyə görə, mübahisə edən tərəflər mediasiya prosesində **bilavasitə** və ya **nümayəndələri** vasitəsilə iştirak edirlər. Tərəflər mediasiya prosesində vəkillərin, tərcüməçilərin, müvafiq sahədə ekspert və mütəxəssislərin köməyindən istifadə edə bilərlər. Tərəflərin razılaşması ilə mediasiya prosesində **digər şəxslərin** də iştirak etməsi mümkündür (MHQ, maddə 24.4).[1] Burada söhbət mediasiya prosesində daha çox iştirak edən **təmsilçi** (müvəkkil) şəxs kimi **vəkildən** gedir.

Məlum olduğu kimi, **vəkillər/təmsilçilər** mediasiya zamanı mübahisələrin idarə olunması proseslərində fəal iştirak edərək, mühüm rol oynayırlar. Bununla da **sözügedən şəxslər** tərəflər arasında mübahisələrin uğurlu variantda həll edilməsinə ciddi təsir göstərmək **imkanına malik** olurlar.

Buna görə də, təmsilçi-vəkillərin mübahisələrin həlli prosedurlarının danışıqlara əsaslanan proseslərdə, yəni **mediasiya**

---

[1] Bu barədə ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.22.

**prosesində** mübahisə edən tərəfləri optimal şəkildə dəstəkləməsi üçün zəruri olan **zəngin informasiya** məlumatlılığı və müvafiq **texniki-hüquqi bacarıqları** nümayiş etdirmələri çox vacib məsələdir.

Mediasiya prosesinin **tərəfləri** kimi, aydın məsələdir ki, hüquqi və fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər, habelə mediasiya prosesinin tətbiqinə razılıq verən inzibati orqanlar çıxış edir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı ilə təsdiq edilmiş **"Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"** adlı normativ hüquqi akt bu sahədə münasibətlərin tənzimlənməsində əhəmiyyətli rol oynayır.

Adıçəkilən **normativ hüquqi aktda** mediatora anlayış verilmiş, həmçinin mediasiya prosesinində iştirak edən tərəflərin hüquq və vəzifələri təsbit edilmişdir, eləcə də mediasiya prosesində faktiki iştirak edən **təmsilçi şəxslərə** dair müəyyən müddəalar yer almışdır.[1] Belə ki, mediator peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi və ya mediasiya təşkilatı tərəfindən təyin olunmuş, mediasiya haqqında qanunvericiliyin tələblərinə cavab verən fiziki şəxsdir. Mediasiya prosesinin həyata keçirilməsində şəxsən və ya etibarnamə əsasında **təmsilçi vasitəsilə** iştirak etmək mübahisə edən tərəflərin hüquqları sırasına daxildir. Əgər mübahisə işi üzrə tərəflər mediasiya nəticəsində barışıq əldə edərlərsə, mediator tərəflərin xahişi ilə **barışıq sazişinin** hazırlanmasına onlara müvafiq köməklik göstərir. Eyni zamanda, barışıq sazişi təmsilçi vasitəsilə də bağlanıla bilər. **Nümayəndə ilə təmsil olunan** tərəflə nümayəndəni məlumatlandırmaqla birbaşa əlaqə saxlamaq mediatorun hüququdur. Təmsilçiyə verilən etibarnamədə onun bu **səlahiyyətləri** xüsusi olaraq göstərilməlidir.

[1] Sözügedən normativ hüquqi aktın mətni üçün bax: ARQT. Bakı, 2019, № 9, maddə 1539.

Vəkil/təmsilçi **şəxslərin iştirakı** ilə mediasiya prosesi həyata keçirilərkən təmsilçi şəxslər mediasiya sessiyalarına hazırlıq zamanı tərəflərə müvafiq məlumat və məsləhət verməklə köməklik göstərir, eləcə də sessiya ərzində mübahisə edən tərəfləri müşayiət edir. Mediasiya prosesini səciyyələndirən **əlamətlərdən** biri də məhz mübahisə edən tərəflərin bir-biri ilə birbaşa danışması və qarşı tərəfin dinləməsi üçün mediator tərəfindən **zəruri şəraitin yaradılması** imkanıdır. Bu zaman, təbii ki, təmsilçi şəxs/vəkil tərəfindən dəstəklənən mediasiya prosesi əhəmiyyətli dərəcədə **faydalı** ola bilər. Belə ki, **belə mediasiya prosesi** mübahisə edən tərəflərin keyfiyyətli hüquqi məsləhət almasına, onların qarşılıqlı şəkildə dialoqa girməkdə daha inamlı olmasına, habelə tərəflər arasındakı hər hansı bir güc vəziyyəti bərabərsizliyinin aradan qaldırılmasına **təminat verir**. Vəkil/təmsilçi şəxslər mediasiya prosesini sadələşdirə, asanlaşdıra və mediatora uğurlu nəticə əldə etmək üçün, xüsusilə, dəstək verə bilərlər.

Fiziki və hüquqi şəxslərə yüksək keyfiyyətli **hüquqi yardımın** göstərilməsi üzrə vəkillik fəaliyyətinin əsas prinsiplərini, vəkillərin hüquqi statusunu və onların özünüidarəsinin əsaslarını "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 783-IQ nömrəli Qanunu ilə müəyyən edilir.[1]

Belə bir məqamı xüsusilə qeyd etməliyik ki, məhkəmə icraatı prosesindən fərqli olaraq, **mediasiya proseduru** tarixi faktlar, milli mentalitet, səbəbiyyət əlaqələri, mübahisə edən tərəflərin hüquqları və arqumentləri nəzərə alınmaqla, tam **fərqli bir konsepsiyaya** əsaslanır. Belə ki, qeyd edilən amillər mübahisə edən tərəflər arasında barışıq sazişi əldə etmək üçün əsas sayılmır, yəni burada mühakimə vəziyyəti yaranmır. Sözügedən kon-

[1] Ətraflı bax: "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2020, 20 s.

sepsiyanın **düzgün dərk edilməsi**, təbii ki, vəkil/təmsilçi şəxslərin mediasiya prosesində **konstruktiv** iştirakı və mübahisə edən tərəflərə proses ərzində **effektiv dəstək** verilməsi üçün olduqca aktualdır. Mediasiya prosesində əsas diqqət mübahisə edən tərəflərin gələcəkdə yarana biləcək ehtiyac, mənafe və maraqlarına **fokuslanır**. Eyni zamanda, tərəflər üçün onların bir-birini qarşılıqlı başa düşmək və mübahisəni təfsilatı ilə dərk etmək məqsədilə **interaktiv format** və **əməkdaşlıq şəraiti** yaradılır; belə şəraitdə tərəflər mübahisə üzrə müvafiq **həll yolu imkanı** əldə edirlər. Belə hal mediator tərəfindən idarə edilən və asanlaşdırılan, xüsusi struktura malik olan, qeyri-rəsmi və **könüllü xarakter daşıyan** müəyyən bir prosesdə təzahür edir.

Mübahisə işi üzrə mediasiya prosesində aktiv əməkdaşlıq və konstruktiv yanaşma təqdim edən **təmsilçi-vəkil şəxslər** mediasiyanı idarə edən mediatorlara araşdırılan problem üzrə razılaşma variantlarına fokuslanmaqda səmərəli köməklik göstərməklə, tərəflərin real maraq, tələb və ehtiyaclarını daha əhatəli şəkildə ehtiva edən barışığın əldə olunmasına **dəstək** verə bilərlər.

Mediasiya prosesinə fokuslanmağın, eləcə də onu aydın dərk etməyin bir neçə üsulu mövcuddur ki, həmin üsullardan biri **"mediasiya hərəkətlərini"** mübahisə edən tərəflərin tələb və maraqlarını daha aydın müəyyənləşdirməyə, eləcə də situasiyanı ətraflı şərh etməyə müvafiq imkan yaradan **effektiv proses** kimi nəzərdən keçirməkdən ibarətdir. Təmsilçi-vəkil şəxslərin mübahisənin həlli üzrə fəal yanaşmasına müvafiq olaraq, mediasiya prosesi bu halda çox **faydalı üsul** kimi çıxış edir. Bu zaman vəkil/təmsilçi (müvəkkil) şəxslər **etik davranış** və **peşəkarlıq** nümayiş etdirərək, mübahisə edən tərəflərin ən vacib tələb və maraqlarının təmin olunmasına **səy göstərirlər**. Bu, onu ifadə edir ki, **effektiv mediasiya**, bir qayda olaraq, mübahisə edən tərəflərin ən vacib maraqlarının müəyyən olunması və şərh edilməsi prosesində əmələ gələn müxtəlif xarakterli kommunikativ, metodoloji və konseptual problemlərin həlli yolu ilə **baş**

**tuta bilər**. Çünki effektiv mediasiya prosesində tərəflərin maraqları bütün iştirakçılar üçün daha aydın və anlaşılan olur, eləcə də tərəflər öz maraqlarını daha **məqsədəuyğun variantda** və **real formada** müəyyən edə bilirlər.

Başqa sözlə desək, effektiv mediasiya, adətən, mübahisə işi üzrə tərəflər arasında qarşılıqlı razılıq əsasında, könüllü olaraq, müvafiq **barışıq sazişinin** bağlanması yolu ilə yekunlaşır. Deməli, mübahisə edən tərəflər arasında belə bir yazılı barışıq sazişinin imzalanmasından sonra mediasiya **mübahisəni sona çatdırır**. Sözügedən sənəd – barışıq sazişi qanuni **hüquqi qüvvəyə** malik olan və məcburi **icra öhdəliyi** yaradan müqavilə sayılır.[1]

Xüsusilə vurğulamalıyıq ki, mübahisə üzrə işin mediasiyada təhlilinin tərkib hissəsi kimi, əsasən, **mübahisələrin həlli metodunun seçilməsi** amili çıxış edir. Belə ki, tərəflər arasındakı müvafiq mübahisə işinə baxarkən, vəkil/təmsilçi şəxslər, adətən, mübahisə probleminin mahiyyətinə əsaslanan **yanaşma** tətbiq edirlər. Mübahisənin həlli istiqamətində mediasiya proseslərinin seçilməsində isə, vəkil/təmsilçi şəxslərin toxunulmuş məsələyə **obyektiv** və **analitik tərzdə** yanaşması mühüm əhəmiyyət kəsb edir. Göstərilən tərzdə peşəkar münasibət istənilən mediasiya işinin təhlilində **başlanğıc nöqtə** ola bilər. Bu zaman, təbii ki, mübahisə edən tərəflərin şəxsi keyfiyyətləri, xüsusi ehtiyacları və seçimləri, eləcə də qarşı tərəflə davranış və münasibətləri nəzərə alınmalıdır.

Mediasiya prosesində iştirak edən təmsilçi/vəkil şəxslər tərəflərin **düzgün seçim** etməsini təmin etmək üçün onları mediasiyada baxılan mübahisələrin həlli prosesləri, habelə problemin xüsusiyyətləri və tövsiyə olunan tədbirlər haqqında ətraflı məlumatlandırmalıdır. Təmsilçi/vəkil şəxslər bu cür **metodları** tərəflərə rasional təklif kimi **təqdim etməklə**, seçilmiş mediasiya

---

[1] Mediasiyada təmsilçilik barədə daha ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.52-60.

prosesi vasitəsi ilə mübahisə edən tərəflərə **peşəkar dəstək** göstərə bilərlər.

Eyni zamanda, qeyd etməliyik ki, mübahisələrin həlli üçün mediasiya həyata keçirilərkən göstərilən metodologiya əsasında müvafiq **adekvat prosesin** seçilməsi vacib məsələdir. Belə ki, bu seçim tərəflərin mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərərək, potensial nəticələrin əldə edilməsi istiqamətində **mümkün seçim dairəsini** konkretləşdirə bilər. Ona görə də, təmsilçi/vəkil şəxslər mübahisələrin həlli zamanı müxtəlif mediasiya proseslərindən istifadə edilməsinin müsbət və mənfi aspektlərini tərəflərlə **fəal şəkildə müzakirə** etməlidirlər. Göstərilən amil təmsilçi/vəkil şəxslərin peşə davranışının qiymətləndirilməsində **metodoloji əsas** kimi sayılır. Bu baxımdan, **hüquqi təhlil aparan** təmsilçi şəxslər əvvəlcədən mübahisənin həlli üzrə bütün rasional variantları nəzərdən keçirərək, **situasiyanı** obyektiv şəkildə dəyərləndirməlidirlər.[1]

Belə bir məqamı da qeyd etməliyik ki, mübahisələrin həlli üçün **əlverişli metodların seçilməsi** mübahisənin yarandığı vaxt, yaxud ondan daha əvvəl, yəni mediasiyada iştirak barədə **müqavilə mərhələsində** baş tuta bilər. Ona görə də, təmsilçi/vəkil müqavilə hazırlayarkən, mediasiya prosedurunun müqavilə bağlayan tərəflərə **faydalı** ola biləcəyi, eləcə də müqavilə münasibətlərinin spesifik xarakterinə görə **xüsusi əhəmiyyət** kəsb edəcəyi barədə mülahizələri diqqətdə saxlamalıdır; həm də mediasiya barədə müvafiq **qeyd-şərtin** müqaviləyə daxil edilə bilməsinin **mümkünlüyü** nəzərdən keçirilməlidir.

Mediasiya işi üzrə **mübahisənin həllinin düzgün metodu** barədə tərəflərə məsləhət verilməsi, eləcə də mediasiya prosesinə dair hərtərəfli **xərc-mənfəət təhlilinin** aparılması vəkil/təmsilçi şəxslərin vəzifə borcudur. Bu kontekstdə vəkil/təmsilçi şəxslər mübahisə tərəflərinə, daha doğrusu, öz

[1] Mediasiya prosesində təmsilçilik institutu barədə ətraflı bax: Etibar Əliyev, Fatimə Hüseynova. Mediasiya prosesində təmsilçilik // “Azərbaycan Vəkili” elmi-praktik hüquq jurnalı.Bakı,”PrintMart” MMC, 2023, s.8-14.

müştərilərinə bu **peşəkar vəzifə borcunun** lazımi şəkildə yerinə yetirildiyini açıqcasına **nümayiş** etdirməlidirlər. Belə ki, **mediasiya prosesinin** hansı müddətə davam edə biləcəyini, prosesin nə qədər xərc tələb edəcəyini, risklərin nədən ibarət ola biləcəyini, gözlənilən nəticəyə nailolma ehtimalının nə qədər olduğunu, eləcə də barışıq sazişinin icrası ilə bağlı riskləri **mübahisə edən tərəflərin** anlaması mühüm məsələdir.

Bu kontekstdə vəkil/təmsilçi mübahisə edən tərəflərin mediasiya prosesi ilə bağlı **seçimlərinə** dair ən yaxşı, yaxud ən pis variantları, eləcə də faktiki real hədəf səviyyəsini müəyyən edərək, mediasiya işinin risk səviyyəsinin **dəyərləndirilməsini** aparmalıdır. Sözügedən **risk ehtimalının** müəyyən edilməsi seçilmiş mediasiya işinin realizasiya prosesində yenidən nəzərdən keçirilməli və zərurət yarandığı halda yenilənməlidir. Belə ki, mediasiya işi ilə bağlı əvvəlcədən həyata keçirilən hər hansı bir **araşdırma**, habelə mediasiya işi üzrə dəyərləndirmə mübahisə edən tərəflərə mövcud **seçim imkanlarını** daha düzgün qiymətləndirməyə və real gözləntilər proqnozlaşdırmağa dəstək ola bilər.

Qeyd etməliyik ki, vəkil/təmsilçi şəxsin mübahisə işi üzrə mediasiya prosesinə **cəlb edilməsinin** cürbəcür metod və üsulları mövcuddur. Bu kontekstdə, praktiki olaraq, aşağıda göstərilən **metod** və **üsulları** fərqləndirə bilərik:

– vəkil/təmsilçi şəxs mübahisə edən tərəfi onun müştəri-sifarişi əsasında mediasiya prosesinə hazırlayır və sonra həmin tərəfi mediasiya prosesində tək buraxır;

– vəkil/təmsilçi şəxs mübahisə işi üzrə tərəfi ilə mediasiya prosesi ərzində onunla birlikdə tamamilə iştirak edir (bu metod daha optimal vəziyyət sayılır);

– mübahisə işi üzrə tərəf mediasiya prosesinin əvvəlində tək olur və onun vəkili mediasiya prosesinə son fazada daxil olur (bu zaman real variantlardan nəticə çıxarmaq prosesində vəkil həmin tərəfə-şəxsə istiqamət verir, son barışıq və ya digər razılaşmanın hazırlanmasında ona dəstək göstərir);

– mübahisə işi üzrə tərəf mediasiya prosesində şəxsən iştirak etmədiyi halda və ya müddətdə vəkil həmin şəxsi hüquqi cəhətdən təmsil edir və s.

Ümumiyyətlə, mübahisə edən şəxslərin **mediasiya prosesində iştirakı**, bir qayda olaraq, tələb edilir; belə hal həm də mediasiya prosesini aparan mediatorlar tərəfindən tövsiyə edilir. Lakin, praktiki cəhətdən, mediasiya prosesində iştirak edən **hər bir tərəfin** mübahisə işi üzrə problemi həll etmək və mübahisə tərəfləri üçün məcburi hüquqi qüvvəsi olan barışıq sazişini imzalamaq **səlahiyyətlərinə** malik olan nümayəndə tərəfindən **təmsil edilməsi** mümkün sayılır. Eyni zamanda, nümayəndənin təmsil etdiyi tərəf üçün müvafiq barışıq sazişini imzalamaq haqqında səlahiyyətində müəyyən **məhdudiyyət halları** mövcud olduqda, mediasiya prosesini aparan mediator belə halların mövcudluğunu **aşkarlamalı** və bu barədə mediasiya prosesində iştirak edən hər bir tərəfə **aidiyyəti üzrə məlumat** verməlidir.

Göstərilənlərlə yanaşı, qeyd etməliyik ki, **mübahisə edən tərəflərin**, yəni həm fiziki, həm də hüquqi şəxslərin (hüquqi şəxslərə münasibətdə – səlahiyyətli rəhbər nümayəndənin) mediasiya prosesində **şəxsən iştirak etməsi**, mahiyyət etibarilə, mediasiya işi üzrə problemin yeni **həll variantlarının** daha asan araşdırılmasına **münbit şərait** yaradır. Bu zaman mübahisə işi üzrə barışıq sazişinin əldə edilməsi, eləcə də bununla bağlı müvafiq qərarların qəbul olunması üçün mediasiya prosesində **tam səlahiyyətlə** iştirak etmək, zənnimizcə, **uğurlu mediasiyanın** baş tutması istiqamətində vacib faktordur.

### 4.3.2. Mediasiya etikası

Hər şeydən əvvəl, qeyd etməliyik ki, mediasiya etikası ilə bağlı münasibətlər mediasiya qanunvericiliyi ilə tənzimlənir. Belə ki, qanunvericiliyə görə, **mediasiya** dedikdə mediatorun

(mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həll edilməsi ilə bağlı həyata keçirilən **proses** başa düşülür (MHQ, maddə 1.0.1.) [1]. Uğurlu mediasiya prosesinin həyata keçirilməsində **mediasiya etikası** vacib rol oynayır. Söhbət mediasiya prosesi zamanı mediatorun etik davranış əməllərindən (hərəkətlərindən və ya hərəkətsizliklərindən) gedir.

Sözügedən sahədə yaranan ictimai münasibətlərin **nizama salınması** istiqamətində "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli 607 nömrəli Fərmanının 1.8-ci bəndinin icrasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul olunaraq, **"Mediatorların peşəkar etik davranış Qaydası"** təsdiq edilmişdir.

Adıçəkilən normativ hüquqi akt, yəni Qayda **4 bölmədən** ibarət olmaqla, özündə aşağıda göstərilən müddəaları təsbit edir: [2]

1. Ümumi müddəalar;
2. Mediatorların davranış qaydaları;
3. Peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar mediatorun etik davranış prinsipləri;
4. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması.

**Ümumi müddəalar** adlanan 1-ci bölmədə qeyd edilir ki, sözügedən Qayda MHQ-yə müvafiq olaraq hazırlanmış (MHQ,

[1] Ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, s.3.

[2] Ətraflı bax: "Mediatorların peşəkar etik davranış Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05.09.2019-cu il tarixli 384 nömrəli Qərarı // https://e-qanun.az/framework/43221 (12.10.2023-cü il).

maddə 20.1.5.) və özündə mediasiya fəaliyyəti ilə peşəkar əsasda məşğul olan fiziki şəxslərin mediasiya prosesi zamanı etik davranış qaydalarını, müvafiq prinsipləri və onlara əməl edilməsi ilə əlaqədar yaranan ictimai münasibətləri **tənzimləyən müddəaları** təsbit edir. Qaydanın **məqsədi** mediasiya fəaliyyətini həyata keçirən mediatorların və mediasiya təşkilatlarının işgüzar nüfuzunun yüksəldilməsi, onlara münasibətdə inam və etimadın artırılması, eləcə mediasiya fəaliyyətində yüksək səmərəliliyin təmin olunmasından ibarətdir. Qaydada təsbit olunan **hüquq normaları** Azərbaycan Respublikasının ərazisində mediator fəaliyyəti ilə məşğul olan bütün şəxslərə şamil edilir.

**2. Mediatorların davranış qaydaları.** Bu bölmədə müəyyən edilmişdir ki, mediasiya işi ilə məşğul olan mediator peşə fəaliyyətini həyata keçirərkən insan haqlarına (hüquq və azadlıqlara) hörmət, qanunçuluq və s. demokratik, hüquqi prinsipləri, eləcə də yüksək etik davranış standartlarını **əldə rəhbər** tutmalıdır və bu tələblərə riayət etmək onun **əsas vəzifələrindən** biri sayılır. Həmçinin mediatorların davranışı mediasiya qanunvericiliyində nəzərdə tutulmuş **müvafiq prinsiplərə** əsaslanmalıdır.

Növbəti bölmə "**3.Peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar mediatorun etik davranış prinsipləri"** adlanır. Göstərilən Qaydada etik davranış prinsipləri **aşağıdakı kimi** müəyyən edilmişdir:

1. İnsan haqlarına (hüquq və azadlıqlarına), fiziki və hüquqi şəxslərin qanuni maraqlarına, şərəf və ləyaqətinə, eləcə də işgüzar nüfuzuna hörmət edilməsi prinsipi;
2. Qanunçuluq prinsipi;
3. Vicdanlı davranış prinsipi;
4. Peşəkarlıq və fərdi məsuliyyətin artırılması prinsipi;
5. Loyallıq prinsipi;
6. İctimai etimad prinsipi;
7. Mədəni davranış prinsipi;
8. Qərəzsizlik prinsipi;

9. Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi prinsipi;
10. Konfidensiallıq prinsipi.

**İnsan haqlarına (hüquq və azadlıqlarına), fiziki və hüquqi şəxslərin qanuni maraqlarına, şərəf və ləyaqətinə, eləcə də işgüzar nüfuzuna hörmət edilməsi prinsipi** özündə, mahiyyət etibarilə, aşağıdakı müddəaları ehtiva edir:

– mediasiya fəaliyyətini həyata keçirən mediator insan haqlarını (hüquq və azadlıqlarını), fiziki şəxslərin qanuni maraq və mənafelərini, şərəf və ləyaqətini, eləcə də işgüzar nüfuzunu ləkələyə biləcək əməllərə yol verməməlidir;

– mediasiya fəaliyyətini həyata keçirən mediator tərəfindən mediasiya prosesi ərzində hüquqi şəxslərin işgüzar nüfuzuna hörmətlə yanaşılmalı və onların işgüzar nüfuzunu ləkələyə biləcək əməllərə yol verilməməlidir.

**Qanunçuluq prinsipi** onu ifadə edir ki, mediator öz funksiya və vəzifələrini yerinə yetirərkən Konstitusiyanın, Azərbaycan Respublikasının tərəfdar çıxdığı (imzaladığı və ya qoşulduğu) beynəlxalq müqavilələrin, qüvvədə olan qanunların və digər normativ xarakterli aktların müəyyənləşdirdiyi müddəaları əldə rəhbər tutmalıdır.

Növbəti prinsip, yəni **vicdanlı davranış prinsipi**, məzmunca, özündə aşağıda göstərilən müddəaları ehtiva edir:

– mediasiya fəaliyyətini həyata keçirən mediator öz vəzifə və funksiyalarını fərd, cəmiyyət və dövlət maraqları naminə səmərəli şəkildə yerinə yetirməyə borcludur;

– cəmiyyətdə mübahisələrin həlli üzrə mediasiya prosesi ilə bağlı mediator peşə fəaliyyətini həyata keçirməklə əlaqədar hər bir şəxs üçün vicdanlılıq nümunəsi olmalıdır.

**Peşəkarlıq və fərdi məsuliyyətin artırılması prinsipinin** struktur məzmunu aşağıda göstərilən elementlərdən ibarətdir:

– mediator mediasiya sahəsində öz fəaliyyətini mediasiya qanunvericilik aktları ilə müəyyən edilmiş səlahiyyətlər

hüdudlarında və yüksək peşəkarlıq formatında yerinə yetirməyə borcludur;

– mediasiya prosesini həyata keçirən mediator xüsusi davranışı və öz peşəkar əməlləri ilə mediasiya sahəsində fəaliyyətə fiziki və hüquqi şəxslərin inamını artırmalı və möhkəmləndirməli, eləcə də mediasiya prosesinin aparılması üçün zəruri olan elmi-nəzəri və praktik bilik səviyyəsini daim təkmilləşdirməli və zənginləşdirməlidir.

Mediasiya fəaliyyəti sahəsində tətbiq edilən **loyallıq prinsipi** özündə aşağıda göstərilən müddəaları ehtiva edir:

– mediasiya prosesini idarə edən mediator bütün hallarda öz şərəf və ləyaqətini qorumalı, peşə fəaliyyəti ilə bağlı vəzifələri yerinə yetirərkən, mediasiya sahəsində fəaliyyətin nüfuzunun aşağı düşməsinə səbəb ola biləcək əməllərə yol verməməlidir;

– mediasiya prosesini həyata keçirən mediator mediasiya haqqında qanunvericilikdə mediasiya fəaliyyəti ilə bağlı nəzərdə tutulmuş tələb, məhdudiyyət və vəzifələrə ciddi surətdə əməl etməlidir.

**İctimai etimad prinsipi** də mediatorun etik davranış prinsipləri sırasına daxildir. Bu prinsipin tərkib hissəsini aşağıdakı tədbirlər təşkil edir:

– mübahisənin həlli üzrə mediasiya prosesini idarə edən mediator mediasiya fəaliyyətini həyata keçirərkən cəmiyyətdə bu sahənin nüfuzunun artırılması və möhkəmləndirilməsi istiqamətində zəruri tədbirlər görməyə borcludur;

– mediasiya prosesini həyata keçirən mediator etik davranış qaydalarının pozulması halları ilə bağlı yaranan nəticələri aradan qaldırmalı, eləcə də ictimai etimadın bərpası üçün zəruri tədbirlər görməlidir.

Mediatorun etik davranış prinsipləri cərgəsində **mədəni davranış prinsipi** də fərqləndirilməlidir. Göstərilən prinsipin məzmunu özündə aşağıdakıları ehtiva edir:

– mediator mübahisə işi üzrə mediasiya fəaliyyətini həyata keçirərkən müvafiq nitq mədəniyyətinə riayət etməli, mediasiya prosesində iştirak edən bütün şəxslərə münasibətdə mədəni, nəzakətli, diqqətli, təmkinli və səbirli olmalıdır;

– mübahisə işi üzrə mediasiya fəaliyyətini həyata keçirən mediator peşə fəaliyyəti dövründə digər mediatorlarla problemin ədalətli həlli üzrə qarşılıqlı münasibətlərini qanunvericiliklə müəyyən edilmiş konkret hərəkətlərə və ya hüquqi təcrübəyə əsaslanan inam və hörmət prinsipi əsasında formalaşdırmalıdır.

Mediasiya fəaliyyətində tətbiq edilən **qərəzsizlik prinsipi**, mahiyyət etibarilə, aşağıda göstərilən komponentlərdən ibarətdir:

– mübahisə işi üzrə mediasiya fəaliyyətini həyata keçirən mediator mediasiya prosesi zamanı müstəqil və qərəzsiz mövqe tutmalıdır;

– mediasiya prosesini həyata keçirən mediator mediasiya zamanı mübahisə edən tərəflərə bərabər yanaşma sərgiləməli, tərəflərin mediasiya prosesində bərabərhüquqlu iştirakını təmin etməli və hər bir tərəfə mediasiya prosesi zamanı öz tələb və təkliflərini təqdim etmək üçün eyni şərait və bərabər imkanlar yaratmalıdır;

– mediator öz peşəkar funksiya və vəzifələrini icra edərkən mediasiya prosesində iştirak edən şəxslərin irqinə, etnik mənsubiyyətinə, dilinə, dininə, əqidəsinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə və qulluq mövqeyinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və ictimai birliklərə mənsubiyyət əlamətinə görə hər hansı bir üstünlüyə malik olmasına və ya belə üstünlüyün əldə edilməsi məqsədilə müvafiq şəraitin yaradılmasına yol verməməlidir;

– mediator öz peşə funksiyalarının həyata keçirilməsi və vəzifə borclarının yerinə yetirilməsi zamanı siyasi bitərəflik meyarına mütləq şəkildə əməl etməyə borcludur;

– mediasiya prosesini həyata keçirən mediator mediasiya fəaliyyətinə hər hansı bir şəxs – qohum, dost və tanış tərəfindən, istənilən formada müdaxilə edilməsinə yol verə, eyni zamanda, dövlət və yerli özünüidarəetmə orqanlarının, fiziki və hüquqi şəxslərin təsiri altına düşə bilməz, həm də ictimai rəy və ya tənqid onun fəaliyyətinin hüquqauyğunluğuna və de-fakto əsaslılığına təsir göstərməməlidir.

**Maddi və qeyri-maddi nemətlərin, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi prinsipi** onu ifadə edir ki, qanunauyğun peşə fəaliyyətini həyata keçirməklə əlaqədar mediatorun (mediatorların), hüquqazidd olaraq, maddi və qeyri-maddi nemətlər, güzəşt və imtiyazların əldə edilməsinə yönəldilmiş əməllərə (hərəkət və ya hərəkətsizliyə) yol verməsi qadağandır. Mediasiya fəaliyyəti sahəsində tətbiq edilən digər prinsip **konfidensiallıq prinsipi** adlanır. Bu prinsip, mahiyyət etibarilə, özündə aşağıdakı müddəaları ehtiva edir:

– mediasiya prosesini həyata keçirən mediator mediasiya haqqında qanunvericiliyə uyğun olaraq, öz peşə fəaliyyəti ərzində, eləcə də mediasiya təşkilatının müvafiq fəaliyyəti həyata keçirmək hüququ dayandırıldıqdan və ya Mediasiya Şurasının üzvlüyündən çıxarılmasından sonra əldə etdiyi bütün məlumatların konfidensiallığını müvafiq qaydada təmin etməlidir;

– mediasiya haqqında qanunvericiliyə müvafiq olaraq, mediasiya prosesini həyata keçirən mediator mediasiya prosesi ərzində ona məlum olan informasiyaları məhkəmə və arbitraj proseslərində, digər mediasiya zamanı və ya başqa hallarda açıqlaya və ya onlara istinad edə, eləcə də belə informasiyalarla əlaqədar şahid qismində çıxış edə bilməz; lakin bu zaman həmin informasiyaları verən tərəfin yazılı razılığı olduğu hallar istisna təşkil edir;

– mediator mübahisə işi üzrə mediasiya prosesi zamanı peşə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar əldə etdiyi

informasiyalardan öz şəxsi məqsəd, maraq və mənafeləri üçün istifadə edə bilməz.

**4. Etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması.** Bu münasibətlərin hüquqi cəhətdən nizama salınması ilə bağlı müvafiq müddəalar yuxarıda adı çəkilən "Mediatorların peşəkar etik davranış Qaydası" adlı normativ hüquqi aktda **ayrıca bölmə** həsr edilmişdir. Belə ki, mediasiya prosesi zamanı mediator tərəfindən etik davranış qaydalarına riayət edilməsi, peşə fəaliyyəti üzrə davranışının mövcud qaydalara uyğunluğu onun özü, çalışdığı mediasiya təşkilatı və Mediasiya Şurası tərəfindən mütəmadi şəkildə təhlil edilir və mediasiya haqqında qanunvericiliyə uyğun olaraq, **zəruri tədbirlər** görülür.

Praktiki fəaliyyətdə mövcud olan **etik davranış qaydalarına** əməl edilməsi ilə əlaqədar olaraq, aşağıda göstərilən **müvafiq tədbirlər** həyata keçirilir:

– peşə fəaliyyətlərinin həyata keçirilməsi ilə bağlı mediatorların hərəkətlərinin mediasiya haqqında qanunvericilikdə nəzərdə tutulan etik davranış prinsip və normalara uyğunluğuna nəzarət edilməsi və bu istiqamətdə müvafiq təhlillərin aparılması;

– mediasiya fəaliyyəti zamanı etik davranış qaydalarının pozulması hallarının qarşısının alınması və profilaktikası üzrə müvafiq preventiv tədbirlərin görülməsi;

– mediasiya fəaliyyətini həyata keçirən mediatorlara etik davranış qaydalarının hərtərəfli izah edilməsi və zərurət yarandıqda, sözügedən etik davranış qaydalarına ciddi əməl olunmasına dair mediatorlara müvafiq tövsiyələrin verilməsi;

– öz peşə fəaliyyətinin həyata keçirilməsi zamanı etik davranış qaydalarını pozan mediatorların mediasiya haqqında qanunvericilikdə nəzərdə tutulan intizam məsuliyyətinə cəlb edilməsi üçün müvafiq tədbirlərin görülməsi;

– mediasiya prosesi zamanı tətbiq edilən etik davranış qaydaları və mediatorlar tərəfindən bu qaydalara riayət edilməsini

tələb etmək hüquqlarına malik olmaları barədə fiziki və hüquqi şəxslərin ətraflı məlumatlandırılmasına dair müvafiq tədbirlərin görülməsi;

– mediasiya prosesi icra edilərkən etik davranış qaydalarının pozulması halları ilə əlaqədar olaraq, görülmüş tədbirlərlə bağlı maraqlı tərəflərin məlumatlandırılması, habelə pozuntu nəticələrinin aradan qaldırılması, eləcə də mediatorlara ictimai etimadın artırılması istiqamətində aidiyyəti tədbirlərin görülməsi;

– mediasiya prosesi həyata keçirilərkən etik davranış qaydalarına ciddi surətdə riayət edilməsi ilə əlaqədar əhəmiyyət kəsb edən digər qabaqlayıcı və zəruri tədbirlərin görülməsi və s.

Eyni zamanda, qeyd etməliyik ki, etik davranış qaydalarının pozulması hallarına **yol verilməsi** mediatorun intizam məsuliyyətinə cəlb edilməsi üçün **əsas sayılır.**

Göründüyü kimi, sözügedən Qayda mediasiya prosesi zamanı mediatorların etik davranış qaydalarına nəzərət, monitorinq və qiymətləndirmənin həyata keçirməsi ilə bağlı münasibətləri tənzimləyən və **mühüm əhəmiyyət** kəsb edən normativ hüquqi aktdır. Qaydanın **məqsədi** mediatorların və mediasiya təşkilatlarının nüfuzunun artırılması, cəmiyyətdə vətəndaşların mediasiya təşkilatlarına və mediatorlara etimadının yüksəldilməsi, eləcə də mediatorların və mediasiya təşkilatlarının fəaliyyətində səmərəliliyin artırılması hallarının **təmin edilməsindən** ibarətdir.

Bu məqsədlə Mediasiya Şurasında **Etika Komitəsi** yaradılmış (2022-ci il) və nümunəvi davranışları ilə fərqlənən, maraq konfilikti yaradan kateqoriyaya daxil olmayan mediatorların iştirakı ilə onun **tərkibi** artıq formalaşdırılmışdır.[1] Sözügedən Etika Komitəsi öz fəaliyyətində şəffaflıq prinsipinə əsaslanır və mediasiya proseslərində **konfidensiallıq meyarlarını** gözləməklə cəmiyyət üçün açıqdır. Etika Komitəsinin yaradılmasında

[1] Ətraflı bax: www.mediation.az (18.10.2023-cü il).

**əsas məqsəd** Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Mediatorların peşəkar etik davranış Qaydası"nın effektiv tətbiqinə nəzarətin gücləndirilməsindən və eyni zamanda, maraq konfiliktləri hallarının **qarşısının alınmasından** ibarətdir.

Eyni zamanda, qeyd edə bilərik ki, **mediasiya fəaliyyətinin səmərəliliyi**, bir qayda olaraq, dünya təcrübəsində olduğu kimi, bu təsisat vasitəsilə öz müsbət həllini tapan mübahisələrin sayı ilə ölçülməkdədir. Bunun üçün, hər şeydən əvvəl, **keyfiyyətli mediasiya xidmətinin** göstərilməsi təmin edilməli və bu zaman vətəndaşların **məmnunluğu prinsipi** əldə rəhbər tutulmalıdır.[1] Təbii ki, bu işdə əsas yük mediasiya proseslərini aparan mediatorların və mediasiya təşkilatlarının üzərinə düşür. Buna görə də, mediasiya prosesini idarə edən **hər bir mediator** öz fəaliyyətinə, ilk növbədə, **özünənəzarət** həyata keçirməli və özü qarşısında **hesabatlı** olmalıdır. Belə yanaşma mediatorun etik davranış qaydaları, eləcə də qanunçuluq və vicdanlı davranış prinsipləri ilə müvafiq **qarşılıqlı uzlaşma** təşkil edir.

Beynəlxalq təcrübədə mediasiya sahəsində **müxtəlif etik davranış qaydaları** mövcuddur. Bu sırada aşağıdakıları **göstərə bilərik**:

– Avropa Komissiyasının mediatorlar üçün Avropa Davranış Qaydaları;

– MAH-da Etika və Standartlar üzrə CPR-Corctaun Komissiyasının müstəqil üçüncü tərəf olan hüquqşünaslar üçün Model Qaydaları;

– UİA Mediasiya Mərkəzləri Forumunun mediatorlar üçün Davranış Qaydaları;

– Avstraliya Hüquq Şurasının Mediatorlar üçün Etika Qaydaları;

---

[1] Bu məsələlər barədə ətraflı bax: Mediasiya Şurasının 2020-ci il 15 aprel tarixli qərarı ilə təsdiq edilmiş "Mediatorların davranışı ilə bağlı Reqlament" // URL: medasiya.gov.az (19.10.2023-cü il).

– Beynəlxalq Mediasiya İnstitutunun Peşəkar Davranış Qaydaları və s.

Bu aktlarda ehtiva olunan **ortaq müddəaları** ümumiləşdirərək, qeyd edə bilərik ki, mediasiya prosesində həm də etik davranış münasibətlərini tənzimləyən **xüsusi xarakterli** müəyyən prinsiplər tətbiq edilir. Bu prinsiplər, ədəbiyyat səhifələrində göstərildiyi kimi, **etik prinsiplər** adı ilə tanınır və mübahisə tərəfləri, mediasiyanı idarə edən mediator (mediatorlar) və mediasiya prosesi **elementləri** üzrə qruplaşdırılır:[1]

– **mübahisə tərəfləri** ilə bağlı etik prinsiplər – müqəddəratını həll etmək, məlumatlı razılıq, rəy bildirilməsi;

– **mediatora** dair etik prinsiplər – müstəqillik, bitərəflik, qərəzsizlık;

– **mediasiya prosesinə** dair etik prinsiplər – konfidensiallıq, zərər vurmamaq, dürüstlük prinsipi və s.

Mediasiya prosesi həyata keçirilərkən **etik mediasiya filtri** adlı mexanizmdən istifadə edilir. Belə ki, etik mediasiya filtri mediasiya prosesində müstəqil və qərəzsiz yanaşmanın təmin edilməsi istiqamətində mediatora proses ərzində yarana biləcək maraqların toqquşması hallarını **idarə etməyə dəstək** verən sadə bir **nəzəri vasitə** sayılır. Bu, praktiki cəhətdən, mediatorun müstəqilliyinə təsir göstərə biləcək informasiyaları qiymətləndirməyə şərait yaradan **üçaddımlı proses** kimi təsəvvür edilir. Mediasiya prosesi ərzində hər bir addımda mediasiya işi üzrə müvafiq qərar qəbul edilməsinə imkan yaranır.

**Birinci addımın** mahiyyəti ondan ibarətdir ki, bütün mediasiya prosesi ərzində mediator özünə ünvanladığı *"Bu məlumat (informasiya) mənim müstəqilliyimə (bitərəfliyimə) təsir edə bilərmi?"* ilk suala müvafiq cavabı müəyyən etməlidir. Əgər "xeyr" cavabı olarsa, onda mediasiya heç bir qərəz olmadan

---

[1] Mediasiya etikası barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADR Center, 2020, s.95-99.

davam edəcəkdir; suala "bəli" cavabı olduqda isə, mediator tərəflərin düşüncə təsirinə məruz qalacaqdır.

**İkinci addım** isə potensial maraqlar toqquşmasının təhlili ilə bağlıdır və mediatoru belə bir suala müvafiq cavab tapmasına vadar edir: *"Bu məlumat (informasiya) mənim müstəqilliyimə (bitərəfliyimə) təsir göstərə bilərmi?"* Bu sualın da iki mümkün cavabı vardır. Əgər cavab "bəli" olarsa, onda mediatorun fikrincə, onun müstəqilliyi təsirə məruz qalır və növbəti mərhələ, özünüqiymətləndirmənin təqdimatı barədə tərəflərə müvafiq məlumat verməklə, mediasiya prosesinin dayandırılmasından ibarətdir; cavab "xeyr" olduqda isə, mediatorun özünü qiymətləndirməsi nəticəsində tərəflər mediasiya prosesini davam etdirmək və yaxud dayandırmaq barədə qərar verirlər.

Sonra **üçüncü addım** həyata keçirilir və mediator tərəflərə belə bir sual ünvanlayır: *"Bu şəraitdə mediasiya prosesi ilə bağlı nə etməyi seçirsiniz?"* Tərəflər potensial maraqlar toqquşması haqqında tam məlumatlandırıldıqdan sonra mediasiya prosesinin davam edib-etməyəcəyi və aşkar olunmuş maraqlar toqquşması səbəbindən prosesin dayandırılıb-dayandırılmayacağı barədə müvafiq qərar qəbul edirlər.

Sözügedən proses mediasiya fəaliyyəti peşəsinin həm təklif, həm də tələb aspektləri üçün **faydalı** və **əlverişli** ola bilər. Başqa sözlə, mediator potensial maraqlar toqquşması halını uğurla həll etmək üçün **şəffaflıq**, eləcə də tərəflərə effektiv surətdə **əməkdaşlıq** təklif etməklə, mediasiya prosesində öz müstəqilliyini artırır.

Beləliklə, **mediasiya müstəvisində** mediator tərəfindən əldə edilən istənilən məlumata, xəbərə və informasiyaya **münasibətdə**, praktiki kontekstdə, sözügedən etik mediasiya filtri **tətbiq edilə** bilər.

# İXTİSARLAR

**ABŞ** – Amerika Birləşmiş Ştatları
**ADR** Center – Təsisçi və icraçı direktor – Leonardo D*Urso
**Aİ** – Avropa İttifaqı
**AM** – Azərbaycan Respublikasının Ailə Məcəlləsi
**AR QK** – Azərbaycan Respublikasının Qanunlar Külliyyatı
**AR QT** – Azərbaycan Respublikasının Qanunvericilik Toplusu
**AŞ** – Avropa Şurası
**AŞPA** – Avropa Şurası Parlament Assambleyası
**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
**BƏT** – Beynəlxalq Əmək Təşkilatı
**BMİ** – Beynəlxalq Mediasiya İnstitutu
**BMK** – Beynəlxalq Maliyyə Korporasiyası – İFC
**BMT** – Birləşmiş Millətlər Təşkilatı
**BTM** – UNCTAD ÜTT-nin Beynəlxalq Ticarət Mərkəzi
**BTP** – Beynəlxalq Ticarət Palatası
**BYİB** – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı – Ümumdünya Bankı
**CAO** – Uyğunluq (Compliance) Məsələləri üzrə Müşavir / Ombudsman
**CEPEJ** – Ədliyyənin Səmərəliliyinin Artırılması üzrə Avropa Komissiyası
**CM** – Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
**CPM** – Azərbaycan Respublikasının Cinayət-Prosessual
**ÇİZA** – Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi – MİGA
EKOSOS – BMT-nin İqtisadi və Sosial Şurası
ƏDV – Əlavə Dəyər Vergisi
**ƏM** – Azərbaycan Respublikasının Əmək Məcəlləsi
**GM** – Azərbaycan Respublikasının Gömrük Məcəlləsi
**GUAM** – Demokratiya və İqtisadi İnkişafı Naminə Təşkilat – Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova
**XTBS** – Xidmətlərlə Ticarət üzrə Baş Saziş – QATS

**İXM –** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
**İİQ –** İnzibati icraat haqqında Azərbaycan Respublikasının Qanunu
**İNKOTERMS –**Ticarət terminlərinin təfsirinin Beynəlxalq Qaydaları
